*XANKİŞİ BƏXTİYAR*

# ƏN CƏSUR KOMANDAN
# BİZİM KOMANDAN



**Redaktoru: Mahirə Nağıqızı,** filologiya elmləri doktoru, professor, Azərbaycan Yazıçılar Birliyinin üzvü
**Məsləhətçi: Telman Budaqov**

***Xankişi Bəxtiyar. Ən cəsur komandan bizim komandan. Şeirlər. Bakı, ADPU, 2023, 247 səh.***

Oxuculara təqdim olunan "**Ən cəsur komandan bizim komandan"** kitabına adı Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunmuş dünyanın ən cəsur komandanı **İlham Əliyevə** həsr edilən şeirlər, eləcə də müəllifin son illərdə qələmə aldığı şeirlərin bir qismi toplanmışdır.

## Müəllifdən

Ömür boyu üç şeydən qorxmuşam. Bir Allahın xofundan, bir "söz"ün xofundan, bir də ağsaqqalların, ustadların xofundan. Bu gün də belədir. Sözdən söz düşəndə təntiyirəm arabir, ürəyim də əsir hərdən-birdən, nəfəsim də təngiyir ara-sıra. Həmişə olduğu kimi, bu dəfə də sözün əl-qolunu bağlayıb, qul bazarına sürükləyənlərdən olmamağa çalışmışam, dəyərli oxucular! Çalışmışam ki, şeirlərim sizləri gerçəkliyə doğru gedən güllü-çiçəkli, sahilsiz bir ümmana sarı aparsın. Bu yolda qazancım çox olacaq, yoxsa çıxarım? Deyə biılmərəm. Hər halda arzu etmişəm ki, təqdim olunan bu şeirlər cır meyvənin kalı kimi bazarda qalmasın, alanı olsun. Sözün ki alanı olmadı, onu yazmağın, deməyin nə mənası? Söz ki dadlı, duzlu, ləzzətli, şirin olmadı, söz ki cana sarı yağ kimi yayılmadı, sözün ki, deyilən kimi rəngi-ruhu qaçdı, saraldı, soldu, bədrəng oldu, baxmayaraq ki bədrəng özü də bir rəngdi, heç onu deməsən məsləhətdi. Amma güman edirəm ki, azacıq da olsa, könlünüzü oxşaya biləcəyəm. Könlünüz xoş olsun, ömrünüzə nur calansın!

Göstərdiyi diqqətə, köməyə və qayğıya görə kitabın redaktoru filologiya elmləri doktoru, professor, Azərbaycan Yazıçılar Birliyinin üzvü xanım Mahirə Nağıqızına və məsləhətçi Telman Budaqova təşəkkürümü bildirirəm.

## Möcüzəli və sirli Xankişi Bəxtiyar dünyası

Xankişi Bəxtiyarla tanışlığımın tarixi qədimdir. Yaxşı yadımdadır, aylı-ulduzlu bir gecə idi. Dostlarımla əyləşib şairin öz səsində "Dağların qədrini hardan bilərsən?" şeirinə qulaq asırdıq. İlahi, nə gözəl şeir, nə gözəl musiqi, nə gözəl ifa! Elə o vaxtdan Xankişi Bəxtiyarın heyranlarından biri oldum və səmimi deyirəm, həmin o gecə o illərdən bəri bir an olsun belə yadımdan çıxmır. Ürəyimi oxuyurmuş kimi sanki qəlbimdən keçənlərin hamısını şair "O gecə" şeirində nə gözəl qələmə alıb, İlahi!

İndi də yadımdan çıxmır bircə an,
Sirli nağılıydı həmin o gecə.
Bir həyat məktəbi, bir həyat dərsi,
Sirli nağılıydı həmin o gecə.

Gördüm ki, Xəzəri küləklər öpür,
Boynun qucaqlayıb mələklər öpür.
Güllər naz eləyir, çiçəklər öpür,
Sirli nağılıydı həmin o gecə.

Çox gözlərdə mən sevincdən nəm gördüm,
Çox adamı mey içməmiş dəm gördüm.
İlhamın sözündə min məlhəm gördüm,
Sirli nağılıydı həmin o gecə.

Xankişi Bəxtiyarın təqdim olunan bu kitabını oxuyarkən də o gecədə olduğu kimi sanki möcüzəli, sirli, soraqlı, zəngin bir aləmə düşürsən. Bir-birindən maraqlı şeirlər istər-istəməz adamı özündən alıb başqa bir dünyaya, başqa bir aləmə aparır. "Ən cəsur komandan bizim komandan", "Zəfərin mübarək, cənab Komandan", "Ulu Öndər kimi bir tarixim var", "Zərifə xanım", "Azərbaycan əsgəri ən igid əsgər", "İlhamtək başımda tacım var mənim", "Cənab İlham, Cənab Ərdoğan", "Bu yol Zəngəzurdan, Laçından keçir", "Gözün aydın olsun Azərbaycanım" və bu kimi digər şeirlər bu qəbildəndir. "Ən cəsur komandan bizim komandan" şeirinin bir neçə bəndinə diqqət edək:

Ana gördüm səksən, doxsan yaşında,
Şəhid qanı xınalanıb saçında.
Şahid oldum o gün yenə Laçında,
Ən cəsur komandan bizim komandan.

Və ya:

Baxçada uşaqlar, körpələr deyir,
Güllər pıçıldayır, çiçəklər deyir.
Səngərdə yatmayan əsgərlər deyir,
Ən cəsur komandan bizim komandan.

Kitabdakı şeirlərin çoxuna bəstələnmiş mahnıların Azərbaycan televiziyalarında səslənməsi də müəllifin ya-

radıcılığına olan diqqətdən və maraqdan irəli gəlir: "Cənab İlham, Cənab Ərdoğan", "Ulu Öndər kimi bir tarixim var", "Ən cəsur komandan bizim komandan", "Azərbaycan əsgəri ən igid əsgər", "Ey Vətən", "Bu yol Zəngəzurdan, Laçından keçir", "Biz sizə borcluyuq qazi qardaşım" və s. "Cənab İlham, cənab Ərdoğan" mahnısının bir neçə bəndinə diqqət edək:

Nur yaranıb, nər doğulub,
Hər ikisi mərd doğulub.
Sanki peyğəmbər doğulub,
Cənab İlham, Cənab Ərdoğan.

Ulu Türkün oğludular,
Millət üçün doğuldular.
Qardaş idi, dost oldular,
Cənab İlham, cənab Ərdoğan.

Doğrudan da, "Cənab İlham, cənab Ərdoğan" şeirini Ulu öndər Heydər Əliyev tərəfindən deyilən və bu gün də qürur hissi ilə fəxr etdiyimiz "bir millət, iki dövlət" deyiminin ən gözəl bariz nümunələrindən biri kimi hesab edə bilərik. "Ulu Öndər kimi bir tarixim var" şeirinə bəstələnmiş mahnı da möhtəşəmdir:

Dünənim, bu günüm, nurlu sabahım,
Sönməyən günəşim, ulduzum, ayım.

Qürur duyuram mən Azərbaycanım,
Ulu Öndər kimi bir tarixim var.

Ürəyində Vətən, dilində Vətən,
Vətənini öz canından çox sevən.
Milləti ilə, xalqı ilə fəxr edən,
Ulu Öndər kimi bir tarixim var.

Qeyd edilən kitabda əksini tapmış şeirlərin hər biri haqqında müsbət fikirlər söyləməmək mümkün deyil. Sanki bu şeirlər zərgər dəqiqliyi ilə qələmə alınmış şeirlərdir. Maraqlı cəhətlərdən biri də odur ki, müəllif qələmə aldığı şeirlərin hamısını əzbər bilir və bizə sanki ikinci Zəlimxan Yaqubu xatırladır, amma Xankişi Bəxtiyar dünyası tamam bambaşqadır.

Bir mətləbə də aydınlıq gətirməyi məsləhət bilirik. Bütün mənbələrdə qeyd olunur ki, Azərbaycan ədəbiyyatında yalnız və yalnız bir dildönməz var, o da Dədə Ələsgərin adıyla bağlıdır. Lakin bütün müəlliflər burada bir anlaşılmazlığa və diqqətsizliyə yol veriblər. Anlaşılmazlıq və diqqətsizlik də odur ki, adı çəkilən həmin şeir dildönməz yox, dildönəndir. Bu isə o deməkdir ki, Azərbaycan ədəbiyyatında dildönməz şeirlərin adı olsa da həqiqətdə belə şeirlər yoxdur. Qeyd edək ki, heç bir mənbədə rast gəlinməyən dildönməz formalı şeirlərin ilk nümunəsinə Xankişi Bəxtiyarın "Yüzə yüz" kitabında rast

gəlmək olur. Beləliklə, bu kitabda təqdim olunan "Dünya" şeiri ilk dildönməz qəbul oluna bilər:

Yaxşını yamana yazdın,
Necə deyim, əhsən dünya.
Qanmazı qanana yazdın,
Necə deyim, əhsən dünya.

Şaxta keçdi yazım, yayım,
Daşa dəydi oxum, yayım.
Vaxtsız köçdü əmim, dayım,
Necə deyim, əhsən dünya.

Sinəmi qat-qat oydun sən,
Oymaqdan heç doymadın sən.
Xankişini mat qoydun sən,
Necə deyim, əhsən dünya.

Kitabda hər cür formalı şeirlərə rast gəlmək mümkündür. Burada qoşma da var, gəraylı da, təcnis də, divani də, qəzəl də. Bu baxımdan "Ən cəsur komandan bizim komandan" kitabı əslində Vətən, vətənpərvərlik, yurd, torpaq, gözəllik haqqında yazmaq istəyənlər üçün bir düsturdur. Və nəhayət, Xankişi Bəxtiyarın gələcəkdə neçə-neçə bu cür kitablar ərsə gətirməsini arzu edirik.

**Telman Budaqov**
**16.10.2023**

# *ƏN CƏSUR KOMANDAN BİZİM KOMANDAN*

**Ən cəsur komandan bizim komandan**
**(Musiqisi: Anar İlhamlı)**

Qarış-qarış seyr elədim dünyanı,
Ən cəsur komandan bizim komandan.
Baxdım baxışlara, baxışlar dedi,
Ən cəsur komandan bizim komandan.

Ana gördüm səksən, doxsan yaşında,
Şəhid qanı xınalanıb saçında.
Şahid oldum o gün yenə Laçında,
Ən cəsur komandan bizim komandan.

Zehni, düşüncəsi bir dərya İham,
Dosta dost, düşmənə sərt qaya İlham,
Bir də çətin gələ dünyaya İlham,
Ən cəsur komandan bizim komandan.

Baxçada uşaqlar, körpələr deyir,
Güllər pıçıldayır, çiçəklər deyir.
Səngərdə yatmayan əsgərlər deyir,
Ən cəsur komandan bizim komandan.

Yallı gedənləri sara döndərib,
Qarabağı gülüzara döndərib.
Çox şeyi biryolluq gora göndərib.
Ən cəsur komandan bizim komandan.

Soyundan süzülür, qanından gəlir,
Yumruğu  havanın bağrını dəlir.
Canlı bir əfsanə, bir  möcüzədir,
Ən cəsur komandan bizim komandan.

Nahaqq ayağına vermədi haqqı,
Haqqı görməməyə kimin nə haqqı?
Allah haqqı, torpaq  haqqı, göy haqqı,
Ən cəsur komandan bizim komandan.

**20.09.2023**

## Zəfərin mübarək, cənab Komandan

Bütün dünya bu gün Sizdən danışır,
Zəfərin mübarək, cənab Komandan!
Qansız düşmən qarşınızda baş əydi,
Zəfərin mübarək, cənab Komandan!

Qatı açılmayan xəbərlər gətir,
Nəğməli gecələr, səhərlər gətir,
Zəngəzurdan təzə zəfərlər gətir,
Zəfərin mübarək, cənab Komandan!

Kipriyində nəm görməyim heç vədə,
Zərrə qədər qəm görməyim heç vədə.
Taleyini kəm görməyim heç vədə,
Zəfərin mübarək, cənab Komandan!

Cıdır düzündəki çiçəklər deyir,
Ərgünəş dağında küləklər deyir,
Bunu mən demirəm, mələklər deyir,
Zəfərin mübarək, cənab Komandan!

Yoxdur bərabərin, yoxdur bənzərin,
Çətin gələ bir ölçüyə dəyərin.
Dünyanın bir yanın əyər ləngərin,
Zəfərin mübarək, cənab Komandan!

Hər bəndə dünyanı düz görə bilmir,
Düzün düz qiymətin düz verə bilmir.
Hər adam Sizintək kövrələ bilmir,
Zəfərin mübarək, cənab Komandan!

Kəm olmasın bağlarından heç barın,
Allah olsun hər bir zaman qoy yarın,
Aldı qisasını Mais Əlyarın,
Zəfərin mübarək, cənab Komandan!

Ərdoğantək qardaşın var, nə dərdin,
Şuşa kimi daş-qaşın var, nə dərdin.
Mehribantək sirdaşın var, nə dərdin,
Zəfərin mübarək, cənab Komandan!

Hər yetirən duya bilməz bu mehri,
Aça bilməz bu qıfılı, bu sehri.
Namaz qılıb, sonra yazdım bu şeri,
Zəfərin mübarək, cənab Komandan!

Vətən tarixindən inşamız olsun,
İlham da ömürlük paşamız olsun.
Bir gün paytaxtımız Şuşamız olsun,
Zəfərin mübarək, cənab Komandan!

Xankişi söyləyən axşamlar gəlməz,
Peyğəmbərlər gəlməz, imamlar gəlməz.
İmamlar gəlsə də, İlhamlar gəlməz,
Zəfərin mübarək, cənab Komandan!
Zəfərin mübarək, cənab Komandan!

**11.10.2021**

## Xankəndində ucaldıldı bayrağım

Bu da yeni zəfər, yeni bir tarix,
Xankəndində ucaldıldı bayrağım.
On beş oktyabr belə düşdü tarixə,
Gözün aydın olsun Azərbaycanım,
Xankəndində ucaldıldı bayrağım.

Axır aldı haqq-ədalət yerini,
Sərkərdəm zəhmətin gördü bəhrini.
Qismət olsun bol-bol görək xeyrini,
Gözün aydın olsun Azərbaycanım,
Xankəndində ucaldıldı bayrağım.

Əzəldən yeyibdi nəfs, adamları,
Zülmətə döndərib hirs, adamları.
Allah kor  eləsin pis adamları,
Gözün aydın olsun Azərbaycanım,
Xankəndində ucaldıldı bayrağım.

Bala, ana qucağına qovuşdu,
Doğma yurda, ocağına qovuşdu.
Sanki qartal oylağına qovuşdu,
Gözün aydın olsun Azərbaycanım,
Xankəndində ucaldıldı bayrağım.

Təzə qafiyəyə, misraya gəldim,
Yeni bir dövrana, eraya gəldim.
Elə bil təzədən dünyaya gəldim,
Gözün aydın olsun Azərbaycanım,
Xankəndində ucaldıldı bayrağım.

Bu qələbə haqq-hesaba sığışmaz,
Nə suala, nə cavaba sığışmaz.
Min dəftərə, min kitaba sığışmaz,
Gözün aydın olsun Azərbaycanım,
Xankəndində ucaldıldı bayrağım.

Nə gizlin, nə də ki agah unutmaz,
Nə bu gün, nə də ki, sabah unutmaz.
Tarix yazanları Allah unutmaz,
Gözün aydın olsun Azərbaycanım,
Xankəndində ucaldıldı bayrağım.

Sevindi qələmim, güldü varağım,
Güldü oylaqlarım, güldü yaylağım,
Qarabağda olarsınız qonağım,
Gözün aydın olsun Azərbaycanım,
Xankəndində ucaldıldı bayrağım.

**15.10.2023**

## Ulu Öndər kimi bir tarixim var
## (Musiqisi: Anar İlhamlı)

Dünənim, bu günüm, nurlu sabahım,
Sönməyən günəşim, ulduzum, ayım.
Qürur duyuram mən Azərbaycanım,
Ulu Öndər kimi bir tarixim var.

Ürəyində Vətən, dilində Vətən,
Vətənini, öz canından çox sevən.
Milləti ilə, xalqı ilə fəxr edən,
Ulu Öndər kimi bir tarixim var.

Səninlə fəxr edir, bu el, bu diyar,
Səndən ilham alıb olub bəxtiyar.
Daim ürəklərdə qalan yadigar,
Ulu Öndər kimi bir tarixim var.

Qartal kimi zirvələrdən güc alan,
Ürəklərdə, yaddaşlarda yaşayan.
Könüllərdə silinməyən iz salan,
Ulu Öndər kimi bir tarixim var.

Haqdan ədalətdən düzdən oxuyan,
Dürlü kəlmələrdən, sözdən oxuyan.
Ürəkləri gözlərindən oxuyan,
Ulu Öndər kimi bir tarixim var.

Nə boyda ürəyi varmış insanın,
Dünyaya bəllidir şöhrətin, şanın,
Cənnət olsun hər bir zaman məkanın,
Ulu Öndər kimi bir tarixim var.

Arzuları həqiqətə çevrilən,
Hər kəlməsi hekayəyə çevrilən.
And yerinə, ziyarətə çevrilən,
Ulu öndər kimi bir tarixim var.

Düşsə də xalqımız çətinə, dara,
Yenə də o, gəlib köməyə, kara.
Demişəm, deyəcəm getsəm də hara,
Ulu Öndər kimi bir tarixim var.

**Zərifə xanım**
**(Zəriflik mücəssəməsi, görkəmli akademik,**
**Xanım Zərifə Əliyevanın əziz xatirəsinə)**

Dünyalar içində zərifdən zərif,
Zərif bir dünyasan Zərifə xanım.
Analar inciməz sözümdən mənim,
Ən böyük anasan Zərifə xanım!

Dağ olmazdı, söykənməsə dağ dağa,
Arxaydın Heydərtək möhtəşəm dağa.
Günəşin nurusan başdan-ayağa,
Sahilsiz dəryasan Zərifə xanım!

Şöhrətin yayıldı ulduza, aya,
Dar gündə yetişdin köməyə, haya.
İlham kimi oğul verdin dünyaya,
Nə gözəl bağbansan Zərifə xanım!

Gördüklərim nə zəmidi, nə dəndi,
Soruşmuram, saçındakı nə dəndi?
Nə tez getdin, söylə, səbəb nədəndi?
Yoxsa ki, röyasan Zərifə xanım!

Şəninə yaraşan dastan gəzirəm,
Sağalmaz dərdlərə dərman gəzirəm.
Mən məlhəm gəzirəm, loğman  gəzirəm,
Təbibsən, loğmansan Zərifə xanım!

Sənin gücün sözlərdəydi, gözdəydi,
Qəlbindəki atəşdəydi, közdəydi.
Yəqin o vaxt gözlərinə göz dəydi,
Sirli bir ümmansan Zərifə xanım!

Heyran idi hamı o vaxt sizlərə,
Qələmin gücü yox, yaza, söz dərə.
Gözünün nurunu verdin gözlərə,
Qəlblərə ziyasan Zərifə xanım!

Alov közdən qaçdı, göz  közdə  qaldı,
Çoxunun dediyi söz, sözdə qaldı.
Əbədi ünvanın gözlərdə qaldı,
Nə böyük mənasan Zərifə xanım!

Xankişi çox gəzdi sərgərdan kimi,
Yazdı bu şeiri ərməğan kimi.
Kimin gəlini var Mehriban kimi?
Dünyaya aynasan Zərifə xanım!
Ən böyük anasan Zərifə xanım!

**20.04.2015**

## Azərbaycan əsgəri ən igid əsgər
## (Musiqisi: Anar İlhamlı)

Düşmənə göz verib, işıq verməyən,
Azərbaycan əsgəri ən igid əsgər.
Mümkün olmayanı mümkün eləyən,
Azərbaycan əsgəri ən igid əsgər.

Düşmənlərin dərsin verib, bac alan,
Dünyanın gözündə göyə ucalan,
Bayrağını Xankəndində ucaldan,
Azərbaycan əsgəri ən igid əsgər.

Neçə-neçə igid qəhrəmanı var,
Kökü türk kökü̈dür, təmiz qanı var.
İlham kimi igid komandanı var,
Azərbaycan əsgəri ən igid əsgər.

Hər biri Koroğlu, igid qəhrəman,
Sizlərlə fəxr edir can Azərbaycan.
Yazılacaq sizə hələ çox dastan,
Azərbaycan əsgəri ən igid əsgər.

Yaza döndərdilər qış keçən ömrü,
Otuz ildən artıq boş keçən ömrü.
Bizə bəxş etdilər xoş keçən ömrü,
Azərbaycan əsgəri ən igid əsgər.

Bilməz nə istini, nə də soyuğu,
Atəşi sərrastdır, vurur onluğu.
Hər an yerindədir dəmir yumruğu,
Azərbaycan əsgəri ən igid əsgər.

**20.09.2023**

**Cənab İlham, Cənab  Ərdoğan**
**(Musiqisi: Anar İlhamlı)**

Nur yaranıb, nər doğulub,
Hər ikisi mərd doğulub.
Sanki peyğəmbər doğulub,
Cənab İlham, Cənab Ərdoğan.

Ulu  Türkün oğludular,
Millət üçün doğuldular.
Qardaş idi, dost oldular,
Cənab İlham, cənab Ərdoğan.

Düşmənlərə verməz aman,
Dostlarına söyləyər can,
Bir könüldə ikidi can,
Cənab İlham, cənab Ərdoğan.

Dərdimizin dərmanıdı,
Canı-dildən yananıdı.
Əsrimizin xaqanıdı,
Cənab İlham, cənab Ərdoğan.

Yatanları oyatdılar,
Cənnət Şuşaya çatdılar.
Möcüzələr yaratdılar,
Cənab İlham, cənab Ərdoğan.

Hər ikisi igid, qoçaq,
El yolunda sönməz ocaq.
Zaman-zaman oxunacaq,
Cənab İlham, cənab Ərdoğan.

**27.10.2020**

## Ey Vətən
## (Musiqisi: Anar İlhamlı)

Zülmət gecələrin qaldı keçmişdə,
Bu gün sənin bayramındı ey Vətən!
Sevinsin ürəkdən cəmi dostların,
Bu gün sənin bayramındı ey Vətən!

Cəbrayıl, Zəngilan abad olubdu,
Kəlbəcər, Qubadlı çox şad olubdu.
Ağdam, Laçın, Şuşa azad olubdu,
Bu gün sənin bayramındı ey Vətən!

Füzulidən təzə yollar çəkilir,
Qardaş Türkiyəyə qatar çəkilir.
Elə bil düşmənə dağlar çəkilir,
Bu gün sənin bayramındı ey Vətən!

Nurun azalmadı, közün sönmədi,
Oğulların sözlərindən dönmədi.
Qartalların zirvələrdən enmədi,
Bu gün sənin bayramındı ey Vətən!

Hər xalqın, millətin öz nağılı var,
Cavanı, uşağı, həm ahılı var.
Kimin İlham kimi  nər oğulu var?
Bu gün sənin bayramındı ey Vətən!

Adını dünyaya yayanların var,
Yolunda canını qıyanların var.
Bənzəri olmayan övladların var,
Bu gün sənin bayramındı ey Vətən!

Səmtindən bilinir əsən küləyin,
Ətrindən bilinir gülün, çiçəyin.
Nə qəşəngdi, nə gözəldir ürəyin,
Bu gün sənin bayramındı ey Vətən!

Gözəllərin dəstə güllər bağlayır,
Bu növrağın düşmənləri dağlayır.
Buludlar da sevincindən ağlayır,
Bu gün sənin bayramındı ey Vətən!

Adamı məst edir dağların yeli,
Hər daşın, hər qayan ziyarət yeri.
Dünyanın gücü yox, aça bu sehri,
Bu gün sənin bayramındı ey Vətən!

Açılar inşallah təzə dəhlizin,
Yad olunar Şəhriyarın, Hafizin.
Bir gün də sevinər Göyçən, Təbrizin,
Bu gün sənin bayramındı ey Vətən!

Dalğalanır Şuşamızda bayrağın,
Yenə dəbə minib İsa bulağın.

Kəsdilər bir yolluq qışın ayağın,
Bu gün sənin bayramındı ey Vətən!

Xocalı, Xocavənd  azad edildi,
Bu yerlər kimindir -  isbat edildi.
Düşmənlər sürüynən yurddan itildi,
Bu gün sənin bayramındı ey Vətən!

Dağlar günə çıxdı, bağ günə çıxdı,
Buludlar dağıldı, baxt günə çıxdı.
Xankəndi, Ağdərə ağ günə çıxdı,
Bu gün sənin bayramındı ey Vətən!

Yeni tarixini yazan var olsun,
Əlində hər zaman ixtiyar olsun.
Gün olsun yüz yaşlı yubilyar olsun,
Bu gün sənin bayramındı ey Vətən!

Dünyada hər şeyin əncamı Allah,
İmanı olanın məramı Allah.
Göylərə qaldırdı İlhamı Allah,
Bu gün sənin bayramındı ey Vətən!

Yar oldu təbimə böyük yaradan,
Verdim neçə neçə çətin imtahan.

Bağladım şəninə mən də bir dastan,
Bu gün sənin bayramındı ey Vətən!

Qanamasın yaraların köhnəsi,
Bulanmasın bulaqların dəhnəsi.
Coşdu Xankişinin yenə sinəsi,
Bu gün sənin bayramındı ey Vətən!

**18.06.2023 - 20.09.2023**

## Əsl bayram indidir

Bu payız bam-başqadır,
Əsl bayram indidir.
Ağoğlan atın minib,
Əsl bayram indidir.

Laçınımız gözəldi,
Kəlbəcər çox əzəldi.
İşlər tamam düzəldi,
Əsl bayram indidir.

Ağdamın bayramıdı,
Xalqımın məramıdı.
İlhamın ilhamıdı,
Əsl bayram indidir.

Ürəyim Qubadlıdı,
Cəbrayıla bağlıdı.
Zəngilan havalıdı,
Əsl bayram indidir.

Fizuli Segahımdı,
Xankəndi Pənahındı.
Qarabağ Allahımdı,
Əsl bayram indidir.

Xocalımız azadddı,
Nə xoş gündü, saatdı.
Düşmən hamısı matdı.
Əsl bayram indidir.

Türkiyə qardaşımdı,
Pakistan sirr daşımdı.
İsrail göz-qaşımdı,
Əsl bayram indidir.

Topxana top meşəmdi,
Açılmış bənövşəmdi.
Gözəl sevmək peşəmdi,
Əsl bayram indidir.

Düşüncəmiz dəyişdi,
Arzusuna yetişdi.
İndi günlər kişmişdi,
Əsl bayram indidir.

Qazilər qürurludu,
Ordumuz Koroğludu.
Şəhidlərim uludu,
Əsl bayram indidir.

Ovqat  o ovqat deyil,
Həyat o həyat deyil.
Ruhlar narahat deyil,
Əsl bayram indidir.

Cıdır düzündə tonqal,
Tonqal başında Qartal.
Düzəlibdi hal-əhval,
Əsl bayram indidir.

Bayraqlar qoşa-qoşa,
Ağdərə bir tamaşa.
Yaşa, millətim, yaşa!
Əsl bayram indidir.

**20.09.2023**

## İlhamtək başımda tacım var mənim

Daha nə dərdim var, nə də ki qəmim,
İlhamtək başımda tacım var mənim.
Daha Allahımdan yox umacağım,
İlhamtək başımda tacım var mənim.

Qalmayıb nə ağrım, nə də bir acım,
Dərd çəkmir qardaşım, sızlamır bacım.
Yoxdur daha yada bir ehtiyacım,
İlhamtək başımda tacım var mənim.

Havalı dağlardan duman çəkilir,
Duman çəkildikcə yalan çəkilir,
Yağı düşmən yavaş-yavaş əkilir.
İlhamtək başımda tacım var mənim.

Bir zaman Allahdan güc istiyirdik,
Başda əyləşməyə baş istiyirdik,
Başa qoymaq üçün tac istiyirdik,
İlhamtək başımda tacım var mənim.

Sanki Ərgünəşdən, Teydən enibdi,
Ulduzdan enibdi, aydan enibdi.
Allahın yanından göydən enibdi,
İlhamtək başımda tacım var mənim.

Elə bil Cavanşir qalxıb yerindən,
Çıxıb Xətaitək yerin təkindən.
Neçə tilsimləri açıb düyündən.
İlhamtək başımda tacım  var mənim.

Xalqa könül verib, könül bağlıyıb,
Fərəhdən gözləri dolub, ağlıyıb,
Zəkası zəmidi, sünbül bağlıyıb,
İlhamtək başımda tacım  var mənim.

Qardaşı var Ərdoğantək Paşadan,
İndi budur ancaq bizi yaşadan.
Azan səsi gəlir indi Şuşadan,
İlhamtək başımda tacım var mənim.

Havam odur, odum odur, suyum o,
Tarixim o, ulusum o, soyum o.
Budağım o, dayağım o, dostum o,
İlhamtək başımda tacım  var mənim.

Nə olsun varım yox, taxtı-tacım yox,
Dərdim yox, qəmim yox, ağrı-acım yox.
Məkkəyə getməyə ehtiyacım yox,
İlhamtək başımda tacım  var mənim.

Verdi qiymətini sərvinazlığın,
Verdi dərslərini boşboğazdığın.

Çıxdı axırına yerlibazlığın,
İlhamtək başımda tacım var mənim.

Qeyrət qılıncını qından sıyıran,
Yaxşını yamandan, seçən, ayıran,
Dar günündə dostlarına yarıyan,
İlhamtək başımda tacım var mənim.

Qeyrətli kəsləri ata qaldıran,
Sönən ocaqları, közü yandıran,
Layiq olanları taxta qaldıran,
İlhamtək başımda tacım var mənim.

Dərs verib ürəyi, qəlbi daşlara,
Şərik çıxıb gözdən axan yaşlara.
Dərs veribdi neçə qəlbiçaşlara,
İlhamtək başımda tacım var mənim.

Söylədi hər tərəf gərək gül ola,
Bütün qaçqınların evi tül ola.
Qoymadı palıdlar yana kül ola,
İlhamtək başımda tacım var mənim.

Azad oldu Kəlbəcərtək yaylağım,
İstisuyum, Turşsu, İsa bulağım,
Ağdərə, Xocalı, Şuşa oylağım,
İlhamtək başımda tacım var mənim.

Yaxın da, uzaq da, yad da birləşib
Bir amalda, etiqadda birləşib.
İndi hamı bir bayraqda birləşib,
İlhamtək başımda tacım  var mənim.

Oğlunu göndərdi cəbhə önünə,
Təkcə bu bəs, el içində öyünə,
Oğul istiyirəm belə düşünə,
İlhamtək başımda tacım  var mənim.

Nazir övladların orda oxutdu,
Orda ərə verdi, ərdə oxutdu.
Amma o oğlunu burda oxutdu,
İlhamtək başımda tacım  var mənim.

Təmizdən təmizdir lələr içində,
Gövhərlər içində, zərlər içində.
Xatiri əzizdi ellər içində,
İlhamtək başımda tacım  var mənim.

Qurdların dişindən saldırdı xalqı,
Dağın zirvəsinə qaldırdı xalqı.
Zəfər himnimizi çaldırdı xalqın,
İlhamtək başımda tacım  var mənim.

Bundan sonra Qırxqız olar yaylağım,
O zaman olarsız mənim qonağım,

Dalğalanır Xankəndində bayrağım,
İlhamtək başımda tacım var mənim.

Xalqına bağlıdır ürəyi, canı,
Yalnız qəlblərdədir onun ünvanı.
Dünya belə görür Azərbaycanı,
İlhamtək başımda tacım var mənim.

Layiqdi hər cürə şöhrətə İlham,
Gətirdi dünyanı heyrətə İlham,
Çevirdi bu xalqı millətə İlham,
İlhamtək başımda tacım var mənim.

Gəlsə neçə illər yaşımız üstə,
Məkanı olacaq qaşımız üstə.
Qalacaq əbədi başımız üstə,
İlhamtək başımda tacım var mənim.

Dəyişib dünyanın indi gərdişi,
Mat qalıb keşişi, hətta dərvişi.
Budur Alahımın bizə bəxşişi,
İlhamtək başımda tacım var mənim.

Daha çıxmaz bircə işin xatası,
Vardır Xankişinin əldə əsası.
Bu millətin indi odur atası,
İlhamtək başımda tacım var mənim.

**Nə gözəl yaraşır bu dövran sizə**
**(Xanım Mehriban Əliyevaya)**

Ad günün Laçında keçirən bacım,
Nə gözəl yaraşır bu dövran sizə.
Bu anda mələklər düşdü yadıma,
Nə gözəl yaraşır bu dövran sizə.

Adın Mehribandı, özün Mehriban,
Siz də qəhrəmansız, əsil qəhrəman.
Qalacaqsız könüllərdə hər zaman,
Nə gözəl yaraşır bu dövran sizə.

Səmtindən bilinir əsən küləyin,
Ətrindən bilinir gülün, çiçəyin.
Nə qəşəngdi, nə gözəldir ürəyin,
Nə gözəl yaraşır bu dövran sizə.

Hər kəsin öz adı, öz soyadı var,
Hər kəsin öz qolu, öz qanadı var.
Kimin Mehribantək bir övladı var?
Nə gözəl yaraşır bu dövran sizə.

Tanrı sizi bir də çətin yarada,
Layiqsiz bundan da artıq siz ada.
Çoxdu hörmətiniz bütün dünyada,
Nə gözəl yaraşır bu dövran sizə.

Şuşa kimi daş-qaşın var, nə dərdin?
Leyla kimi sirdaşın var nə dərdin,
İlham kimi yoldaşın var, nə dərdin?
Nə gözəl yaraşır bu dövran sizə.

Gözəllər qəlbində salmısız lövbər,
Gözəllər hər yerdə sizləri gəzər.
Yüz qat uzaq olsun sizdən bəd nəzər,
Nə gözəl yaraşır bu dövran sizə.

Olmayıb səfərdən bir yol boş gəlim,
Yalan desəm, qoy bəlaya tuş gəlim.
Yazmadım, kiməsə bəlkə xoş gəlim,
Nə gözəl yaraşır bu dövran sizə.

Tez-tez gedib Qarabağda olduqca,
Qarabağı siz yenidən qurduqca.
Adınız qalacaq dünya durduqca,
Nə gözəl yaraşır bu dövran sizə.

Çətin gələ İlham kimi sərkərdə,
Nə də Mehribantək belə bir bəndə.

Yeriniz var milyon-milyon ürəkdə,
Nə gözəl yaraşır bu dövran sizə.

Yar oldu təbimə böyük yaradan,
Verdim neçə neçə çətin imtahan.
Bağladım şəninə mən də bir dastan,
Nə gözəl yaraşır bu dövran sizə.

**26.08.2023**

## İlhamtək sərkərdə gələ, gəlməyə

Min ildən sonra da inanmaram, mən,
İlhamtək sərkərdə gələ, gəlməyə.
Allahın ən böyük möcüzəsidi,
İlhamtək sərkərdə gələ, gəlməyə.

Zəngindi süfrəsi, boldu çörəyi,
Xalqıdır hər zaman arxa-köməyi.
Şahdağından çox böyükdü ürəyi,
İlhamtək sərkərdə gələ, gəlməyə.

Heydərtək qoçaqdi, igiddi, mərddi,
Haqq yolunda qayadan da çox sərtdi.
Dostuna dost, düşmənlərə o, dərddi,
İlhamtək sərkərdə gələ, gəlməyə.

## Heydərdi, Heydər

Qolumun qüvvəti, gücü, qanadı,
Arzumun muradı, sönməz fəryadı.
Ağzımın ləzzəti, ruhumun dadı,
Şerin şah misrası Heydərdi, Heydər.

Qoruya bilmədik, tor gəldi gözə,
Oğul istiyirəm, dediyin çözə.
Canımı verərəm, dediyi sözə,
Ömrümün mənası Heydərdi, Heydər.

İçim yara töksə, kəsilsə dilim,
Doğransam, bölünsəm, lap dilim-dilim,
Nə loğman axtarın, nə də ki həkim,
Dərdimin çarası Heydərdi, Heydər.

**Bu yol Zəngəzurdan, Laçından keçir**
**(Musiqisi: Xankişi Bəxtiyar)**

Ərdoğan ürəyim, İlham qolumdu,
Biri mənim sağım, biri solumdu,
Ulu türkün yolu mənim yolumdu,
Bu yol Zəngəzurdan, Laçından keçir.

Ərdoğanın adı ucalıb aya,
Şöhrəti sığışmaz, gəlməz  heç saya.
İlham da bənzəyir coşqun dəryaya,
Bu yol Zəngəzurdan, Laçından keçir.

Bilirəm köməyə Yaradan gələr,
Nə gəlsə, hamısı Tanrıdan gələr.
Gün gələr səsimiz Turandan gələr,
Bu yol Zəngəzurdan, Laçından keçir.

Ərdoğan dünyaya işıq, nur salar,
Bulanıq çeşmələr, sular durular.
İlhamla çin olar bütün arzular,
Bu yol Zəngəzurdan, Laçından keçir.

Bərgüşad, Həkəri sanki cənnətdi,
Havası, həm suyu vallah ləzzətdi,
Qubadlı elləri ömrə zinətdi.
Bu yol Zəngəzurdan, Laçından keçir.

Bir də çətin gələ Ərdoğan dədə,
Nə də İlham kimi igid sərkərdə.
Milyon rəhmət deyək hər bir şəhidə,
Bu yol Zəngəzurdan, Laçından keçir.

Yaddan çıxmaz Aslan, Şükür, Əliyar,
Adları əbədi qaldı yadigar.
Yazdı bu seiri Xankişi Bəxtiyar,
Bu yol Zəngəzurdan, Laçından keçir

**Qurban olum şəstinə, qurban olum boyuna**

Qarabağı bir zaman salmışdılar oyuna.
Şirimi görən kimi, "qurdlar" döndü qoyuna,
Qurban olum şəstinə, qurban olum boyuna,
Yaxşı azad etdiniz Qarabağı düşməndən,
Qovladınız  it kimi onları siz vətəndən!

Siz dahisiz, həm də ki, dahilərin oğlusuz,
Siz Nəbisiz, Babəksiz, həm də qoç Koroğlusuz,
Qarabağı aldınız, uludan da ulusuz,
Bu işi sizdən başqa, özgə görə bilməzdi,
Sinəsini bu dağa özgə gərə bilməzdi.

Dünyada birincidən birinci siz oldunuz,
İncilərin içində bir inci siz oldunuz.
Düşməndən qisasını birinci siz aldınız,
Dünya yaxşı gördü ki, bu xalqın İlhamı var,
İlham tək sərkərdəsi, Ilham tək imamı var.

Vahid gedən o gündən yetim idi qəzəllər,
Kəlbəcərdə, Şuşada ağlıyırdı xəzəllər.

Gözləyirdi sizləri əsirlikdə gözəllər,
Vədəsində açdınız açılmayan sirləri,
Azad elədiniz siz neçə min əsirləri.

Türk xalqına Qarabağ çəkilməyən yaraydı,
Bu yara qarayara, həm də para-paraydı.
Alınmasa min il də dəhşətli macəraydı,
Gözümüz görə-görə qızıl daşıyırdılar,
Bizimki dərd-qəm çəkir, onlar yaşayırdılar.

Vaxtında məlhəm etdiz qaçqınların yaşına,
Qaldırdız bayrağımı düz Şuşanın başına.
Həkk olundu adınız tarixin yaddaşına,
İnşaallah, Şuşadan sərəncamlar verərsiz,
Qalan müşküllərə də tez bir əncam çəkərsiz.

Torpaqları almasan qəm çökərdi rəngimə,
İndən sonra da bir an  sən gecikmə, ləngimə.
Uğurlar qismət olsun şirimə, pələngimə,
İmkan vermə düşmənə, baharın qışa döndər,
Vallah, mən də hazıram, hər an savaşa göndər.

Dünyada basılmayan igid ordu yaratdın,
Cəng elədin, vuruşdun, sanki cadu yaratdın.
Xalqı bütöv elədin, yatanları oyatdın,
Çətin bir də düşmənlər çəkə adın Şuşanın,
Bundan sonra qoy gülsün, gözü yaşlı Şuşanın.

Sizi daim ucada, zirvələrdə görüm mən,
Laçında, Şuşamızda, Zəngəzurda öpüm mən.
Burda ölə bilmirəm, gedib orda ölüm mən,
Vətəndən başqa mənə hər şey fani, boşumuş,
Sizdən başqa bu xalqın bir güvənci yoxumuş.

**31.12.2020**

## O gecə

(Şuşa azad olunan gecə Bakı küçələrində izdihamdan, maşınların səsindən, insanların əlindən tərpənmək mümkün deyildi, sanki sirli bir dünyaydı həmin o gecə)

İndi də yadımdan çıxmır bircə an,
Sirli nağılıydı həmin o gecə.
Bir həyat məktəbi, bir həyat dərsi,
Sirli nağılıydı həmin o gecə.

Gördüm ki, Xəzəri küləklər öpür,
Boynun qucaqlayıb mələklər öpür.
Güllər naz eləyir, çiçəklər öpür,
Sirli nağılıydı həmin o gecə.

Qarabağdan xoş xəbərlər gəlirdi,
Xəbərlər havanın bağrın dəlirdi,
Bakıdan Şuşanın  ətri gəlirdi,
Sirli nağılıydı həmin o gecə.

Çox gözlərdə mən sevincdən nəm gördüm,
Çox adamı mey içməmiş dəm gördüm.
İlhamın sözündə min məlhəm gördüm,
Sirli nağılıydı həmin o gecə.

Muğamlar oxundu, şeir oxundu,
Cinas ilmələndi, təcnis toxundu.
O gecə heç kəsin dərdi yoxuydu,
Sirli nağılıydı həmin o gecə.

Şirin avaz, şirin ləhcə, tanındı,
Qəlbi yuxa, qəlbi incə tanındı.
Kim kim idi, həmin gecə tanındı,
Sirli nağılıydı həmin o gecə.

Otuz ili gözləməyə dəyərmiş,
Vətən üçün ölməyinə dəyərmiş.
O gecəni görməyinə dəyərmiş,
Sirli nağılıydı həmin o gecə.

O gecə nə varsa, dupduru idi,
Sular duru idi, qum duru idi.
O gün gecələrin düsturu idi,
Sirli nağılıydı həmin o gecə.

Bu dünyanı qarış-qarış dolan, gəz,
O gecəyə çətin taparsan əvəz.
Xankişinin sözü budur, əlqərəz,
Sirli nağılıydı həmin o gecə.

**08.11.2020**

## Gözün aydın olsun Azərbaycanım

(Rəcəb Tayyib Ərdoğanın yenidən prezident seçilməyi münasibəti ilə)

Türkümüm ən gözəl günüdür bu gün,
Gözün aydın olsun Azərbaycanım!
Ərdoğan dədəmiz yenə zirvədə,
Gözün aydın olsun Azərbaycanım!

Bilirdim li, türküm qalib gələcək,
Qalib gəlib, yenə deyib güləcək,
Türkümü gözləyir böyük gələcək,
Gözün aydın olsun Azərbaycanım!

Nə gözəl duyğudu, elə bil baldı,
Başımın ağrısı bir az azaldı.
Narahat olmağım özümə qaldı,
Gözün aydın olsun Azərbaycanım!

Bizə dost deyənə yaman olmadıq,
Dost yanından darda qaçan olmadıq,
Nə yaxşı axırda peşman olmadıq,
Gözün aydın olsun Azərbaycanım!

Rəhmət olsun bu millətə ər doğan,
Pələng doğan, aslan doğan, nər doğan.

Allahımın nişanıdır Ərdoğan,
Gözün aydın olsun Azərbaycanım!

Dağların başında küləklər deyir,
Güllər naz eliyir, çiçəklər deyir.
Bunu mən demirəm, mələklər deyir,
Gözün aydın olsun Azərbaycanım!

Xaç gəsdirən "türk"lə yol getmək olmaz,
Xaç gəsdirən "türk"dən bir kömək olmaz.
Xaç gəsdirən "türk"ə türk demək olmaz,
Gözün aydın olsun Azərbaycanım!

Açıldı qıfıllar, açıldı düyün,
Hər şey aydın oldu tamam, büsbütün.
Haqqım var ki, mən də bu gün öyünüm,
Gözün aydın olsun Azərbaycanım!

Türkə türkdən başqa kimsə yar olmaz,
Türkdən özgəsinə etibar olmaz.
Türküm mənim xar olmayıb, xar omaz,
Gözün aydın olsun Azərbaycanım!

Əzəldən aşiqəm aylarda Maya,
Şükür, ümidimiz getmədi zaya,
Min şükür, Allahın verdiyi paya,
Gözün aydın olsun Azərbaycanım!

Ay, ulduz olmasa, gecə olardı,
İki üstə gəl bir, neçə olardı?
Türksüz Azərbaycan necə olardı?
Gözün aydın olsun Azərbaycanım!

Olacaq olsa da, dönüm olmasın,
Od-ocaq olsa da, sönüm olmasın.
Ərdoğansız bircə günün olmasın,
Gözün aydın olsun Azərbaycanım!

Düzün ortasında yolunu çaşan,
Yerli ya da yersiz həddini aşan,
Dərsini alıbdı türkə daş atan,
Gözün aydın olsun Azərbaycanım!

Bulanıq suların çoxu duruldu,
Kamalsız kəslərin puçu buruldu,
Yenə haqqın taxtı-tacı quruldu,
Gözün aydın olsun Azərbaycanım!

Türk ürəyi çox böyükdü, sıxılmaz,
Şər, böhtan, iftira türkə yaxılşmaz,
Qurd yesə də heç vaxt palıd yıxılmaz,
Gözün aydın olsun Azərbaycanım!

## Ərdoğan dədə

Qədim Zəngəzurdan, türk ellərindən,
Sizə salam olsun Ərdoğan dədə!
Laçından, Şuşadan, Cıdır düzündən,
Sizə salam olsun Ərdoğan dədə!

Ömür boyu barışmadız nahaqla,
Bizi sevindirdiz  arxa durmaqla.
Baş komandan İlham başda olmaqla,
Sizə salam olsun Ərdoğan dədə!

Kipriyində nəm görməyim heç vədə,
Ay üzündə qəm görməyim heç vədə.
Qismətini kəm görməyim heç vədə.
Sizə salam olsun Ərdoğan dədə!

Allah yazıb Sizi türkün baxtına,
Gəlib çatdız məqamına, vaxtına.
Baş əyirəm Atatürkün taxtına,
Sizə salam olsun Ərdoğan dədə!

Güldü üzümüzə neçə obamız,
Çatıldı tonqallar, yandı sobamız.
Yaddan necə çıxsın Heydər babamız?
Sizə salam olsun Ərdoğan dədə!

Qiymətiniz haqq-hesaba sığışmaz,
Nə suala, nə cavaba sığışmaz.
Şöhrətiniz min kitaba sığışmaz,
Sizə salam olsun Ərdoğan dədə!

Allahdan qismətdi bir doğulmusan,
Möcüzə yaranıb, sirr döğulmusan.
Pələng doğulmusan, şir doğulmusan,
Sizə salam olsun Ərdoğan dədə!

Çıxmazsınız nəsillərin yadından,
Doymaq olmaz bu sevginin dadından.
Türk elindən, Azərbaycan adından,
Sizə salam olsun Ərdoğan dədə!

Azad oldu Qarabağım düyündən,
Əskik olmayasız toydan-düyündən.
Ərgünəş dağının adı bu gündən,
Arzumdu qoy olsun Ərdoğan, dədə!
Sizə salam olsun Ərdoğan dədə!

**21.10.2020**

**Paşam gəlib**

Qarabağın toy günüdür,
Paşam gəlib, paşam gəlib.
Düşmənlərin vay günüdür,
Paşam gəlib, paşam gəlib.

Çəkildi dağlardan duman,
Döndü bahara zimistan.
İstambuldan, Ankaradan,
Paşam gəlib, paşam gəlib.

Allahım çatdı dadıma,
Yetdim arzu-muradıma.
Koroğlu düşdü yadıma,
Paşam gəlib, paşam gəlib.

**30.10.2021**

## Mahalım mənim

Mahallar içində tayın yoxundu,
Mənim Zəngəzurum, mahalım mənim.
Dünyaya vermərəm bircə daşını,
Göylərlə əlləşən xəyalım mənim,
Mənim Zəngəzurum, mahalım mənim.

Dağın tək heç yerdə dağ ola bilməz,
Bağın tək heç yerdə bağ ola bilməz.
Cavanlar qocaya ağ ola bilməz,
Qartallar  içində qartalım  mənim,
Mənim Zəngəzurum, mahalım mənim.

Dumandan çalmasın saxlar başında,
Yüz bulaq qaynayar hər bir daşında.
İgidlər olublar cavan yaşında,
Vəsf etməyə çatmır kamalım  mənim,
Mənim Zəngəzurum, mahalım mənim.

Allah kömək oldu, çıxdıq düyündən,
Düşmən əllərində qalmadı Vətən.
Çağırın dostların yüzünü birdən,
Yenə tüstülənsin manqalım mənim,
Mənim Zəngəzurum, mahalım mənim.

Xankişi illərdi, dərd-qəmə əsir,
Dərd-qəmdən qalmayıb hövsələ, səbir.
Yəqin indi yolumuzu gözləyir,
Qocalıb dağlarda maralım mənim,
Mənim Zəngəzurum, mahalım mənim.

## Başına dönüm

Yanmış ocaqların külüyəm, qardaş,
İçi  yananların çölüyəm,  qardaş.
Göyçəsiz, Təbrizsiz ölüyəm qardaş,
Ruhumla oynama başına dönüm!

Bacasız tövlələr külfəsindəyəm,
Nə olsun yüz dəvə qüvvəsindəyəm.
Qəm, kədər dağının zirvəsindəyəm,
Ruhumla oynama başına dönüm!

Ağıl çoxdan gedib, bəbəyəm indi,
Dibi görünməyən xəndəyəm indi.
Arısı qırılmış pətəyəm indi,
Ruhumla oynama başına dönüm!

Sağdan gəlib sağa gedən sağ mənəm,
Dağdan gəlib dağa gedən dağ mənəm,
Haqdan gəlib haqqa gedən haqq mənəm,
Ruhumla oynama başına dönüm!

Daş kəsməkdən biləklərim ağrıdı,
Yaş kəsməkdən bəbəklərim ağrıdı.
Neçə ki, Göyçənin yolu bağlıdı,
Ruhumla oynama başına dönüm!

Xəyalıma zirvə düşüb, yal düşüb,
Səbətdəki, qabıqdakı bal düşüb,
Ürəyimə Təbriz boyda xal düşüb,
Ruhumla oynama başına dönüm!

Göz yaşlarım çay nədi ki, dənizdi,
Dərdim mənə əzizdən də əzizdi.
Əzizlərim nədəndirsə qəlizdi,
Ruhumla oynama başına dönüm!

Bilirsənmi bu dünyanın rəngi nə?
Əcəl alıb cox igidi cənginə.
Heç olmasa bir baxginən renginə,
Ruhumla oynama başına dönüm!

Ağrım, acım laybalaydı, qatqatdı,
Qəmli könlüm min bir yerdən çat-çatdı.
Həsrət Xankişini vallah çattatdı,
Ruhumla oynama başına dönüm!

## Bir şeir də Qarabağdan de, dədə

Arazı ayırdılar,
Lil ilə doyurdular.
Mən səndən ayrılmazdım,
Zor ilə ayırdılar **(Ərdoğanın dilindən).**

Qurban olum şeir deyən dilinə,
Bir şeir də Qarabağdan de, dədə!
Dumanlı Şuşanın nurlu axşamı,
Bir şeir də Qarabağdan de, dədə!

De ki, bir də eşitsinlər düşmənlər,
Lovğa-lovğa gülməsinlər gülənlər.
Nə yaxşı ki, yenə gəldi o günlər,
Bir şeir də Qarabağdan de, dədə!

Şöhrətin yayılıb ulduza, aya,
Gəlməz nə hesaba, nə də ki saya.
Qurban olum səni doğan anaya,
Bir şeir də Qarabağdan de, dədə!

Ulu Türküm tarixlərin yaşıdı,
Bu hikməti anlamayan naşıdı.
Bayrağımız bayraqların başıdı,
Bir şeir də Qarabağdan de, dədə!

Gəlib çıxdın vədəsinə, vaxtına,
Bir günəşsən millətimin baxtına.
Baş əyirəm Atatürkün taxtına,
Bir şeir də Qarabağdan de, dədə!

Kipriyində nəm görməyim heç vədə,
Nur üzündə qəm görməyim heç vədə.
Dədəlikdən kəm görməyim heç vədə,
Bir şeir də Qarabağdan de, dədə!

Çoxu haqqı demir, desə də Allah,
Astarı da agah, üzü də agah.
Agahların acığına sən Allah,
Bir şeir də Qarabağdan de, dədə!

Rəhmət deyək min yol Yunis Əmrəyə,
Yunis Əmrə bir də çətin törəyə.
Qurban olum türkdə olan ürəyə,
Bir şeir də Qarabağdan de, dədə!

Şeytana, ilana verməyək aman,
Bir olsun adımız, bir olsun ünvan.
Hicransız yaşasın can Azərbaycan,
Bir şeir də Qarabağdan de, dədə!

Bundan sonra Araz axmaz lil ilə,
Bəzəyərik dörd bir yanın gül ilə.
Nəğmələr qoşarıq Xarıbülbülə,
Yetişərik İnşəallah  mənzilə,
Bir şeir də Qarabağdan de, dədə!
Bir şeir də Xocalıdan de, dədə!
Bir şeir də Xankəndindən de, dədə!

**09.10.2021**

**Torpağına qurban olum, Qarabağ**

Nə vaxtdandır həsrətidik üzünə,
Torpağına qurban olum, Qarabağ.
İndən sonra dik baxarıq gözünə,
Torpağına qurban olum, Qarabağ.

Səngərlərdə neçə-neçə şirin var,
Düşmənlərə qan udduran ərin var.
Keşiyində İlham kimi nərin var,
Torpağına qurban olum, Qarabağ.

Düşmənlərin ayağına enmədin,
Sozalsan da bircə dəfə sönmədin.
Haqq yolundan büdrəmədin, dönmədin,
Torpağına qurban olum, Qarabağ.

**08.10.2020**

## Qarabağ

Möcüzədi torpağı da, daşı da,
Bulaqları pıçıltılı Qarabağ.
Ətəyi çiçəkli, zirvəsi qarlı,
Kəklikləri qaqqıltılı Qarabağ.

Bir tarixdi, yaşı dünya yaşında,
Nələr çatlamayıb, nələr başında.
Bir tarixdi mamırı da, daşı da,
"Çahargah"lı, "Heyratı"lı Qarabağ.

Gözlərin qaralar baxanda Kirsə,
Hər adam görəmməz gözləri kirsə.
Düşməz daha Kirsin yolları tərsə,
Bulaqları qıjıltılı Qarabağ.

Xankişiylə zaman düşüb, vaxt düşüb,
Bəxtimə dul taleh, qara baxt düşüb.
Könlümə yenə də Qarabağ düşüb,
Nərmənazik bayatılı Qarabağ.

## Qarabağ

Gəzib dolaşsam da cümlə cahanı,
Düzü Qarabağdan görməmişəm mən.
Cənnət nədir o ellərin yanında,
Düzü Qarabağdan görməmişəm mən.

Laçında bircə yol qalanlar bilər,
Şuşanın mehmanı olanlar bilər.
Ağdamı muğamat duyanlar bilər,
Düzü Qarabağdan görməmişəm mən.

Təbibdi, loğmandı bizim Kəlbəcər,
Dörd yanı kəkotu, zirə, qantəpər.
Şəmşiri, Bəhməni yetriməz bəşər,
Düzü Qarabağdan görməmişəm mən.

Vidadi, Səxavət, bir də ki Sədi,
Qalacaqlar ürəklərdə əbədi.
Sənət məbədidir, muğam məbədi,
Düzü Qarabağdan görməmişəm mən.

Bir məktəbdir, İslam, Dədə Süleyman,
Ağabala dinsə, susar tar, kaman.
Məhəbbətin yeri görünür yaman,
Düzü Qarabağdan görməmişəm mən.

Qədimdi tarixi, qədimdi yaşı,
Gövhərdi, incidi  torpağı, daşı.
Şəki, Şirvan Qarabağın qardaşı,
Düzü, Qarabağdan görməmişəm mən.

Qulaq assan Mütəllimə, Zülfüyə,
Diz çökərsən min yol Ağcabədiyə.
Rəhmət Xan əmiyə, Cabbar əmiyə,
Düzü Qarabağdan görməmişəm mən.

Kövrəkdən kövrəkdi hər saat, hər an,
Xankişi beyləsin bəd gəldi dövran.
Məndən inciməsin cəm Azərbaycan,
Düzü Qarabağdan görməmişəm mən.

**31.07.2019**

## Qarabağ düşməndən alınan zaman

Yamanca kövrəldim, yamanca doldum,
Qarabağ düşməndən alınan zaman.
Elə bil dünyaya təzəcə gəldim,
Qarabağ düşməndən alınan zaman.

Axdı öz-özünə sevinc göz yaşım,
Biləndə alınıb torpağım, daşım.
Qaraldı bir anda ağarmış qaşım,
Qarabağ düşməndən alınan zaman.

Qayalar sevindi, daşlar sevindi,
Gözlərdən süzülən yaşlar sevindi.
Səmada qıy vuran quşlar sevindi,
Qarabağ düşməndən alınan zaman.

Qeyrət meydanında imtahan gördüm,
Sönən baxışları odlanan gördüm.
İlham kimi cəsur komandan gördüm,
Qarabağ düşməndən alınan zaman.

Yaddan necə çıxsın Laçın, Kəlbəcər,
Dörd yanı kəkotu, zirə, qantəpər.
Sevindiyim olmamışdı bu qədər,
Qarabağ düşməndən alınan zaman.

Sonu çatdı qəm-qüssənin, qubarın,
Ruhu təzələndi Xanın, Cabbarın,
Aldı qisasını Mais Əlyarın,
Qarabağ düşməndən alınan zaman.

Düzəldi yenə də xəritəm mənim,
Ucaldı Şuşadan Şikəstəm mənim.
Möcüzə yaratdı sərkərdəm mənim,
Qarabağ düşməndən alınan zaman.

**08.10.2020**

## Şuşanın dağları özgə aləmdi

Sirli möcüzədi başdan ayağa,
Şuşanın dağları özgə aləmdi.
Şimal nədi, cənub nədi, qərb nedi,
Şuşanın dağları özgə aləmdi.

Hayana baxırsan güldü çiçəkdi,
Çiçəkləri nə gözəldi, göyçəkdi.
Hər tərəf moruqdu, ya çiyələkdi,
Şuşanın dağları özgə aləmdi.

Min dərdə dərmandı İsa bulağı,
Sanki baldı Zarıslının qaymağı.
Bir cənnətdi Turşsu, Qırxqız yaylağı,
Şuşanın dağları özgə aləmdi.

Zirvələrdə  adam huşun itirər,
Qorxusundan adam yaşın itirər.
Dolaylar var,  adam başın itirər,
Şuşanın dağları özgə aləmdi.

Şəfa diləyənə  loğman taparsan,
Dostlara can deyen qurban taparsan.
Nə istəsən, burda asan taparsan,
Şuşanın dağları özgə aləmdi.

Göydə fələk, yerdə bəndə oxuyur ,
Zillərlə əlləşən pərdə oxuyur.
Qartallar da Segah üstə oxuyur,
Şuşanın dağları özgə aləmdi.

Adı-sanı haqq-hesaba sığışmaz,
Nə suala, nə cavaba  sığışmaz.
Şan-şöhrəti min kitaba  sığışmaz,
Şuşanın dağları özgə aləmdi.
Şuşanın dağları özgə aləmdi.

**23.06.2021**

## Qurban olsun canım sənə ay Şuşa

Ölmədik bu günü axır ki, gördük,
Qurban olsun canım sənə ay Şuşa!
Nə vaxtdandı həsrətidik üzünə,
Qurban olsun canım sənə ay Şuşa!

Azad oldun yağılardan, sən yasdan,
Yazılacaq şərəfinə min dastan.
Dörd bir yanın yenə olar gülüstan,
Qurban olsun canım sənə ay Şuşa!

Eşitdim xəbəri günorta vaxtı,
Gözümdən çeşmələr sel kimi axdı.
Güldü xalqımızın taleyi, baxtı,
Qurban olsun canım sənə ay Şuşa!

Sandım ki, saçımı küləklər öpdü,
Cıdır düzündəki çiçəklər öpdü.
İsa bulağında mələklər öpdü,
Qurban olsun canım sənə ay Şuşa!

Qayalar sevindi, daşlar sevindi,
Gözlərdən süzülən yaşlar sevindi.
Səmada qıy vuran quşlar sevindi,
Qurban olsun canım sənə ay Şuşa!

Ömür boyu unutmaram bu günü,
İgid Sərkərdəmiz qırdı düyünü.
Xankişinin bundan yaxşı nə günü,
Qurban olsun canım sənə ay Şuşa!

**08.11.2020**

## Millətin birliyi nə gözəlimiş

Nə yaxşı qayıtdı millət özünə,
Millətin birliyi nə gözəlimiş!
Biz necə dözmüşük keçən illərə?
Millətin birliyi nə gözəlimiş!

Dağların başında küləklər deyir,
Qartallar danışır, kəkliklər deyir.
Bunu mən demirəm, mələklər deyir,
Millətin birliyi nə gözəlimiş!

Göylərin şimşəyi, çölün çiçəyi,
Çiçəklərin ən gözəli, göyçəyi,
Dilə gəlir min-min əsgər ürəyi,
Millətin birliyi nə gözəlimiş!

İlhamım da nərdi, Ərdoğan da nər,
Belə cəngavərlər görməyib bəşər.
Yaddan necə çıxsın Atatürk, Heydər,
Millətin birliyi nə gözəlimiş!

Ləzzət nə deməkdir, mən indi bildim,
Cənnət nə deməkdir, mən indi bildim,
Millət nə deməkdir, mən indi bildim,
Millətin birliyi nə gözəlimiş!

## Dünya türkün olub, türkün olacaq

Allah haqqı düz deyibdi ustadlar,
Dünya türkün olub, türkün olacaq.
Neçə neçə qərinələr keçsə də,
Dünya türkün olub, türkün olacaq.

Gələcək ulduzlu, aylı axşamlar,
Yanacaq hər erdə yenə ağ şamlar.
Doğulacaq Əroğanlar, İlhamlar,
Dünya türkün olub, türkün olacaq.

Payız deyir, qış danışır, yay deyir,
Dəniz deyir, göl danışır, çay deyir.
Bunu mən demirəm, ulduz, ay deyir,
Dünya türkün olub, türkün olacaq.

Min illər də belə olub əvvəldən,
Gözəl ürək ilham alıb gözəldən.
Allah da dayaqdı türkə əzəldən,
Dünya türkün olub, türkün olacaq.

## Heç olmasa, sən ağlama, ay dədə

(Türkiyədə baş verən dəhşətli zəlzələdən sonra yazdım bu şeiri)

Neçə gündü bütün millət ağlayır,
Heç olmasa, sən ağlama, ay dədə!
Sənin əvəzinə özüm ağlaram,
Heç olmasa, sən ağlama, ay dədə!

Qayalar ağlıyır, daşlar ağlıyır,
Mələklər gözündə yaşlar ağlıyır.
Lal olub bülbüllər, quşlar ağlıyır,
Heç olmasa, sən ağlama, ay dədə!

Bədənim ağrıyır, tək ürəyim yox,
Sanki ürəyimə sancılıbdı ox.
Sən Allah özünü üzmə, saxla tox,
Heç olmasa, sən ağlama, ay dədə!

Bir qanun bilirəm, bölünməz Vətən,
Vətənə bu sevgim deyil tükənən.
Cəmi şəhidlərə qurban olum mən,
Heç olmasa, sən ağlama, ay dədə!

Dağıldı aranım, dağım, bağım da,
Bu qoca vaxtımda, ahıl çağımda.
İçin-için qovruluram yağımda,
Heç olmasa, sən ağlama, ay dədə!

İtirdim özümü, həm avazımı,
Bundan sonra necə yazım yazımı?
Qıla bilmədim mən sübh namazımı,
Heç olmasa, sən ağlama, ay dədə!

Durarıq biz arxa kimsəsizlərə,
Candan da keçərik qəlbi düzlərə.
Yerin göstərərik şərəfzislərə,
Heç olmasa, sən ağlama, ay dədə!

Böhrandan, ziyandan çıxart milləti,
Çiskindən, dumandan çıxart milləti.
Ən ağır sınaqdan çıxart milləti,
Heç olmasa, sən ağlama, ay dədə!

İlanlara, şeytanlara min lənət,
Nə qədər olarmış məxluqda sifət?
Sən olmasan, yetim qalar bu millət,
Heç olmasa, sən ağlama, ay dədə!

Durub yanınızda can Azərbaycan,
Zərrə qədər olmayın  siz  nigaran.
Verməik düşmənə heç zaman imkan,
Heç olmasa, sən ağlama, ay dədə!

Allah qoy saxlasın qol-budağını,
Daha da gur etsin od-ocağını.

Düşmənlər görməsin ağlamağını,
Heç olmasa, sən ağlama, ay dədə!

Dərd çəksən, qəm çəksən inciyər Vətən,
Kef edər, toy edər , sevinər düşmən.
Zərrə qədər qamətini əymə sən.
Heç olmasa, sən ağlama, ay dədə!

Adam gördüm, tərpənmədi heç tükü,
Tükü tərpənməzin çürükdü kökü.
Sənin çiynindədi millətin yükü,
Heç olmasa, sən ağlama, ay dədə!

Bilirəm dərdin çox, həm də ki çətin,
Yenə də üzülmə, dayan sən mətin.
Ümidi sizədir bu məmləkətin,
Heç olmasa, sən ağlama, ay dədə!

Tərsə düşər kilimlərin ilməyi,
Su saxlamaz gəlinlərin sənəyi.
Vallah dözməz anaların ürəyi,
Heç olmasa, sən ağlama, ay dədə!

Görsən də min dəfə belə dolunu,
Bağlayan olmayıb hələ qolunu.
İnanıram Allah açar yolunu,
Heç olmasa, sən ağlama, ay dədə!

Susuz yuyub, quru-quru sərməyə,
Birdəfəlik tökmək üçün lehməyə.
Yağıların dərslərini verməyə,
Heç olmasa, sən ağlama, ay dədə!

Qardaşlar yenə də verər əl-ələ,
Qoymaz yerdə qala tək bircə nalə.
Türkü yıxa bilməz tufan, zəlzələ,
Heç olmasa, sən ağlama, ay dədə!

Daş üstə bircəcə daş qalmasa da,
Tək bircə salamat baş qalmasa da,
Analar gözündə yaş qalmasa da,
Heç olmasa, sən ağlama, ay dədə!

Kəlbəcər, Füzulu, Şuşa ağlayır,
Zəngilan, Qubadlı, Laçın ağlayır.
İndi bütün Azərbaycan ağlayır,
Heç olmasa, sən ağlama, ay dədə!

Çoxu haqqı demir, desə də Allah,
Astarı da agah, üzü də agah.
Agahların acığına sən Allah,
Heç olmasa, sən ağlama, ay dədə!

Bütün millət dayanıbdı arxanda,
İnşaalah çəkilər bir gün duman da.

Nə gözəldi, qardaş oldu Yunan da,
Heç olmasa, sən ağlama, ay dədə!

Bilirəm başkanım qılar tədbirər,
Hirsindən partlayar çox-çox kafirlər.
Yenə gülüstana dönər o yerlər,
Heç olmasa, sən ağlama, ay dədə!

Olsun Xankişidən sizə vəsiyyət,
Yenə imtahana çəksə təbiyyət.
Qəmli dayanmayın, üşüyər millət,
Heç olmasa, sən ağlama, ay dədə!

**14.02.2023**

## Bu kənddən nə qəşəng kənd iyi gəlir

(Bu şeiri öz kəndimizə ithaf etmişəm)

Nə gözəldi, nə şirindi ilahi,
Bu kənddən bal iyi, qənd iyi gəlir.
Ənbər nədi, ətir nədi, dürr nədi?
Bu kənddən nə qəşəng kənd iyi gəlir.

Nə suala, nə cavaba sığışmaz,
Nə bir haqqa, nə hesaba sığışmaz,
Min dəftərə, min kitaba sığışmaz,
Bu kənddən nə qəşəng kənd iyi gəlir.

Yamacı yerində, yalı yerində,
Allı kəpənəyin xalı yerində.
Pətəyi yerində, balı yerində,
Bu kənddən nə qəşəng kənd iyi gəlir.

Lalə ordan, nərgiz burdan boylanır,
Ordan yarpız, burdan reyhan boylanır.
Bənövşə də pünhan-pünhan  boylanır,
Bu kənddən nə qəşəng kənd iyi gəlir.

Olmaz çəmənindən, olmaz çölündən,
Olmaz dumanından, dağda çənindən.
Aldı Xankişinin ağlın əlindən,
Bu kənddən nə qəşəng kənd iyi gəlir.

**Biz sizə borcluyuq qazi qardaşım**

**(Musiqisi: Anar İlhamlı)**

Allaha xoş getməz, sizi unutsaq,
Biz sizə borcluyuq qazi qardaşım.
Uşaqlı, böyüklü  bütün xalq deyir,
Biz sizə borcluyuq qazi qardaşım.

Kəlbəcər, Fizuli, bizim Laçını,
Qubadlı, Cəbrayıl, həm Zəngilanı,
Yağılardan azad etdiz Şuşanı,
Biz sizə borcluyuq qazi qardaşım.

Qartal kimi zirvələrdə uçdunuz,
Zülmət gecələrdə işıq saçdınız.
Qarabağa təzə yollar açdınız,
Biz sizə borcluyuq qazi qardaşım.

Elə bil təzədən cahana gəldik,
Xöşbəxt bir dövrana, zamana gəldik.
Sizin sayənizdə peymana gəldik,
Biz sizə borcluyuq qazi qardaşım.

Vermədiniz düşmənlərə siz aman,
Beş aldınız imtahandan hər zaman.

Sizinlə fəxr edir can Azərbaycan,
Biz sizə borcluyuq qazi qardaşım.

El içində çox ucadı adınız,
Qoy var olsun hər bir zaman canınız.
Sizə çox yaraşır medallarınız,
Biz sizə borcluyuq qazi qardaşım.

**01.09.2023**

## Miridən Mirlərin qoxusu gəlir

Mir Sədi babanın başına dönüm,
Miridən Mirlərin qoxusu gəlir.
Çadırın altında bir gur yağışda,
Adamın nə qəşəng yuxusu gəlir,
Miridən Mirlərin qoxusu gəlir.

Qorxuram ki, qızıl gülü dərməyəm,
Dərib bir də pünhan yerdə sərməyəm.
Qorxuram ki, o dağları görməyəm,
Adamın hərdən bir qorxusu gəlir,
Miridən Mirlərin qoxusu gəlir.

Əzəl gündən arxa olub cədd dinə,
Naşı bilməz Seyid kimdi, cəddi nə?
Qurban olum Mir Sədinin cəddinə,
Yadıma o dövrün çoxusu gəlir,
Miridən Mirlərin qoxusu gəlir.

Qabaqda payızdı, daha yox bahar,
Xankişi Bəxtiyar günləri sayar.
Bu gündən sabaha yoxdu etibar,
Tez-tez ürəyimin ağrısı gəlir,
Miridən Mirlərin qoxusu gəlir.

**Var ol səni, var ol dünya**

İlham kimi oğul verdin,
Var ol səni, var ol dünya!
Mehriban tək xanım verdin,
Var ol səni, var ol dünya!

Bulaqlar çaya qovuşdu,
Bu tay o taya qovuşdu.
Ana balaya qovuşdu,
Var ol səni, var ol dünya!

Millətindən pasiban var,
Muğamatdan nigaran var.
Nə yaxşı ki, Mehriban var,
Var ol səni, var ol dünya!

Çox-çox suları durultdun,
Çoxuna lənət oxutdun.
Heydərə rəhmət oxutdun,
Var ol səni, var ol dünya!

Vermisən qeyrəti bura,
Vermisən sərvəti bura.
Vermisən cənnəti bura,
Var ol səni, var ol dünya!

Qabaqdadı cah-cəlalın,
Daha yoxdu qeylü-qalın.
Ömürlük var ağsaqqalın,
Var ol səni, var ol dünya!

Bir ruzi var hər ayaqda,
Çarə olmaz olacaqda.
Kömək oldun dar ayaqda,
Var ol səni, var ol dünya!

Bağçalarda bar görürəm,
Yaltaqları xar görürəm.
Yaxşı yuxular görürəm,
Var ol səni, var ol dünya!

Yoxa çıxdı qəmu-hicran,
Bütöv oldu Azərbaycan,
Deyəcəyəm axıracan,
Var ol səni, var ol dünya!

## İlk sözüm İlhamdır, son sözüm İlham

Mənim yolum budur, əqidəm budur,
İlk sözüm İlhamdır, son sözüm İlham.
Düşünən beynimdir, görən gözümdür,
İlk sözüm İlhamdır, son sözüm İlham.

Bir sözümdə, bir kəlməmdə çaşmaram,
Qazan gəlib qaynamamış daşmaram.
Bircə sözümdən də geri qaçmaram,
İlk sözüm İlhamdır, son sözüm İlham.

Əbədi kor olsun, görməyən gözlər,
Yaşasın doğrular, yaşasın düzlər.
Lap Allaha gedib çatsın bu sözlər,
İlk sözüm İlhamdır, son sözüm İlham.

Nə göydə taparsan, nə də ki yerdə,
Vəsf eləmək çox çətindi şeirdə.
Ata-oğul nə gözəldir bir yerdə,
İlk sözüm İlhamdır, son sözüm İlham.

Hər fəsil baş-başa ruzigar olsa,
Hər tərəf qaniçən zülmükar olsa,

Tufan qopsa, dünya tarimar olsa,
İlk sözüm İlhamdır, son sözüm İlham.

Günəşə deyərəm, günə deyərəm,
Səhər, axşam hər bir öynə deyərəm.
Təzədən doğulsam, yenə deyərəm,
İlk sözüm İlhamdır, son sözüm İlham.

Təki yaz anlasın, qış anlamasın,
Ürəyi daş, gözü çaş anlamasın.
Eybi yox, sözümü daş anlamasın,
İlk sözüm İlhamdır, son sözüm İlham.

Bir gələn var, bir qalan var, bir gedən,
Gələn qalmaz, nə də qayıtmaz gedən.
Xankişi Bəxtiyar deyib əzəldən,
İlk sözüm İlhamdır, son sözüm İlham.

Açmaq çətin bu qıfılı, bu sehri,
Duya bilməz naşı olan bu mehri?
Namaz qılıb, sonra yazdım bu şeri,
İlk sözüm İlhamdır, son sözüm İlham.

**22.05.2022**

## İlham gəlir deyəndə

Bütün dünya dayanır,
İlham gəlir deyəndə.
Yatanlar da oyanır,
İlham gəlir deyəndə.

Sazın sinəsi yanır,
Axan sular dayanır.
Qışın atası yanır,
İlham gəlir deyəndə.

Nəğmələr xal qazanır,
Arılar bal qazanır,
Yağı düşmən dayanır,
İlham gəlir deyəndə.

Səcdə qılır zirvələr,
Çox sevinir nəvələr.
Qanır hətta kirvələr,
İlham gəlir deyəndə.

# *XATİRƏLƏR*

**Analar yerinə mən qocalaydım**

Arzumdu analar qocalmayaydı,
Analar yerinə mən qocalaydım.
Dünyanın dərdini özüm çəkəydim,
Analar yerinə mən qocalaydım.

Ömür boyu gülən görüm, şən görüm,
Başı üstə duman, nə də çən görüm.
İstəmərəm saçlarında dən görüm,
Analar yerinə mən qocalaydım.

Bu qisməti yaz bəxtinə, yaz anım,
Qışda anım, yayda anım, yaz anım.
Belə yazsın mənim tale yazanım,
Analar yerinə mən qocalaydım.

Şahlıq istəsələr fərman olum mən,
Əlac istəsələr, dərman olum mən.
Cəmi analara qurban olum mən,
Analar yerinə mən qocalaydım.

**Bir dənəsən ki, bir dənə**

Göy üzündə süzən gözəl,
Sünbül gözəl, süsən gözəl?
Gözəlliyin əhsən, gözəl,
Bir dənəsən ki, bir dənə.

And yerimiz Ocaq haqqı,
Ocaqdakı çıraq haqqı.
O göy haqqı, torpaq haqqı,
Bir dənəsən ki, bir dənə.

Kəlmələrin şəkər, baldı,
Bu nə naxış, bu nə xaldı?
Xarı bülbül də lal qaldı,
Bir dənəsən ki, bir dənə.

Xankişi hər şeyə coşmaz,
Hər gözələ şeir qoşmaz.
Mən yazmaqdan bir kar aşmaz,
Bir dənəsən ki, bir dənə.

**Oxu mən yazdığım şeirləri sən**

Əgər xəyalından keçsəm nə vaxtsa,
Oxu, mən yazdığım şeirləri sən.
Ruhun təzələnər, ruhun dincələr,
Oxusan yazdığım şeirləri sən.

Ötən xatirələr yenə oyansa,
Bulaqdan sevdiyin baxsa, boylansa,
Nəfəsin təngisə, ürəyin yansa,
Oxu, mən yazdığım şeirləri sən.

Qartallar zirvədə qıy vuran zaman,
İgidlər dağlarda mey vuran zaman,
Qocalar əyləşib çay vuran zaman,
Oxu, mən yazdığım şeirləri sən.

Göydə görünəndə durna qatarı,
Qova bilməyəndə qəmi, qubarı.
Getmək istəyəndə vətənə sarı,
Oxu, mən yazdığım şeirləri sən

**Ayağın düşəndə bizim ellərə**

Məndən o yerlərə salam deyərsən,
Ayağın düşəndə bizim ellərə.
Əzəl-əzəl şəhidlərə dəyərsən,
Ayağın düşəndə bizim ellərə.

Çıxarsan Dağyurda, Topağaca sən,
Taparsan min dərman hər əlaca sən.
Mahnı da qoşarsan yal-yamaca sən,
Ayağın düşəndə bizim ellərə.

"Pir" dağında gedib arı kəsərsən,
O yerləri qarış-qarış gəzərsən.
Qantəpəri şehli-şehli üzərsən,
Ayağın düşəndə bizim ellərə.

Əgər birdən düşsən dumana, çənə,
Qorxma, bizim dağlar yol verər sənə.
Bir salam da denən şehli çəmənə,
Ayağın düşəndə bizim ellərə.

Qayıdanda bir şikəstə deyərsən,
Ahəstə yox, lap zil səsdə deyərsən.
Mir Sədi babaya hökmən dəyərsən,
Ayağın düşəndə bizim ellərə.

**18.08.2020**

## Məni imtahandan kəsmək çətindi

Deyə bilmədiyim söz içimdədi,
İçimi göynədən köz içimdədi,
Nahaqdan uzağam, düz içimdədi,
Məni imtahandan kəsmək çətindi.

Düşsəm də çovğuna, borana, qara,
Çatmışam yenə də köməyə, kara.
Min yol aramısan, min yol da ara,
Məni imtahandan kəsmək çətindi.

Mənim üçün bircə yol var, dağ yolu,
Sağdan gəlib, sağa gedən sağ yolu.
Mənim yolum, haqq yoludu, haqq yolu,
Məni imtahandan kəsmək çətindi.

Qeyrətsizlər çox atıblar daş mənə,
Oynadıblar kiprik mənə, qaş mənə.
Aqillər veriblər daim beş mənə,
Məni imtahandan kəsmək çətindi.

## Uşaqlıq xatirələri

Ömrümün ən gözəl, bəxtəvər çağı,
Uşaqlıq illəri çıxmır yadımdan.
İndi də hər gecə yuxuda görrəm,
Uşaqlıq illəri çıxmır yadımdan.

Səhər tezdən obaşdandan durardıq,
Tay-tuşları bir mətəyə[1] yığardıq.
Axşamacan min oyundan çıxardıq,
Uşaqlıq illəri çıxmır yadımdan.

Kökə[2] bişirərdi anamız bizə,
Ətri yayılardı həyətə, düzə.
Sığmaz min dastana, sığmaz min sözə,
Uşaqlıq illəri çıxmır yadımdan.

Ağır idi kəndimizin yığnağı,
Hesaba gəlməzdi toyda qonağı.
Toybaşılar oynadardı şallağı,
Uşaqlıq illəri çıxmır yadımdan.

---

[1] **Mətə** - camaatın toplaşdığı yer.
[2] **Kökə -** balaca yumru çörəkdir, təxminən indiki qoğal kimi. Atalar sözümüz də var: Nə yoğurdum, nə yapdım, hazırca kökə tapdım.

Axşam oldu, nənəm nağıl deyərdi,
Hamıdan çox nəvələri öyərdi.
Bizi azca incidəni söyərdi,
Uşaqlıq illəri çıxmır yadımdan.

Kəndimizin hər fəsili yaz idi,
Camaatın güzəranı saz idi.
Gözəlləri qız deyildi, naz idi,
Uşaqlıq illəri çıxmır yadımdan.

Yazda yeri təfcəkləyib[3] əkərdik,
Tikan[4] qırıb, bağa çəpər[5] çəkərdik.
Yığıb mer-meyvədən araq çəkərdik,
Uşaqlıq illəri çıxmır yadımdan.

Tez-tez şimşək, ildırımlar çaxardı,
Sellər, sular şaqqıldayıb, axardı.
Yekə-yekə ağacları yıxardı,
Uşaqlıq illəri çıxmır yadımdan.

---

[3] **Təfcəkləmək -** torpağı, yeri qazmaq, əkmək, belləmək deməkdir.
[4] **Tikan -** hündürlüyü 1.5-5 m olan olduqca tikanlı koldur. El arasında **qaratikan** da deyirlər. Həyət-bacanı qorumaq üçün ətrafı tikanla çəpərləyirlər, yəni həyətə hasar çəkirlər. Qaratikan balı da çox faydalıdır.
[5] **Çəpər** - bağın, bağçanın, həyətin ətrafına taxtadan, tikandan və ya başqa materiallardan çəkilən sədd, divar, barı, hasar.

Layla oxuyardı bizə Həkəri,
İncitməzdi nə bir xanı, nökəri.
Min şükür, yenə də döndü təkəri,
Uşaqlıq illəri çıxmır yadımdan.

Gündə yüz yol yal-yamaca çıxardıq,
Lalə, nərgiz, novruzgülü yığardıq.
Güləşərdik, bir-birmizi yıxardıq,
Uşaqlıq illəri çıxmır yadımdan.

Qızlarınan gedərdik biz pencərə[6],
Pencərinən bol olardı hər dərə.
Yadımda o qədər qalıb xatirə,
Uşaqlıq illəri çıxmır yadımdan.

Getmişdik xəzəzə[7], çaşır[8] yığmağa,
Çıxdı qarşımıza yekəpər[9] dığa[10].
Bizi görcək başladı o, qaçmağa,
Uşaqlıq illəri çıxmır yadımdan.

---

[6] **Pencər -** müxtəlif yeməli yabanı otların, məsələn, qoyunqulağı, quzuqulağı, yemilik, keşniş, mərövcə, qırxbuğum, qanqal, əvəlik, kəklikotu, quşəppəyi, qazayağı, gicitkən, dəvədabanı, əməköməci, cincilim, xəzəz, çaşır, çiriş və s. ümumi adıdır.

[7] **Xəzəz** - soğana oxşayan bitkidir, yabanı soğan da demək olar.

[8] **Çaşır** - olduqca faydası olan möcüzəli bir bitkidir. Diabeti, xərçəngi sağaldır, ürəyi möhkəmlədir, qanı təmizləyir, cinsi gücü artırır. Adətən ondan turşu qoyurlar.

Qonşu bağlarına xəlvət gedərdik,
Əlimizə keçənlərdən dərərdik.
Sonra gəlib qardaş kimi bölərdik
Uşaqlıq illəri çıxmır yadımdan.

Bir gün anam məni bağda görmüşdü,
Gərməşovla[11] yaxşı bir dərs vermişdi.
Bir də getsən, öldürəcəm demişdi,
Uşaqlıq illəri çıxmır yadımdan.

Çərşənbədə yumurtanı boyardıq,
Toqquşdurub, sınanları soyardıq.
Çilingağac, dirədöymə oynardıq,
Uşaqlıq illəri çıxmır yadımdan.

Novruz axşamında papaq atardıq,
Qaçıb gizlənərdik, xəlvət baxardıq.
Sonra payımızı alıb qaçardıq,
Uşaqlıq illəri çıxmır yadımdan.

Yadımdan heç çıxmır Abbasın yalı,

---

[9] **Yekəpər - ç**ox yekə, iri, cüssəcə çox böyük, kələ-kötür, üz-gözündən zəhm yağan adam.

[10] **Dığa -** erməni oğlan uşağı.

[11] **Gərməşov -** bozumtul, yumşaq gövdəsi, dairəvi yarpaqları olan tikansız bitkidir. Çox möhkəm və elastik olur, sınmağınan arası yoxdur.

İndi də əllərim qalıb uzalı.
Dadlıydı pendiri, qaymağı, balı,
Uşaqlıq illəri çıxmır yadımdan.

Şoru bəyənməzdik, çölə tökərdik,
Ayranı toyuğa, mala tökərdik.
İtin qabağına yala[12] tökərdik,
Uşaqlıq illəri çıxmır yadımdan.

Arada bir gedərdik biz nobata[13],
Payızda oduna, yay vaxtı ota,
Atam mindirərdi bizi Boz ata
Uşaqlıq illəri çıxmır yadımdan.

Axşam üstü sürü çöldən gələrdi,
Hər kəs öz heyvanın seçib bölərdi.
Anasını görən quzu mələrdi,
Uşaqlıq illəri çıxmır yadımdan.

Tamadamız igidləri öyərdi,
Gah Bəhməndən, Sücaətdən deyərdi.

---

[12] **Yal** - itin yeməyinə adətən yal deyirlər.
[13] **Nobat -** kənd yerlərində qonum-qonşunun mal-qaranı növbəylə otarmağa aparmasına verilən addır, türkcə "nöbet" sözündən götürülüb.

O zaman heç kimin yoxuydu dərdi,
Uşaqlıq illəri çıxmır yadımdan.

Getmir qulağımdan kəkliyin səsi,
Aləm idi bülbüllərin nəfəsi.
Unutmaram  nə fısdığı, vələsi.
Uşaqlıq illəri çıxmır yadımdan.

May gələndə arı beçə[14] verərdi,
Çarıq[15] üçün əmim keçə[16] verərdi,
Nənəm mənə tez-tez cücə verərdi,
Uşaqlıq illəri çıxmır yadımdan.

Yığardıq kəkotu, kəvər[17], qantəpər,
O vaxtdan bilirdim nədir gördəvər[18].

---

[14] **Beçə - a**na arıdan ayrılan yeni cavan arı ailəsidir.

[15] **Çarıq** - qədimdə kəndlilərin ayaqqabı olmayan zaman ayaq üçün istifadə etdikləri geyim növüdür. Çarığı adətən rezindən, aşılanmış göndən, keçədən tikərdilər.

[16] **Keçə** - döyülüb sixmaqla hazırlanan sıx yun materialdır. Əsasən alaçıq qurmaqda, yapıncı hazırlamaqda, at çulu, palan düzəltməkdə, çarıq tikməkdə istifadə olunub.

[17] **Kəvər**  soğan cinsinə aid olan bitki növüdür.

[18] Bataqlıq moruğu, bataqlıq qızılgülü, at sarımsağı, bataqlıq çiyələyi, dovşanqulağı və s. Bütün bunlar hamısı bir bitkinin - **gördəvərin** müxtəlif adlarıdır. Bu bitkinin başqa bir adı da var - rus jenşeni. Jenşen kimi bir çox xəstəliklərin müalicəsində tətbiq edildiyinə görə gördəvərə belə ad verilmişdir. Gördəvər dərman bitkisi kimi qədim zamanlardan məlumdur. Hətta onun müalicəvi xüsusiyyətləri haqqında XVII əsr yazılı mənbələrində də məlumat mövcuddur. Qədimdə insanlar öz güclərini yenidən bərpa etmək üçün gördəvər çayı içirdilər. Bəzi mənbələrə görə hətta I Pyotr onun köklərindən hazırlanmış məlhəmdən müalicə məqsədilə istifadə etmişdir. Çiçəkləri qırmızı rənglidir.

Kim görüb gecəvər[19], ya da güləvər[20]?
Uşaqlıq illəri çıxmır yadımdan.

Taxıl vaxtı gedərdik biz biçinə,
Ehtiyac çox idi orağa[21], çinə[22].
Atamız qoymazdı düşək çətinə,
Uşaqlıq illəri çıxmır yadımdan.

Gözəl idi meşələrin talası,
Talaların bənövşəsi, lalası.
Bir dəfə tutmuşdum dovşan balası,
Uşaqlıq illəri çıxmır yadımdan.

Qar yağdı, gedərdik dağlara ova,
Baxmazdıq nə qara, nə də qırova.
O zaman ayrıydı tamam ab-hava.
Uşaqlıq illəri çıxmır yadımdan.

---

[19] **Gecəvər** çoxillik kökümsovlu dərman bitkisidir.
[20] **Güləvər və ya peyğəmbərçiçəyi** - bu, bənövşəyi, abi və ya göy gülləri olan birillik otdur. İbn Sina bu otun çox böyük müalicəvi əhəmiyyətini qeyd etmişdir.
[21] **Oraq -** taxıl, qismən də ot biçinində istifadə edilən alətidir. Kiçik polad tiyədən və ağac sapdan ibarətdir. Dişsiz olması ilə çindən fərqlənir.
[22] **Çin -** taxıl, ot və s. biçmək üçün qısadəstəli, narın dişli, yarımdairəvi kənd təsərrüfatı alətidir. Əsasən taxıl biçmək üçün istifadə edilir. Ot biçmək üçün isə oraqdan istifadə olunur.

Hərdən qayıtmazdıq, ovda qalardıq,
Səhərəcən ocaq çatıb qalardıq.
Heç denən ki, bircə dəfə donardıq?
Uşaqlıq illəri çıxmır yadımdan.

Yadımdadı, bir gün düşdüm dumana,
Ayağım büdrədi, aşdım yarğana.
Bir çovğun başladı, qaldım gümana,
Uşaqlıq illəri çıxmır yadımdan.

Gördüm atam çıxıb evin dalına,
Anam döyür gah dizinə, qoluna.
Qurban olum ata, ana adına,
Uşaqlıq illəri çıxmır yadımdan.

Sındım ürəyimdən, qol-qanadımdan,
Yanıb kül oluram hərdən odumdan.
Heç doymadım uşaqlığın dadından,
Uşaqlıq illəri çıxmır yadımdan.

Bəxtimizin ayağını kim qazdı?
O növrağı, o çağları kim pozdu?
Nə qədər yazsam da yenə də azdı,
Uşaqlıq illəri çıxmır yadımdan.

Qaçqın düşdük, düşmənimiz bic oldu,
Kəndimizə gedəmmədim, gec oldu,
Heç bilmədim o uşaqlar necoldu?
Uşaqlıq illəri çıxmır yadımdan.

Elə bilmə yaddan çıxdı gicitkan?
Keçiqıran, qıjı, ya danaqıran.
Mərmərik, qızqızək, qora, dağdağan,
Uşaqlıq illəri çıxmır yadımdan.

Özgə aləm idi qoyunqulağı,
Qazayağı, yemlik, dəvəqulağı.
Xəzəz, çaşır, çiriş, quzuqulağı,
Uşaqlıq illəri çıxmır yadımdan.

Yaddan neçə çıxsın o xatirələr,
Qonaqlara atam açan süfrələr.
O dərələr, o təpələr, pöhrələr
Uşaqlıq illəri çıxmır yadımdan.

Görməyənlər dediyimi nə bilər?
Yəqin ürəyində mənə hey gülər.
Heç bilmədim necə keçdi o günlər,
Uşaqlıq illəri çıxmır yadımdan.

**22.03.2021**

## Allahın dilində danışıram mən

(Nədəndi şeirlərinizi dinləməkdən adam doymur? Bunun sirri nədir?)

Bilirsənmi sözüm niyə xoş gəlir?
Allahın dilində danışıram mən.
Mənim də bəxtimə belə gün düşüb,
Allahın dilində danışıram mən.

Soyu olan kökü, soyu unutmaz,
Udduğu havanı, suyu unutmaz.
Mən yazanlar batmaz, nə də su udmaz,
Allahın dilində danışıram mən.

Çox adam var dedikləri saxtadı,
Damarında axan qanı laxtadı.
Allahsızlar adam deyil, taxtadı,
Allahın dilində danışıram mən.

Hər çəmənin öz çiçəyi, gülü var,
Hər adamın oz obası, eli var.
Adam var ki, min bir cürə dili var,
Allahın dilində danışıram mən.

Özümü biləndən əhd eyləmişəm,
Dediyim sözləri qənd eyləmişəm.

Allahsız kəsləri dərd eyləmişəm,
Allahın dilində danışıram mən.

Bərəm də Allahdı, bəndərgahım da,
Seyrim də Allahdı, seyrəngahım da.
Qibləm də Allahdı, qibləgahım da,
Allahın dilində danışıram mən.

Dinəndə çoxları dodaq büzdülər,
Şirin-şəkər sözümdən də küsdülər.
Gözlərimi kor etmədi tüstülər,
Allahın dilində danışıram mən.

Tanrıya sarıyam, haqqa sarıyam,
Haqqa yanmağımdan belə yarıyam.
Hər çəməndən bal toplayan arıyam,
Allahın dilində danışıram mən.

Yamaclardan, dolaylardan öyrəndim,
Ömür boyu ustadlardan öyrəndim,
Şəhriyardan, Bəxtiyardan öyrəndim,
Allahın dilində danışıram mən.

**29.08.2021**

## Apara bilmədim anamı kəndə

İndi də yüz dəfə ölürəm gündə,
Apara bilmədim anamı kəndə.
Hər dəfə bir cürə yalan uydurdum,
Apara bilmədim anamı kəndə.

Hərdən inciyərdi, küsərdi məndən,
Kəndi soruşardı gəlib-gedəndən.
Kiprikləri qurumadı gələndən,
Apara bilmədim anamı kəndə.

Bir adama etibarım qalmadı,
Çox üşüdüm, növbaharım olmadı.
Əlimdə bir ixtiyarım olmadı,
Apara bilmədim anamı kəndə.

İçimdən ağladım, içdən qanadım,
Qırıldı dibindən qolum, qanadım,
Qaldı ürəyimdə neçə muradım,
Apara bilmədim anamı kəndə.

Quş olub yurdlara uça bilmədim,
Taleyin hökmündən qaça bilmədim.
Bağlı qapıları aça bilmədim,
Apara bilmədim anamı kəndə.

Nə çəkdim hamısın çəkdim içimdə,
Keçdi fəsillərim naşı həkimdə.
Ömürlük yük kimi qaldı çiynimdə,
Apara bilmədim anamı kəndə.

Yol tapa bilmədim, dirəndi dalan,
Sıxdı gözlərini yer, göy, asiman.
Vətən deyə-deyə köçdü dünyadan,
Apara bilmədim anamı kəndə.

,

## Qubadlı

Aranı bir aləm, dağı bir aləm,
Özgə bir mahaldı, eldi Qubadlı.
Sirli möcüzədi başdan ayağa,
Özgə bir mahaldı, eldi Qubadlı.

Haqlı, haqsız bir dəfə də deyinməz,
İgidləri, qoçaqları öyünməz.
Hardan alıb bu sehiri bilinməz,
Özgə bir mahaldı, eldi Qubadlı.

Canını eyləyər dostuna fəda,
Sözünü heç vədə deməz daldada.
Nəbinin, Həcərin izləri burda,
Özgə bir mahaldı, eldi Qubadlı.

Yağıların qəddarıdır əzəldən,
Belə qoyulubdu himi təməldən.
Zəngəzurun açarıdır əzəldən,
Özgə bir mahaldı, eldi Qubadlı.

Diz çökdürüb neçə bəzirganları,
Ad qazanıb neçə pəhləvanları.
Bir deyil, beş deyil qəhrəmanları,
Özgə bir mahaldı, eldi Qubadlı.

Zirvədə qıy vuran küləklər deyir,
Çəməndə çiçəklər, ləçəklər deyir.
Bunu mən demirəm, mələklər deyir,
Özgə bir mahaldı, eldi Qubadlı.

Tamam bambaşqadı xeyiri, şəri,
Toyları həmişə dillər əzbəri.
Əyər yeri igidlərin ləngəri,
Özgə bir mahaldı, eldi Qubadlı.

Meydan var  yazmağa qəzəlxan üçün,
Meydan var verməyə imtahan üçün.
Sirli bir kitabdı oxuyan üçün,
Özgə bir mahaldı, eldi Qubadlı.

Atası Mir Sədi, oğlu Məhəmməd,
Hər ikisi haqqa dərindən bələd.
Hardan bilsin mən deyəni nabələd,
Özgə bir mahaldı, eldi Qubadlı.
Özgə bir mahaldı, eldi Qubadlı.

**25.10.2021**

## Görmədim

Bu dünyanı qarış-qarış dolandım,
Başarat[23] kəndindən vallah görmədim.
Əliyi, kəkliyi dillər əzbəri,
Başarat kəndindən vallah görmədim.

Dərmandı pendiri, balı, qaymağı,
Tut arağı, bir də zoğal arağı.
Unutmaq olarmı Böyük bulağı?
Başarat kəndindən vallah görmədim.

Hər oğlu Nəbidir, hər qızı Həcər,
Ağsaqqalı, ağbirçəyi peyğəmbər.
Çətin gələ İnqilabtək cəngavər,
Başarat kəndindən vallah görmədim.

Ömür boyu başımıza olub tac,
Əmən dağı, Yalyurd, Dağyurd, Topağac[24].
Bizə gəl-gəl deyir hər yal, hər yamac,
Başarat kəndindən vallah görmədim.

---

**23** Müəllifin doğulduğu kəndin adıdır.
24 Əmən dağı, Yalyurd, Dağyurd, Topağac Qubadlı rayonunda dağ adlarıdır.

İnsanları dost olana çox həssas,
Qalar nəsillərə ən gözəl miras.
Mərdlik simvoludur İngilis Abbas,
Başarat kəndindən vallah görmədim.

Şöhrəti sığışmaz min bir kitaba,
Tarixi qədimdi, gəlməz hesaba.
Mən deyəni təsdiq edər el, oba,
Başarat kəndindən vallah görmədim.

**04.11.2021**

## Çağırır

Vaxtını de, vədəni de, ay şair,
Bizim dağlar sizi mehman çağırır.
Yəqin yaddan çıxmaz bizim o yerlər,
Bizim dağlar sizi mehman çağırır.

Zirvədə saçını küləklər öpər,
Güllər sığal çəkər, çiçəklər öpər.
Gəlib görüşünə mələklər öpər,
Bizim dağlar sizi mehman çağırır.

Həkəri, Bərgüşad bağrına basar,
Şəninə nəğmələr, mahnılar qoşar.
Bu görüş tarixdə əbədi qalar,
Bizim dağlar sizi mehman çağırır.

Tənha qalmış ruhda canı görərsən,
Qarış-qarış bu cahanı görərsən.
Zəngızurun hər bir yanın görərsən,
Bizim dağlar sizi mehman çağırır.

Bizim dağlar qocalardan qocadı,
Zirvələri ucalardan ucadı.
Hocaları hocaladan bac aldı,
Bizim dağlar sizi mehman çağırır.

## Xoşum gəlir

Gözəli sevmək bir bəla,
Sevməmək ondan da bəla.
Düşməyin özgə xəyala,
Nağıllardan xoşum gəlir.

Fəlsəfənin kökü dərin,
Dərinləri duymaz "dərin".
Möcüzəli, sirli, şirin,
Nağıllardan xoşum gəlir.

Sehirdi dünyanın işi,
Mat qalıb, çaşıb Xankişi.
Nağıllarda çoxdu kişi,
Nağıllardan xoşum gəlir.

## Gəlməsin gözə gözəllər

Allah bizə çox görməsin,
Gəlməsin gözə gözəllər.
Hicran nədir, bilməsinlər,
Gəlməsin gözə gözəllər.

Allah olsun qoy pənahı,
Bağlar olsun seyrəngahı.
Olsa da səhvi, günahı,
Gəlməsin gözə gözəllər.

Hər bərənin öz bəndi var,
Hər igidin öz fəndi var.
Gözəllərin öz dərdi var,
Gəlməsin gözə gözəllər.

Ulduzlar göydə gözəldir,
Ruhlar bədəndə gözəldir.
Gözəl hər yerdə gözəldir,
Gəlməsin gözə gözəllər.

Gözəllərə baxt dilərəm,
Bir Allahdan taxt dilərəm.
Xankişiyəm vaxt dilərəm,
Gəlməsin gözə gözəllər.

**29.06.2023**

## Bəxtim hələ açılmır ki, açılmır

Demişəm, yüzəcən gözləyəcəyəm,
Bəxtim hələ açılmır ki, açılmır.
Əslndə tilsimin sirrin bilirəm,
Bəxtim hələ açılmır ki, açılmır.

Təəssüf olsun ki, həqiqət acı,
Yalanlar başına qoyurlar tacı.
Çətin ki, tapıla bunun əlacı,
Bəxtim hələ açılmır ki, açılmır.

Bəxtimi açmağa dərman gəzirəm,
Dərmanı yazmağa loğman gəzirəm.
Sözümü deməyə meydan gəzirəm,
Bəxtim hələ açılmır ki, açılmır.

Çox hündürdü, çox qalındı bu hasar,
Hər kəs bu hasarda bir qıfıl asar.
Açsa qıfılları, bir nəfər açar,
Bəxtim hələ açılmır ki, açılmır.

## Mənim dilim kimi dil ola bilməz

Bu gün dünyanın hər yanında Qarabağdan, igidlərimi-zin qəhrəmanlıqlarından, cənab ali baş komandanımızın şücaətindən danışırlar. Qələbələrimiz, qalibiyyətlərimiz, uğurlarımız bol olsun, zəfərlərimiz davamlı olsun inşəallah!

Əslində Qarabağda qazandığımız Zəfər bizim inamımızın, imanımızın, dinimizin və dilimizin zəfəridir. Çünki igidlərimizə, ərənlərimizə, qəhrəmanlarımıza verilən göstərişlər də, tapşırıqlar da, əmrlər də hər biri ana dilimizdə - Azərbaycan dilində verilib. Bu dildən ilham alıb, igidlərimiz bənzəri olmayan qəhrəmanlıqlar göstəriblər, qələbələr qazanıblar, uğur qazanıblar, zəfər çalıblar, azğın düşmənlərin yerini göstərib dərs veriblər. Dünyanın əsrlər boyu edə bilmədiklərini qırx beş gündə ediblər bizim igidlər. Azərbaycan dilindən qüvvət alıb, Giziroğlu Mustafabəy kimi "Hay deyəndə haya basıb, huy deyəndə huya basıb, çörəyimizi yeyib, suyumuzu içib bizə nankorluq eliyən neçə-neçə qansız düşmənləri suya basıblar" bizim qəhrəman igidlərimiz! Budur bizm dilimizin gücü, qüvvəti, sehri.

Çünki bu dil Ulu Türkün dilidir! Çünki bu dil
Dədə Qorqudun dilidir!

Çünki bu dil Mustafa Kamal Atatürkün dilidir!
Çünki bu dil Ulu Öndərimiz Heydər
Əliyevin dilidir!
Çünki bu dil böyük qardaşımız Rəcəb Təyyib
Ərdoğanın dilidir!
Çünki bu dil qəhrəman sərəskərimiz İlham
Əliyevin dilidir!
Çünki bu dil Mehribanlıq dağının zirvəsində
bardaş qurub əbədi əyləşmiş Mehriban
xanımın dilidir! Çünki bu dil Şəhriyarın,
Bəxtiyarın, Məmməd Arazın dilidir! Çünki bu
dil Xankişi Bəxtiyarın dilidir!
VAR OLSUN TÜRK ELİMİZ!
VAR OLSUN SƏRKƏRDƏLƏRİMİZ!
VAR OLSUN İGİDLƏRİMİZ!
VAR OLSUN ANA DİLİMİZ!

Bu dünyanı oymaq-oymaq dolandım,
Mənim dilim kimi dil ola bilməz.
Qurban olum babaların ruhuna,
Mənim dilim kimi dil ola bilməz.

Gəzdim neçə-neçə binələr binələr
Bol gördüm hər yerdə dolu sinələr.
Məni ovsunladı baba, nənələr,
Mənim dilim kimi dil ola bilməz.

Dağların başında küləklər deyir,
Qartallar danışır, çiçəklər deyir,
Bunu mən demirəm, mələklər deyir,
Mənim dilim kimi dil ola bilməz.

Çox qədimdir, əzəlidir dillərin,
Yerdə, göydə qəzəlidir dillərin,
Gözəllərin gözəlidir dillərin,
Mənim dilim kimi dil ola bilməz.

Düşmənə nizədi, dosta incədi,
Başa düşməyənə zülmət gecədi.
Mənim dilim Qarabağdı, Göyçədi,
Mənim dilim kimi dil ola bilməz.

**Nəyimə lazımdı** fəlsəfə yazım

Çoxları deyir ki, sadə yazırsan,
Nəyimə lazımdı fəlsəfə yazım.
Mən yazıram sadə insanlar üçün,
Nəyimə lazımdı fəlsəfə yazım.

Keçmişimdən, keçən çağdan yazıram,
Bağçada gülümdən, bağdan yazıram,
Mən dağlar oğluyam, dağdan yazıram,
Nəyimə lazımdı fəlsəfə yazım.

Elə bilmə zəif, ya da acizəm,
Lazım gəlsə, qəlizdən də qəlizəm.
Sahili olmayan sirli dənizəm,
Nəyimə lazımdı fəlsəfə yazım.

Tüstüsü düz çıxan sönməz sobayam,
Duyanlara çörək, dərman – davayam.
Mən söz ustasıyam, şair babayam,
Nəyimə lazımdı fəlsəfə yazım.

Elə yazaram ki, açmaz bir açar,
Yüz aqil yığışsa, qalar çar – naçar.
Fəlsəfəni filosoflar açsınlar,
Nəyimə lazımdı fəlsəfə yazım.

## Anamı yüz dəfə aldadıram mən

Dünyanın işlər elə gətirib ki, çox adamlar bir-birini aldatmağa çalışır. Hərdən düşünürəm ki, yaxşı mən kimdən əskiyəm?

Heç kimi aldada bilməsəm də mən,
Anamı yüz dəfə aldadıram mən.
Hələ bu yaşımda danlayan da,
Hər bir kəlməsindən bal dadıram mən.
Anamı yüz dəfə aldadıram mən.

Ömründən ömrümə, ömür pay verən,
Gecələr yatmayıb mənə çay verən.
Dar gündə hamıdan qabaq hay verən,
Anamı yüz dəfə aldadıram mən.

Ömür boyu mənə mərdlik öyrədən,
Ömür boyu mənə türklük öyrədən,
Ömür boyu mənə düzlük öyrədən,
Anamı yüz dəfə aldadıram mən.

Elə hey deyirəm kənd qayıdacaq,
Elə hey deyirəm yurd qayıdacaq,
Elə hey deyirəm su durulacaq,
Anamı yüz dəfə aldadıram mən.

Adam da balasın aldadarmı heç,
Adam da sonasın aldadarmı heç,
Adam da anasın aldadarmı heç,
Anamı yüz dəfə aldadıram mən.

Çəkməynən bir daha başa sən məni,
Çəkmə bərkə, çəkmə boşa sən məni.
Qadir Allah döndər daşa sən məni,
Bir daha anamı aldatmıyım mən.

Allah analarımıza qıymasın, dünyasını dəyişənlərə də min rəhmət olsun! Onu da deyim ki, yazdığım şeirlərin çoxunun mövzusunu anamdan götürmüşəm.

## Sizcə halım necə olar eloğlu?

Alınıb el-obam yağıdan mənim,
Sizcə halım necə olar eloğlu?
Allaha min şükür, daha dərdim yox,
Sizcə halım necə olar eloğlu?

Yenə də saçımı küləklər öpür,
Üzümdən, gözümdən mələklər öpür.
Kəkliklər göz vurur, əliklər öpür,
Sizcə halım necə olar eloğlu?

Heç nə çata bilməz ləzzətimiə, dadıma,
Yenə də yazıldı dağlar adıma.
Uşaqlığım gəlib düşdü yadıma,
Sizcə halım necə olar eloğlu?

Göyçə həm mənimdi, həm mənim deyil,
Laçın qayıdan gün qəm mənim deyil.
Şuşa alınandan bəm mənim deyil,
Sizcə halım necə olar eloğlu?

İgidlərim düşmənlərdən bac aldı,
Nə varsa onlara, vallah halaldı.
Xankəndində bayrağımız ucaldı,
Sizcə halım necə olar eloğlu?

Ömrün qışı keçdi, yenə yay oldu,
Sevincdən göz yaşım dönüb çay oldu.
Xankişi Bəxtiyar axır bay oldu,
Sizcə halım necə olar eloğlu?

**05.11.2020**

## Gülüm

Bilmirəm hüsnünün adın nə qoyum?
Dağa təzə yağmış qarmısan, gülüm?
Sevən dodaq soyuq olmaz, bilirəm,
Nədən qızarmısan, pörtmüsən, gülüm?

Sevəcəyəm nə qədər ki, nəfəs var,
Bilsəm ayrılıq var, bilsəm qəfəs var.
Bu qədər ki, səndə belə həvəs var,
Leylini, Əslini ötmüsən, gülüm.

Üzüm dənizində, axım doyunca,
Düşməni yandırım, yaxım doyunca.
Tök zülfü sinənə, baxım doyunca,
Niyə camalını örtmüsən, gülüm?

## Maşallah

Çoxdandı səni görmürdüm,
Maşallah, cavan qalmısan.
Kim verər sənə bu yaşı?
Maşallah cavan qalmısan.

Yanılmaram hələm–hələm,
Ay dodağı qönçəm, laləm.
Min gözələ dəyişmərəm,
Maşallah cavan qalmısan.

Qaş yerində, göz yerində,
Xallar da ki, öz yerində,
Qəmzə, işvə, naz yerində,
Maşallah cavan qalmısan.

Görməmişəm belə canı,
Min naz ilə can alanı.
Xankişi sevməz yalanı,
Maşallah cavan qalmısan.

**Varmı**

Qızlar bulağından su içən gözəl,
Özünün özündən xəbərin varmı?
Bizim küçəmizdən düz keçən gözəl,
Özünün özündən xəbərin varmı?

Oxşayırsan gül üstündə arıya,
Səni görən çətin sənsiz yarıya.
And verirəm səni ulu Tanrıya,
Özünün özündən xəbərin varmı?

Niyə belə düşmən kimi süzürsən,
Niyə öldürürsən, niyə üzürsən?
Mən dözmürəm, bəs sən necə dözürsən?
Özünün özündən xəbərin varmı?

Demirəm ki, naz olmasın, qoy olsun,
Amma ki bir az da bizə pay olsun.
Görüm sənə tezliyinən toy olsun,
Özünün özündən xəbərin varmı?

Gəzib dolanmışam dünyanı az-maz,
Nə gizlədim, görməmişəm belə naz.
Səni duya bilməz ağıldan dayaz,
Özünün özündən xəbərin varmı?

Xankişi ölüncə səni sevəcək,
Lazım gəlsə, lap ölümə gedəcək.
Hələ çox adamlar sənə deyəcək,
Özünün özündən xəbərin varmı?

## Gözəldi

Bir gün bir məclisdə iştirak edirdim. Burada çoxlu balaca qızlar var idi. Lalələr düzə yaraşıq verən kimi bu qızlar da məclisə xüsusi bir gözəllik verirdi. Bu mənzərəyə baxmağa bəlkə də min göz azlıq edirdi. Bir nəfər mənə yaxınlaşıb soruşdu ki, ay Xankişi müəllim, bu qızların görən hansı gözəldi? Elə oradaca bu şeiri yazdım.

Qızların içində pis ola bilməz,
Qızların hamısı vallah, gözəldi.
Gözəli görməyə gözəl göz gərək,
Qızların hamısı vallah, gözəldi.

Üzdə təbəssümə, üzdə xala bax,
Dodaqdan süzülən qəndə, bala bax.
Nə gözəl yaraşır, belə zala bax
Qızların hamısı vallah, gözəldi.

Yalan desəm mənə sayılar ayıb,
Haqqı söyləməsəm, yazarlar qayıb.
Qızlar Aydan, qızlar nurdan yaranıb,
Qızların hamısı vallah, gözəldi.

Qızlar tükənməyən sərvətdi, vardı,
Ataya , anaya o bir dayaqdı.

Nə fərqi, qaradı, ya da ki, ağdı,
Qızların hamısı vallah, gözəldi.

Qızlar evin çırağıdı, şamıdı,
Süfrəmizin ləzzətidi, tamıdı.
Mənim deyil, bu, Allah kəlamıdı,
Qızların hamısı vallah, gözəldi.

Əl çatmazdı, haqq-hesaba sığışmaz,
Min suala, min cavaba sığışmaz.
Tərif desək min kitaba sığışmaz,
Qızların hamısı vallah, gözəldi

## Gözəli öldürmək olmaz gözəl qız

Bir gözəl deyir ki, məni vur öldür,
Gözəli öldürmək olmaz gözəl qız.
Quşlar daşa basar, daşlar qınayar,
Gözəli öldürmək olmaz gözəl qız.

Özgə bir aləmdi, qəzəli sevmək,
Çəməni, çiçəyi, xəzəli sevmək.
Amma ən gözəli, gözəli sevmək,
Gözəli öldürmək olmaz gözəl qız.

Sevəndə sonacan sevəsən gərək,
Gözəlin qəmini böləsən gərək.
Hər işin yöndəmin biləsən gərək,
Gözəli öldürmək olmaz gözəl qız.

Çəkmə məni cinayətə haqq-nahaq,
Dost dostuna gərək olsun göz-qulaq.
Bu işə bir yolluq gəl nöqtə qoyaq,
Gözəli öldürmək olmaz gözəl qız.

Zirvələr çiskinsiz, dumansız deyil,
Bu dünya zalımsız, yamansız deyil,
Xankişi  insafsız, imansız  deyil,
Gözəli öldürmək olmaz gözəl qız.

**20.04.2023**

## Gözəl olur

Gözəllər çıxanda çəmən seyrinə,
Çəmən daha gözəl, gül gözəl olur.
Badi-səba darayanda yar telin,
Bölük-bölük olan tel gözəl olur.

Bağ-bağça tanınar şirin barıynan,
Məclislər tanınar kaman, tarıynan.
Yar gəzəndə yar bağını yarıynan,
Cığır gözəl olur, yol gözəl olur.

Baxanda göylərdən şəmsinən qəmər,
Görənlərin üz-gözünə gülümsər.
Sevsə kəməri bel, beli də kəmər,
Kəmər gözəl olur, bel gözəl olur.

Ay Xankişi, olsan əgər xeyirxah,
Yaşarsan qəlblərdə bil, ömürbillah.
Ruhunda yaşasa o böyük Allah,
Dodaq gözəl olur, dil gözəl olur.

**Bilmirəm "bəli"yəm, bilmirəm dəli**

(Hamı mənə çöldə "bəli" deyir, evdə isə "dəli")

Baş aça bilmirəm mən bu zamandan,
Bilmirəm "bəli"yəm, bilmirəm dəli.
Çöldə "bəli", evdə dəli deyirlər,
Bilmirəm "bəli"yəm, bilmirəm dəli.

Olsam da dünyanın tən parasında,
Almadım haqqımın heç parasın da,
İndi də qalmışam daş arasında,
Bilmirəm "bəli"yəm, bilmirəm dəli.

Donmuşam şaxtanın, qışın içində,
İtmişəm torpağın, daşın içində.
Bir şey qalmayıbdı başın içində,
Bilmirəm "bəli"yəm, bilmirəm dəli.

İmanım bir, məsləkim bir, dinim bir,
Həvəsim yox danışım bir, dinim bir.
Bir arzum var, o yurdlara dönüm bir,
Bilmirəm "bəli"yəm, bilmirəm dəli.

Nadanlar dərs verir şirə, aslana,
Başda baş qalmayıb, dönüb qazana.
Mələklər gözümdə dönüb şeytana,
Bilmirəm "bəli"yəm, bilmirəm dəli.

Dəyişibdi ağalar da, nökər də,
Yazıq dünya dağılar da, çökər də.
İnsaf yoxdu nə göylərdə, nə yerdə,
Bilmirəm "bəli"yəm, bilmirəm dəli.

**05.06.2022**

**Məni də yada sal hərdən eloğlu**

Ayağın düşəndə bizim ellərə,
Məni də yada sal hərdən eloğlu.
Çəmənin şehinə batdığın zaman,
Məni də yada sal hərdən eloğlu.

Göy üzündə ildırımlar çaxanda,
Sellər, sular şaqqıldayıb axanda,
Qızlar ona səf bağlıyıb baxanda,
Məni də yada sal hərdən eloğlu.

Kəkliklərin qaqqıldaşıb uçanda,
Kol dibindən dovşan hürküb qaçanda,
Süd bənövşə, qan bənövşə açanda,
Məni də yada sal hərdən eloğlu.

Laləni, nərgizi dərdiyin zaman,
Dağın zirvəsinə çıxdığın zaman,
Əliyi bərədə vurduğun zaman,
Məni də yada sal hərdən eloğlu.

Səhər tezdən obaşdandan duranda,
Qaymaqdan, çiyədən yeyib doyanda,
Tutdan çəkdiyindən dostlar vuranda,
Məni də yada sal hərdən eloğlu.

Dumanda, çiskində azanda yolu,
Döyəndə başına qar, yağış, dolu,
Üstünü cıranda böyürtkan kolu,
Məni də yada sal hərdən eloğlu.

Düşəndə çovğuna, borana selə,
Görsən ki, düşübdü tələyə dələ,
Aç burax sən onu mənim xətrimə,
Məni də yada sal hərdən eloğlu.

Dadlı olur bizim yerin yarpızı,
Şamaması, boranısı, qarpızı,
Ağaclardan yığan zaman saqqızı,
Məni də yada sal hərdən eloğlu.

Yığanda baldırğan, qoyunqulağı,
Qazayağı, yemlik, dəvəqulağı,
Duzduyub yeyəndə quzuqulağı,
Məni də yada sal hərdən eloğlu.

Məclislər quranda bulaq başında,
Çəməndə yatanda papaq başında.
Gecə uzananda çardaq başında,
Məni də yada sal hərdən eloğlu.

Elə bilmə yaddan çıxdı gicirtkan,
Keçiqıran, qıjı, ya danaqıran,

Nə də dilqanadan, gəlinaldadan,
Məni də yada sal hərdən eloğlu.

Gələn birdir, gedən birdir, qalan bir,
Gələn qalmaz, gedən gəlməz, əcəb sirr.
Qərib olan bilir qərib nə çəkir,
Məni də yada sal hərdən eloğlu.

Çaşırı dəstələ, qatbaqat elə,
Payı paya qatma, adbaad elə.
Xankişinin payın sən babat elə,
Məni də yada sal hərdən eloğlu.

**Mələklərdə günah olmur gözəl qız**

Nə özün eləsən, nə də ki dilin,
Mələklərdə günah olmur gözəl qız.
Bu söz uşaqlıqdan qalıb yadımda,
Mələklərdə günah olmur gözəl qız.

Yazınkı çiçəkdi, qışınkı da qar,
Bunu mən demirəm, deyib babalar.
Bu kəlam da məndən qalsın yadigar,
Mələklərdə günah olmur gözəl qız.

Söz var çox ucuzdu, söz var çox baha,
Ucuz söz danışan batar günaha.
And içirəm o göydəki Allaha,
Mələklərdə günah olmur gözəl qız.

## Gözəllər bir yerdə nə gözəl olur

Duya bilməz mən duyanı hər bəndə,
Gözəllər bir yerdə nə gözəl olur.
Həyat duru, haqqın nuru görünür,
Gözəllər bir yerdə nə gözəl olur.

Gözəl olar gözəllərin ədası,
Sevməmək olarmı, deyın, qadası.
Allah qanunudur, Allah qaydası,
Gözəllər bir yerdə nə gözəl olur.

Dərə gözəl, təpə gözəl, düz gözəl,
Düzlərdəki qəmzə gözəl, naz gözəl,
Baxış gözəl, duruş gözəl, qız gözəl,
Gözəllər bir yerdə nə gözəl olur.

Zirvələrdə çiskinə bax, qara bax,
Gözəllərin saçlarını dara, bax.
Qarabağ Şuşadır, Şuşa Qarabağ,
Gözəllər bir yerdə nə gözəl olur.

Bir qaydadır, gözəllərdə naz gərək,
Ay Xankişi, gözəllərdən yaz görək.
Gözəlliyi görmək üçün göz gərək,
Gözəllər bir yerdə nə gözəl olur.

**21.12.2020**

## Darıxdım

Qərib olan gündən yüküm qəm oldu,
Yuxularım tamam qaçdı, darıxdım.
Kipriklərim gecə-gündüz nəm oldu,
Xəyal o yerlərə uçdu, darıxdım.

Xatırladım Təbriz, Göyçə, Dərbəndi,
Yad elədim igidləri, mən mərdi.
Ömür boyu çəkdim oba, el dərdi,
Dözmədi ürəyim, sancdı, darıxdım.

Bir özgə yer axtarmazdıq qıraqda,
Yay gələndə yaylayardıq yaylaqda.
Axşam, səhər qırılardıq sazaqda,
Bakıda ürəyim bişdi, darıxdım.

Kövrəkdən kövrəkdi hər saat, hər an.
Xankişi neyləsin, bəd gəldi dövran.
Məndən inciməsin Şirvan, Mil, Muğan,
Qarabağ yadıma düşdü, darıxdım.

## Sevdasındayam

Təzə-təzə gəlir hələ həvəsim,
Yaşayıb yaratmaq sevdasındayam.
Əməndağdan, Topağacdan, Şişyurddan[25],
Yaşayıb yaratmaq sevdasındayam.

Həkəridə çayda qalan tilovdan,
Çayzəmidən, Yamacyurddan[26], Murovdan,
Vədəsiz Dağyurda düşən qırovdan,
Yaşayıb yaratmaq sevdasındayam.

Əliyardan, həm Şükürdən, Aslandan[27],
Aslanların doğulduğu məkandan,
Neçə-neçə təbiblərdən, loğmandan,
Yaşayıb yaratmaq sevdasındayam.

Qıratıma təzə yəhər almışam,
Düşmənə verməyə zəhər almışam,
Təzə qələm, təzə dəftər almışam,
Yaşayıb yaratmaq sevdasındayam.

---

[25] Əməndağı, Topağac, Şişyurd Qubadlı rayonunda dağ adlarıdır.
[26] Çayzəmi, Yamacyurd, Dağyurd Qubadlı rayonunda yer adlarıdır.
[27] Əliyar, Şükür, Aslan Azərbaycanın Milli Qəhrəmanlarıdır.

## Allah götürməz

Yeddi il çəkibdi Qərib qəriblik,
Mənim qəribliyim otuz il çəkdi.
Axı səbəb nədir, niyə, nədəndir
Qürbət çəkənlərin ömrü gödəkdi.

Deyirlər qəflətən ölmür qəriblər,
Niyyət eləmişəm, qəflətən ölüm.
Olacaq var, dönəcək var, dönüm var,
Gedib kəndimizdə bir daşa dönüm.

Qırıldı həsrətin beli, sütunu,
Çıxıb Topağacdan, hay verəcəyəm.
Süfrə açıb, quzu kəsib, bal kəsib,
Əhdim var, dostlara pay verəcəyəm.

İstəmirəm burda qalam, yaşayam,
Yer də, göy də, heçdi mənim gözümdə.
Heç olmasa gedib orda saflaşım,
Allah haqqı, daha yoxdu dözüm də.

Dünyada nə qədər dağ var, dərə var,
"Dağ yurd"un yerini heç biri verməz.
"Qərib" sözü silinsin qoy lüğətdən,
Bu qədər zülümü Allah götürməz.

## Onda o Göyçəli deyil, qardaşım

Bir dəfə bir məclisdə şeir deyirdim. Hiss etdim ki, bir nəfərin xoşu gəlmir. Maraqlandım, dedilər ki, həmin oğlan Göyçəlidir. Dedim ki, ola bilməz, əgər o, mən deyən şeiri bəyənmirsə, deməli, o, Göyçəli deyil. Bu şeir o zaman yarandı.

Əgər bəyənmirsə Göyçəli məni,
Onda o Göyçəli deyil, qardaşım.
Sevmirsə dağları, dumanı, çəni,
Onda o Göyçəli deyil, qardaşım.

Şeirə, sənətə diqqət etmirsə,
Aşıq oxuyanda ləzzət etmirsə,
Əgər sənətkara hörmət etmirsə,
Onda o Göyçəli deyil, qardaşım.

Yazdan danışmırsa, sazı sevmirsə,
Haqqı danışmırsa, düzü demirsə,
Dardan asılsa da sözün demirsə,
Onda o Göyçəli deyil, qardaşım.

Ağa ağ demirsə, qara deyirsə,
Yurdu satanlara "ura" deyirsə,
Sözü yerində yox, sonra deyirsə,
Onda o Göyçəli deyil, qardaşım.

Fağırı, yazığı əgər əzirsə,
Yaxşını görəndə dodaq büzürsə,
Əgər Xankişidə nöqsan gəzirsə,
Onda o Göyçəli deyil, qardaşım

## Məmməd Aslan kimi danışmaq olmaz

(Həmişə mənə deyirlər ki, Məmməd Aslan kimi danışıram)

Qardaş, qurban olum, məni çox öymə,-
Məmməd Aslan kimi danışmaq olmaz.
O elə bağçadı, elə bir bağdı,
Heç vədə saralmaz, heç vədə solmaz,
Məmməd Aslan kimi danışmaq olmaz.

Məmməd Aslan möcüzədi, sirdi, sirr,
Söz  mülkündə yeganədi, birdi, bir.
Məmməd Aslan mənim üçün pirdi, pir,
Könlüm hər yetənə meylini salmaz,
Məmməd Aslan kimi danışmaq olmaz.

Bütün kəlmələri yazılıb zərlə,
Bütün ilmələri vurulub vərlə,
O böyük bir dərya, mən isə zərrə,
Su tökməklə quyu heç vədə dolmaz,-
Məmməd Aslan kimi danışmaq olmaz.

Açılar, inşallah, günahlar, qardaş,
Gün gələr, çağ olar damağlar, qardaş.
Açılar, Göyçəli sabahlar qardaş,
Bu dünya yəqin ki, çox belə qalmaz,
Məmməd Aslan kimi danışmaq olmaz.

## Ay Allah

Yağışsız buludam, qarım yoxumdu,
Budanmış ağacam, barım yoxumdu,
Qanadsız qartalam, karım yoxumdu,
Arzumu gözümdə qoyma ay Allah,
Vədəsiz sən mənə qıyma ay Allah!

Tüstüsüz yandırma məni kül etmə,
Əymə gözəlləri, vaxtsız dul etmə.
Aqilləri nadanlara qul etmə,
Arzumu gözümdə qoyma ay Allah,
Vədəsiz sən mənə qıyma ay Allah!

Ürəyimə zirvə düşüb , yal düşüb,
Qabıqdakı, səbətdəki bal düşüb,
Ürəyimə dağdan böyük xal düşüb,
Arzumu gözümdə qoyma ay Allah,
Vədəsiz sən mənə qıyma ay Allah!

Yarımçıq qafiyəm, mövzum var hələ,
Ürəyimdə neçə arzum var hələ,
Evimizdə bir cüt quzum var hələ,
Arzumu gözümdə qoyma ay Allah,
Vədəsiz sən mənə qıyma ay Allah!

## Xoşlamıram

Mərd olan mərdə tuş olsun,
Allaha da qoy xoş olsun.
Yay yay olsun, qış qış olsun,
Baharda qış xoşlamıram.

Bəxt əyilsin, iş yaş olsun,
Eybi yoxdu, yol daş olsun,
Qardaş olsun, yoldaş olsun,
Baş olsa boş, xoşlamıram.

Dağlarda qoşun yeri var,
Zirvədə quşun yeri var.
Ətəkdə daşın yeri var,
Sinədə daş, xoşlamıram.

## Söz tutubdu

Bərkə, boşa düşəndə,
Əlimdən söz tutubdu.
İçimin içi yanır,
Məni bir söz tutubdu.

Sevdiyin mələk tutar,
Dərd çəksən, ürək tutar,
Adamı çörək tutar,
Məni də söz tutubdu.

Ox batsın pis gözlərə,
Cilvələnsin düz, dərə.
Calaq vurdum sözlərə,
Bir-iki söz tutubdu.

**Qubanın da, Xaçmazın da**
**Musiqisi:** Abış Surxayoğlu

Əzəl gündən vurğunuyam,
Qubanın da, Xaçmazın da.
Şöhrətini yayanıyam,
Qubanın da, Xaçmazın da.

Qırmızı qəsəbə ləldi,
Tarixi qədim, əzəldi.
İnsanları çox gözəldi,
Qubanın da, Xaçmazın da.

Qəçreş bəzəkli gəlindi,
Havası, suyu təmizdi.
Var-dövləti çox zəngindi,
Qubanın da, Xaçmazın da.

Nabran kimi məkan hanı,
Tapmazsan, gəzsən dünyanı.
Bir cənnətdir, dörd bir yanı,
Qubanın da, Xaçmazın da.

Gül açsın fəsli-baharı,
Əskilməsin toy mağarı.
Xankişi olsun qonağı,
Qubanın da, Xaçmazın da.

## Ay başına dolandığım

Qərib elə gedən durna,
Saçlarını belə burma,
Dərdim oldu burma-burma,
Ay başına dolandığım.

Nadan səni duya bilməz,
Arif səndən doya bilməz,
Şeyda bülbül susar, gülməz,
Ay başına dolandığım.

Dözəmmədim intizara,
Könlüm oldu para-para,
Xəyal uçdu uzaqlara,
Ay başına dolandığım.

Sözlərin var xumar - xumar,
Hər birində bir məna var,
Arif olan qubarlanar,
Ay başına dolandığım.

Sevinc görən kimə düşdü,
Mənim bəxtim qəmə düşdü,
Sazım zildən bəmə düşdü,
Ay başına dolandığım.

## Şairlərlə oturun, durun

Olmaq istəsəniz Allaha yaxın,
Gedin, şairlərlə oturun, durun.
Yatmaq istəsəniz gecə arxayın,
Gedin, şairlərlə oturun, durun.

Günəş istəsəniz, ay  istəsəniz,
Allahdan bir qismət pay istəsəniz,
Kabab demirəm mən, çay istəsəniz,
Gedin, şairlərlə oturun, durun.

Demirəm şairlər Allahdı, pirdi,
Vardı onların da namərdi, mərdi.
Yenə də babatı vallah şairdi,
Gedin, şairlərlə oturun, durun.

## Gözəllər

Gəlin unutmayaq insafımızı,
Bəzisi deyir ki, yoxdu gözəllər.
Gözəli görməyə gözəl göz gərək,
Vallah qabaqkından çoxdu gözəllər.

Nə fərqi var, fağır, ya dəcəl olsun,
Qeyrəti, namusu mükəmməl olsun.
Təki ürəkləri qoy gözəl olsun,
Nə fərqi, qaradı, ağdı  gözəllər.

Otura bilmədi uca taxtında,
Belə yazılıbmış yəqin baxtında.
Yazıq Xankişinin qoca vaxtında,
Ömrünün sonuna çıxdı gözəllər

## Qızların

Bacımızdı, anamızdı,
Xətrinə dəymən qızların.
Cilvələnən sonamızdı,
Xətrinə dəymən qızların.

Qızlar günəş, qızlar aydı,
İlahidən bizə paydı.
Qızlar göldü, qızlar çaydı,
Xətrinə dəymən qızların.

Hörmət qoyub sevsən əgər,
Ruzunu tanrı göndərər.
Vallah, Allah üz döndərər,
Xətrinə dəymən qızların.

**Şeiri üzündən oxumaz adam**

Şairə, şeirə hörmət edərlər,
Şeiri üzündən oxumaz adam.
Adama gülərlər, lağ eləyərlər,
Şeiri üzündən oxumaz adam.

Xətrinə dəyməsin sözüm kimsənin,
Nə dostun, nə yadın, nə də özgənin.
Xoşu gəlməz yaradanın, bəndənin,
Şeiri üzündən oxumaz adam.

Xankişi söyləməz sözü hədərdən,
Hədərsiz bircə söz düşməz kəsərdən.
Lazımdı söyləmək sinədəftərdən,
Şeiri üzündən oxumaz adam.

## Bir vəfasız dosta

Dar gündə halımı soruşmayan dost,
Adını bir yolluq pozdum dəftərdən.
Səndən başqa hamı gəldi yanıma,
Bilirəm, xəbərin olub xəbərdən,
Adını biryolluq pozdum dəftərdən.

İstər soyuq dəysin, ya zökəm olsun,
Ürəyi ağrısın, ya vərəm olsun.
Eşitdim demisən, cəhənnəm olsun,
Doğrusu, pis oldum qəmdən, qəhərdən,
Adını biryolluq pozdum dəftərdən.

Mən sənin yolunda çox çəkdim cəfa,
Küsdüm neçəsindən, elədim dava.
Amma əvəzində görmədim vəfa,
Heç fərqin yoxumuş, daşdan, qənbərdən.
Adını biryolluq pozdum dəftərdən.

Xankişi Bəxtiyar sanma naşıdı,
Yaxşı oğulların can sirdaşıdı.
Sənin kimi dostdan bir yad yaxşıdı,
Qoy Allah qorusun məni nəzərdən.
Adını biryolluq pozdum dəftərdən.

## Oğulsansa

Dərdlərim var, dağ boydadı, hərəsi bir biçimdə,
Elə bil ki, naznazıdı, hərəsi bir seçimdə.
Bunu təkcə bilən bilir nə çəkirəm içimdə,
Oğulsansa, yaşa görüm bu dərdlərin içində.

Vaxt varıdı yaşayırdıq günlərimiz cah-cəlal,
Göyçə getdi, Şuşa getdi, Laçın getdi dalbadal.
İmkan vermirlər ki, sona çata qalmaqal,
Oğulsansa yaşa görüm bu qurdların içində.

Dərd bir olar, dərd beş olar, dərd on olar, mindi dərd,
Qoşa-qoşa balalayıb, bir-birini mindi dərd.
Sağım namərd, solum namərd, arxa namərd, ön namərd,
Oğulsansa yaşa görüm namərdlərin içində.

## Bilmirəm

Baş aça bilmirəm mən bu dünyadan,
Bir şeyi bilirəm, minin bilmirəm.
Adam var, bir gündə yüz səmtə əsir.
Məsləkin bilmirəm, dinin bilmirəm.
Bir şeyi bilirəm, minin bilmirəm.

Bilənlər bilir ki, milliliyim var,
Nahaq deyiləndə dəliliyim var.
Olanım, qalanım şairliyim var,
Onu da heyif ki, dərin bilmirəm,
Bir şeyi bilirəm, minin bilmirəm.

“Məhərrəm” bilirəm, “namaz” bilirəm,
Hörmət, izzət, nəzir – niyaz bilirəm.
Hamının dilini az – maz bilirəm,
Təkcə bu dünyanın dilin bilmirəm,
Bir şeyi bilirəm, minin bilmirəm.

## Çoxalıb

Dünya nizamından, yolundan çıxıb.
Allahsız adamlar yaman çoxalıb.
Dünya məhvərindən, valından çıxıb,
Allahsız adamlar yaman çoxalıb.

Abırlı olanlar abrın güdürlər,
Namusun, qeyrətin, arın güdürlər,
Adamlar var, ancaq qarnın güdürlər,
Allahsız adamlar yaman çoxalıb.

Süd satan südünə su qatıb satır,
Bar satan barını isladıb satır,
O bunu, bu onu aldadıb satır,
Allahsız adamlar yaman çoxalıb.

Adam var ki, övladından yarımır,
Elə övlad heç bir kəsi sarımır,
Adam var ki, heç dədəsin tanımır,
Allahsız adamlar yaman çoxalıb.

Qazı olmayanlar olub çox qazlı,
Çox qazlı olanlar yolunu azdı,
Allahlı adamlar indi çox azdı,
Allahsız adamlar yaman çoxalıb.

Bilməlisən danışanda sözünü,
Aqil olan danladarmı özünü?
Gərək gözləyəsən özü – özünü,
Allahsız adamlar yaman çoxalıb.

İmkanı olanlar nəzir eləsin,
Səbri olmayanlar səbir eləsin,
Allah qoy axırın xeyir eləsin,
Allahsız adamlar yaman çoxalıb.

Xankişi unutmaz qibləgahları,
Allah dərgahında xeyirxahları.
Qoy allah qorusun Allahlıları,
Allahsız adamlar yaman çoxalıb.

## Bacım qızına

Dediyim sözləri yadında saxla,
Edirəm vəsiyyət, ay bacı qızı.
Həmişə dilini sən şirin eylə,
Çəkmərsən əziyyət, ay bacı qızı.

Yaddan çıxarmaynan heç vaxt keçmişi,
Keçsən də altmışı, hətta yetmişi.
Həyat yoldaşınla hər xırda işi,
Eyləynən məsləhət, ay bacı qızı.

Rəhmət oxutginən sən keçənlərə,
Bəxtəvər deginən bəxtəvərlərə.
Əgər, əməl etsən mən deyənlərə,
Olmazsan xəcalət, ai bacı qızı.

Qohuma, qonşuya sən çoxlu getmə,
Düşmən dalınca da sən qeybət etmə.
Nədə eləsən də, sevgidə etmə,
Eyləmə qənaət, ay bacı qızı.

Bu dünyanın neçə ahu-zarı var,
Neçə böhtanı var, qəm-qubarı var.
Boranı var, şaxtası var, qarı var,
Eyləynən dəyanət, ay bacı qızı.

Bir qram olmasa evdə yavanlıq,
Olsa əvəzində əmin-amanlıq.
Olsa aranızda bil, mehribanlıq,
Olacaq var-dövlət, ay bacı qızı.

Çatarsan istəyə, arzu murada,
Uymasan yalana, fitnə-fəsada.
Qohuma, qonşuya, hətta lap yada,
Eylə sən nəzakət, ay bacı qızı.

Eyləynən sən hörmət nənə, dədəyə,
Çıxmaginən heç vaxt xilaf vədəyə.
Nə qədər ömrün var, heç bir bəndəyə,
Eyləmə xəyanət, ay bacı qızı.

Dayın kimi dayı indi tək-tükdü,
Çox şeyi demirəm, indi tünlükdü.
Dünyada bir əməl var, o da düzlükdü,
Edirəm nəsihət, ay bacı qızı.

Ay mənim ürəyim, ay mənim gözüm,
Ay mənin baldan da şipşirin sözüm.
Olsun bir övladın, toyunda süzüm,
Edirəm məm niyyət, ay bacı qızı.

## Sən ağlama, mən ağlaram

Bir qız mənə Türkiyədən zəng edib, ağlaya –ağlaya dedi ki, anam sizin şeirlərinizə qulaq asıb ağlayır. Biz əslən Göyçədənik, söylədi o qız. Bir az ürək – dirək verdim...

Qürbət eldə qalan gözəl,
Sən ağlama, mən ağlaram.
Məni məndən alan gözəl,
Sən ağlama, mən ağlaram.

Bu həsrətdən oldum incik,
Qəlbim oldu çilik – çilik.
Qismət olsa, görüşərik,
Sən ağlama, mən ağlaram.

Dedin ki, sən Göyçədənsən,
Vətən üçün çox əsərsən.
Söylə görüm, kimlərdənsən?
Sən ağlama, mən ağlaram.

Çoxdan bağlanıb dəftərim,
Səhv etməyə yox təhərim.
Çox olsa da dərdim – sərim,
Sən ağlama, mən ağlaram.

Çatılmasın heç vaxt qaşın,
Yetişsə də yüzə yaşın.
Xankişi olsun qardaşın,
Sən ağlama, mən ağlaram.

## Şirvan elində

Bir gün qonaq oldum Şirvan elində,
Dil açdı könlümün sazı, kamanı.
Məni valeh etdi bu eldə hər kəs
Mən görə bilmədim burda yamanı.

Burda təbiətin nəğməsi gözəl,
Kimi dindirirsən muğam oxuyur.
Məst edir adamı heyvası, narı,
Çölləri, düzləri ətir qoxuyur.

Seyidin, Sabirin yurdudur Şirvan,
Tarixi qədimdi, uludu yaşı.
İlahi, nə qədər dahi yetirib,
Bunu hardan bilsin hər yetən naşı?

Ürəyi böyükdür, qəlbi böyükdür,
Çörək istəyənə çörək veribdi.
Qananı qaldırıb başının üstə,
Qanmazın yerini xəndək veribdi.

Üzü ağ, başı da uca olubdu,
Boyun əydiyini görən olmayıb.
Cavanı bir yana, heç qocasının,
Hələ qabağına duran olmayıb.

Hər oğlu Nəbidi, hər qızı Həcər,
Mənim də o eldən çox dostlarım var.
Xankişi çox sevir Şirvan elini,
Onunçün bu şeri yazdı yadigar.

**Xatırələr**

Yaxşı yadımdadı kəndimiz mənim,
Hər an xatırlaram olub keçəni.
Vicdansız olaram, unutsam əgər,
Mən necə unudum olub, keçəni?

Səhərlər içərdim kəkotu çayı,
Anam deyərdi ki. məlhəmdi, oğul.
Balı qatışdırıb qaymağa anam
Deyərdi yeginən, aləmdi oğul.

Gedib kəsdirərdim mən sacın yanın,
Anam bişirərdi yuxa, xamralı.
Davadan dönməyən igid dayımdan,
Bayatı deyərdi anam yaralı.

Yağ ilə pendiri qatıb bir yerdə
Dürmək düzəldərdim təzə yuxadan.
Gedərdim atamla odun yığmağa,
O odun yığardı, mən danaqıran.

Gələndə görərdik kətə hazırdı,
Qırxbuğum, gicitkən, çiriş kətəsi.
Təzə nehrə yağın qoyub içinə,
Doyunca yeyərdik biz bir nəfəsə.

İndi də göynəyir burnumun ucu,
Mən necə unudum həmən günləri?
Qismət olsun qayıdaq o ellərə,
Orada keçirək toy – düyünləri.

Xankişi Bəxtiyar açsın sinəsin,
Desin yaylaqlardan, desin dağlardan.
O qədər olsun ki, dostu, qonağı,
Doymasın dağlarda o qonaqlardan.

## Çıxmır ha dağlar

Bəlkə də hər gecə yuxuda görrəm,
Bir an da yadımdan çıxmır ha dağlar.
Əlikli meşələr, kəklikli daşlar,
Bir an da yadımdan çıxmır ha dağlar.

Nənəmin cehizlik gətdiyi parçın,
İçinə yığardım zəncəfil, darçın.
İçimi göynədir Qubadlı, Laçın,
Bir an da yadımdan çıxmır ha dağlar.

Evdə ağsaqqaldan izin alardıq,
Ovdan qayıtmazdıq, çöldə qalardıq.
Hərdən əlik, qurd tək səs çıxarardıq,
Bir an da yadımdan çıxmır ha dağlar.

Yadımdadı, bir gün düşdüm dumana,
Ayağım büdrədi, aşdım yarğana.
Bir çovğun başladı, düşdüm borana,
Bir an da yadımdan çıxmır ha dağlar.

Gördüm atam çıxıb evin dalına?
Anam döyür gah dizinə, qoluna.
Qurban olum ata, ana adına,
Bir an da yadımdan çıxmır ha dağlar.

Yaddan necə çıxsın o xatirələr,
Qonaqlara atam açan süfrələr.
O dərələr, o təpələr, pöhrələr,
Bir an da yadımdan çıxmır ha dağlar.

## Yavaş – yavaş

Ay şair, sən hara, komersant hara?
Şairsən şerini yaz yavaş – yavaş.
Sənin də qismətin beləymiş yəqin,
Bu çərxi gərdişə döz yavaş – yavaş.
Şairsən şerini yaz yavaş – yavaş.

Alar cəzasını, çox getməz satqın,
Tezliklə yurduna qayıdar qaçqın.
Qayıdar Qubadlı, Kəlbəcər, Laçın,
Çəkilər yollardan toz yavaş – yavaş.
Şairsən şerini yaz yavaş – yavaş.

Keçər ürəklərdən qüssə, qəm – qübar,
Sizin də məhləyə günəş, ay doğar.
Ay keçər, il keçər, zaman dolanar,
Alar qiymətini söz yavaş – yavaş.
Şairsən şerini yaz yavaş – yavaş.

Qılıncdan itidi namərdin dişi,
Nə olsun üzünə gülür kişmişi.
Müşküldən müşküldü dünyanın işi,
Oğulsan hər şeyi yoz yavaş – yavaş.
Şairsən şerini yaz yavaş – yavaş.

Sıxma ürəyini olma pəжmürdə,
Haqqın dərgahına qılginən səcdə.
Nadanlar qəlbində, ürəyində də,
Vaxt gələr əriyər buz yavaş – yavaş.
Şairsən şerini yaz yavaş – yavaş.

El – oba əlindən tutar, Xankişi,
Hər zaman yadına salar, Xankişi,
Neçə ki, canında can var, Xankişi,
Yaxşı kəlamlardan düz yavaş – yavaş.
Şairsən şerini yaz yavaş – yavaş.

## Qalıbdı

Hələ nə yazmışam bizim dağlara,
Deyilməmiş neçə sözüm qalıbdı.
Məclislər qurmağa Turşsuyun üstə,
Ürəyimdə neçə arzum qalıbdı.

Meh olub zirvədə, dağda əsməyə,
Hərdən bir çovğuna, tara düşməyə,
Qonaqlıq verməyə, qurban kəsməyə,
Qapımızda neçə quzum qalıbdı.

Neçə Həcər, neçə Nigar, Xuraman,
Bir baxışla min könüldən can alan.
Atası evində cehizi qalan,
Əsirlikdə neçə qızım qalıbdı.

Cıdır düzündəki qaya başında,
Laçının Şuşaya baxan qaşında.
Neçə ağacında, neçə daşında,
Ovçu bərəsində izim qalıbdı.

Neçə illərdi ki, quruyub dəhnəm,
Mənmi günahkaram, yoxsa zəmanəm?
Tükənib xəzinəm, boşalıb təknəm,
Qarabağda bolca ruzum qalıbdı.

Durnalar gələndə, açanda iydə,
Dostlar şərəfinə vuranda badə,
Çinarın altında, tutun dibində,
Yazılmamış neçə mövzum qalıbdı.

**Heç kim bu dünyadan heç nə aparmır**

Bu da bu dünyanın sonu, axırı,
Heç kəs bu dünyadan heç nə aparmır.
Kara gəlmir nə var, nə də vəzifə,
Heç kəs bu dünyadan heç nə aparmır

Malın, mülkün ola dəniz, çay, ada,
Canın sağ deyilsə, dəyməz heç zada.
Bax bunu anlamır çoxu dünyada,
Heç kəs bu dünyadan heç nə aparmır.

Kim nə bilir nə olacaq sabaha,
Bir də gördün, diz çökmüsən sabah haa.
Fərqi yox fağır ol, ya da əjdaha,
Heç kəs bu dünyadan heç nə aparmır.

Vaxt çatdı, qolundan yapışan olmur,
Gələnin işinə qarışan olmur.
Kimin övladısan, soruşan olmur,
Heç kəs bu dünyadan heç nə aparmır.

## Inciyər

Bənd atmasaq Araz üstdən, bizdən Araz inciyər,
Ustadları yad etməsək, sədəfli saz inciyər.
Qoşma qoşan, qəzəl yazan bu dünyada doludu,
Hər yetənə şair desək, Məmməd Araz inciyər.

Könlün əgər gövhər umsa, axtar onu dərində,
Belə olub bu dünyanın bütün fəsli-dövründə.
Kökləməsən tarı, sazı, zili, bəmi yerində,
Seygah küsər, Başsarıtel, Kürdü-Şahnaz inciyər.

Qoşma dadın bilməyənlər, deməsinlər qoşma heç,
Deyənlərin təqsirindən, günahından özün keç.
Ay Xankişi, könül açan söz yazmasan, yazma heç,
Küsər qafiyələr, "qoşma", "təcnis", "cinas" inciyər.

## Söz demək olmur

Yaman kövrəlmişəm, yaman dolmuşam,
Son vədələr mənə söz demək olmur.
Körpə uşaqdan da betər olmuşam,
Son vədələr mənə söz demək olmur.

İçim için–için od tutub yanır,
Nə doğma anlayır, nə yad anlayır.
Nəfəsim təngiyir, qəlbim ağrıyır,
Son vədələr mənə söz demək olmur.

Üzü dönüb, əsir tərsinə külək,
Qalmışam fələklə indi təkbətək.
İşim, peşəm dərd yığmaqdı, qəm əkmək,
Son vədələr mənə söz demək olmur.

Bəxtim parçalandı, qayaya dəydi,
Bu da taleyimi yamanca əydi.
İndilər dərdlərim soltandı, bəydi,
Son vədələr mənə söz demək olmur.

Sevincim az, qəmim ətək-ətəkdi,
Dərdim, qəmim taleyimə bəzəkdi.
Misralarım ürəyimdən kövrəkdi,
Son vədələr mənə söz demək olmur.

Bütün fəsilləri yağıram, qardaş,
Cığırda, qayada mamıram, qardaş.
Ağlaya-ağlaya yazıram qardaş,
Son vədələr mənə söz deмək olmur.

Düzdü, deyirlər ki, səhvim azalıb,
Səhvim azalandan nəfim azalıb.
Kiçilə-kiçilə kefim azalıb,
Son vədələr mənə söz demək olmur.

## Bu dünayaya gəlmişəm ki...

Mənim yolum haqq yoludu, yazılıbdı yazım belə,
Avazımın min rəngi var, çalınıbdı sazım belə,
Haqq gələndə mənlə gəlib, qoyulubdu izim belə,
Mənim borcum, vəzifəmdi, insanları duyuq edəm,
Bu dünyaya gəlmişəm ki, millətimə qulluq edəm.

Bir yorulmaz arıyam mən, pətəkləri balla dolu,
Bir çəmənəm, güllü çəmən, çiçəklərdi sağı, solu.
Bu çiçəyin dərəni yox, məhv eləyib yağış, dolu,
Xoşlamıram qulluq üçün bir kimsəyə buyruq edəm,
Bu dünyaya gəlmişəm ki, millətimə qulluq edəm.

Bir pozulmaz qanundu bu, kasıb olanlar mərd olur,
Xankişi yazıq neyləsin, namərd görəndə pərt olur.
Həmişə belə olubdu, doğru söz – söhbət sərt olur,
Istəmərəm el içində öz yerimi soyuq edəm,
Bu dünyaya gəlmişəm ki, millətimə qulluq edəm.

**Nə boyda ürəkdi bu ürək Allah!**

Bəndənin ürəyi bu boyda olmaz,
Nə boyda ürəkdi bu ürək Allah!
Nə yerdə taparsan, nə də ki göydə,
Nə boyda ürəkdi bu ürək Allah!

Mənə xatırladır xalis mələyi,
Mələkdən də pakdı, yoxdu kələyi.
Bəlkə də bir deyil, çoxdu ürəyi,
Nə boyda ürəkdi bu ürək Allah!

Sözləri də, əməli də ipəkdi,
İpək nədi, ipəkdən də qəşəngdi,
Elə bil ki, göydən gəlmiş mələkdi,
Nə boyda ürəkdi bu ürək Allah!

Sirli bir ümmandı, sirli bir dəniz,
Elə bir dəniz ki, suyu tər-təmiz,
Vəsf etməyə qələm aciz, söz aciz
Nə boyda ürəkdi bu ürək Allah!

Ləhcəsi şirindi, elə bil baldı,
Qisməti nədirsə, ona halaldı.
Olan ağlımı da əlimdən aldı,
Nə boyda ürəkdi bu ürək Allah!

İmdad diləyənin yetib dadına,
Qəmlənib qəminə, gülüb şadına.
Allah rəhmət etsin ustadlarına,
Nə boyda ürəkdi bu ürək Allah!

Yaraşıqdı yay bahara, yaz yaya,
Necə ki yaraşır ulduzlar aya.
Beləsi gəlməyib hələ dünyaya,
Nə boyda ürəkdi bu ürək Allah!

Bahar küsər, payız ağlar, qış inlər,
Gözlərdəki, üzlərdəki yaş inlər.
Gözünə su versin bəzi kişilər,
Nə boyda ürəkdi bu ürək Allah!

## Nə yaxşı görüşdük, nə yaxşı yenə

Elə bil bəxtimə təzə gün doğdu,
Nə yaxşı görüşdük, nə yaxşı yenə.
Elə bil çiynimə mələklər qondu,
Nə yaxşı görüşdük, nə yaxşı yenə.

Yada düşdü yenə dağlar, gədiklər,
Moruqlu dərələr, ürkək əliklər.
Qartallar, kəkliklər, keçilməz diklər,
Nə yaxşı görüşdük, nə yaxşı yenə.

Yer də, göy də çiçək oldu gözümdə,
Nə gördümsə, qəşəng oldu gözümdə.
Mələk idin, mələk qaldın gözümdə,
Nə yaxşı görüşdük, nə yaxşı yenə.

Qayalar sevindi, daşlar sevindi,
Gözlərdən süzülən yaşlar sevindi.
Bülbüllər lal oldu, quşlar sevindi,
Nə yaxşı görüşdük, nə yaxşı yenə.

Getmişdi ağzımdan ləzzətim, tamım,
Sönmüşdü baxışım, sönmüşdü şamım.
Qalmamışdı üz tutmağa adamım,
Nə yaxşı görüşdük, nə yaxşı yenə.

Əlimi hər şeydən götürmüşdüm mən,
Yazmağı biryolluq bitirmişdim mən.
Olan ağlımı da itirmişdim mən,
Nə yaxşı görüşdük, nə yaxşı yenə.

Bir də kipriyində nəm görmüyüm mən,
Dediyin sözlərdə qəm görmüyüm mən.
Sizi məclislərdən kəm görmüyüm mən,
Nə yaxşı görüşdük, nə yaxşı yenə.

**11.09.2021**

**Yeriniz göründü sizin ay Hacı**

(Həcc ziyarətindən təzəcə qayıtmış dostum
Telman Budaqova)

O günü ki, ziyarətə getdiniz,
Yeriniz göründü sizin ay Hacı.
Gözlərim qalmışdı hər gün yollarda,
Yeriniz göründü sizin ay Hacı.

Pozuldu hər işin sanki nizamı,
Lal oldu şairin təbi, ilhamı.
İtdi ağzımızın ləzzəti, tamı,
Yeriniz göründü sizin ay Hacı.

Qurudu sel, sular bulağımızdan.
Söhbətin bitmədu otağımızdan,
Sözlərin getmədi qulağımızdan,
Yeriniz göründü sizin ay Hacı.

Keçdi günlərimiz leysan yağışla,
Yuxular gördüm mən, qatma-qarışla.
Bir azca gec yazdım, məni bağışla,
Yeriniz göründü sizin ay Hacı.

Sənin şair dostun bir tifil oldu,
Hər keçən günləri bir fəsil oldu,

Fəsil nədir, bəlkə düz yüz il oldu
Yeriniz göründü sizin ay Hacı.

Gəzdiyin düzlərə, çöllərə qurban,
Çaylara, sulara, göllərə qurban,
Məkkəyə getdiyin yollara qurban,
Yeriniz göründü sizin ay Hacı.

Səni sevənlərin bir Cünun oldu,
Cünun sehirləmiş bir əfsun oldu.
Sənsizli günümüz çox uzun oldu,
Yeriniz göründü sizin ay Hacı.

Hər gün oldum neşə-neçə hallarda,
Azdım dumandan mən yüz yol yallarda.
Gözüm qaldı getdiyiniz yollarda,
Yeriniz göründü sizin ay Hacı.

İçməmiş dəm oldu bütün aləmim,
Yalqız qaldım,  olmadı bir həmdəmim.
Susdu misralarım, susdu qələmim,
Yeriniz göründü sizin ay Hacı.

Düzü demiyənə qəbahət olar,
Haqqı deyənlərə bəraət olar.
Doğrunu yazmasam, xəyanət olar,
Yeriniz göründü sizin ay Hacı.

Hər kəsin yolları aydın göründü,
Adların içində adın göründü,
Xankişinin fikri yayğın göründü,
Yeriniz göründü sizin ay Hacı.

## Görməz

Gözəli görməyə gözəl göz gərək,
Gözəl görməyənlər gözəli görməz.
Sevənlərdə bu qaydadı əzəldən,
Göz ayağı görməz, göz əli görməz.

Şöhrətə meyl edər, adlara uyar,
Ağıldan seyrəyə, çatlara uyar.
Göz görməsə, fərsiz yadlara uyar,
Qonşuda Göyçəyi, Gözəli görməz.

Göz Əlini eşitmişəm atamdan,
O vaxtdan bir an da çıxmır yadımdan.
Allah əli kəsiləndə adamdan,
Kor Əli görsə də Göz Əli[28] görməz.

**29.01.2021**

[28] Əlinin ayamasıdır, yəni ləqəbidir. Göz Əli tükü tükdən seçərmiş.

**Burda bir qız yaman gəlir xoşuma**
(Mahirə Nağıqızının nəvəsinə)

Sizdən nə gizlədim, sizdən nə danım,
Burda bir qız yaman gəlir xoşuma.
Ürəyim titrəyir, əsir bədənim,
Burda bir qız yaman gəlir xoşuma.

İnsafı yoxumuş, baxmır o, aha,
Arzumdu batmasın heç vaxt günaha.
Agah olsun, yaradana, Allaha,
Burda bir qız yaman gəlir xoşuma.

Nazı-qəmzəsitək naz ola bilməz,
Süzgün gözləritək göz ola bilməz.
Vallah bu qız kimi qız ola bilməz,
Burda bir qız yaman gəlir xoşuma.

Bircə yol budağın əyməmişəm mən,
Bircə yol əlinə dəyməmişəm mən.
Nə danım, baxmaqdan doymamışam mən,
Burda bir qız yaman gəlir xoşuma.

Telləri bənzəyir mələklərin telinə,
Vurulmuşam ləhcəsinə, dilinə.
Qurban olum obasına, elinə,
Burda bir qız yaman gəlir xoşuma.

Onu görən kimi lap ağır ollam,
Dönüb fağırdan da lap fağır ollam.
Adını demirəm, biyabır ollam,
Burda bir qız yaman gəlir xoşuma.

## Dördlüklər

Dərdi kiritmək çətindi,
Dərd gələndə dərd üstünə.
Bir quruca sözdən ötrü,
Mərd gedərmi mərd üstünə?

***

Keçənlərlə işim yoxdu,
Sabahıma darıxıram.
Birə bir gələ bilmirəm,
Hər addımda karıxıram.

***

"Dünya" ərəbcədən, yalan deməkdir,
Əlində olanı alan deməkdir,
Adamı dərdlərə salan deməkdir,
Bir sözünən, Əzrayıldı bu dünya.

***

Dərdə düşdüyün zaman,
Yol aşar dərdə salan,
Belə olub zaman-zaman,
Mən kim, sən kim, o kimdi?

+++

Əl tutdum kara, kora,
Çəkmədim mən nankora.

Yağı gücü çatmadı,
Dostlarım saldı tora

+++

Vətən deyib ağladım,
Ürəyimi dağladım,
Doğmalar atıb getdi,
Yadlara bel bağladım.

+++

Ürək deyəni söz deyir,
Söz deməyəni göz deyir.
Dərd verir hər şeyin çoxu,
Aqil olanlar az deyir.

+++

Bir tilsim var, sındıranın gəzirəm:
Yerdə də var, göydə də var, - o, nədir?
Tey bilənlər, Key bilənlər bilərlər,
Meydə də var, neydə də var, - o, nədir?

+++

İtirmişəm dadımı,
Duyan yox imdadımı.
Əgər dünya düzəlsə,
Dəyişərəm adımı.

+++

Çox saraylar dam olub,
Yezidlər imam olub.

Dünyadan baş açmayıb,
Xankişi avam olub.

+++

Ördəklər girsə dona,
Olmaz yaşılbaş sona.
El Koroğlu söyləməz,
Hər yetən kor oğluna.

+++

Sözün düzün uşaq, ya da dəm deyər,
Ağlı tam olmayan tamı kəm deyər.
Mizrab nədi, təzənə nə, kim deyər?
Açmasını arif olanlar bilər.

+++

Sadəlik aşiqiyəm,
Şöhrətpərəst deyiləm.
Sevilmək istəmirəm,
Mən sevmək istəyirəm.

**Üzərlik**

Yuxuda gördüm ki, dağa getmişəm,
Ordan düz bir topa üzərlik yığdım.
Gözümü açmağa imkan vermədi,
Bir dolu başladı, tələsik yığdım,
Ordan düz bir topa üzərlik yığdım.

Əlik göz elədi, naz etdi kəklik,
Бaxdım ki, dumandan görünmür gədik.
Bir azca itburnu, bir azca yemlik,
Qayıdan başı da əvəlik yığdım,
Ordan düz bir topa üzərlik yığdım.

Özünü incitmə, Xankişi, yetər,
Bir az da yığarsan o biri səfər.
Bir az kəklikotu, bir az qantəpər,
Hərəsindən bir az, bir çimdik yığdım,
Ordan düz bir topa üzərlik yığdım.

**28.11.2004**

## Dağların qədrini hardan bilərsən...

Dağdan çox yazırsan deyən eloğlu,
Dağların qədrini hardan bilərsən?
Çəmənin şehinə batmamısan sən,
Dağların qədrini hardan bilərsən?

Sən kəkliyin de, kəkilin görmüsən?
Sən əliyin de, səkilin görmüsən?
Uzaq başı dağın şəklin görmüsən?
Dağların qədrini hardan bilərsən?

Bilirsənmi, nədi qoyunqulağı?
Nədi qazayağı, dəvəqulağı?
Nə yemlik yemisən, nə quzqulağı,
Dağların qədrini hardan bilərsən?

Dağlarda azmısan de görüm yolu?
Döyübmü başına qar, yağış, dolu?
Cırıbmı üstünü böyürtkan kolu?
Dağların qədrini hardan bilərsən?

Bəlkə də bilmirsən nədi baldırğan,
Nədi keçiqıran, ya danaqıran.
Nədi dilqanadan, gəlinaldadan?
Dağların qədrini hardan bilərsən?

Düşmüsən dağlarda bircə yol selə?
Görmüsən düşəndə tələyə dələ?
İncimə sözümdən, incimə lələ,
Dağların qədrini hardan bilərsən?

Məclis qurubsanmı, bulaq başında?
Çəməndə yatmısan papaq başında?
Gecə uzanmısan çardaq başında?
Dağların qədrini hardan bilərsən?

Yaman bir cürəsən, lap bir təhərsən,
Baxışın ögeydi, dolu zəhərsən.
Baxıb Xankişiyə bic – bic gülərsən,
Dağların qədrini hardan bilərsən?

**11.10.2004**

**Nəyimə lazımdı fəlsəfə yazım**

Mənə sadə yazan deyən eloğlu,
Nəyimə lazımdı fəlsəfə yazım.
Mən yazıram sadə insanlar üçün,
Nəyimə lazımdı fəlsəfə yazım.

Keçmişimdən, keçən çağdan yazıram,
Bağçada gülümdən, bağdan yazıram,
Mən dağlar oğluyam, dağdan yazıram,
Nəyimə lazımdı fəlsəfə yazım.

Elə bilmə zəif, ya da acizəm,
Lazım gəlsə, qəlizdən də qəlizəm.
Sahili olmayan sirli dənizəm,
Nəyimə lazımdı fəlsəfə yazım.

Tüstüsü düz çıxan sönməz sobayam,
Duyanlara çörək, dərman – davayam.
Mən söz ustasıyam, şair babayam,
Nəyimə lazımdı fəlsəfə yazım.

Elə yazaram ki, açmaz bir açar,
Yüz aqil yığışsa, qalar çar – naçar.
Fəlsəfəni filosoflar açsınlar,
Nəyimə lazımdı fəlsəfə yazım.

## Sizin məhlənizə qonaq gəlmişdim

Çox baxdım, boylandım, görə bilmədim,
Sizin məhlənizə qonaq gəlmişdim.
Soruşdum güllərdən, hər bir çiçəkdən,
Sizin məhlənizə qonaq gəlmişdim.

Bir gül boylanırdı daşın içində,
Baxıb naz edirdi yaşın içində.
Elə bil yaz tapdım qışın içində,
Sizin məhlənizə qonaq gəlmişdim.

Kölgə olmaq, budaq olmaq gözəldi,
Sərin sulu bulaq olmaq gözəldi.
Məhlənizdə qonaq olmaq gözəldi,
Sizin məhlənizə qonaq gəlmişdim.

Üzümdən, gözümdən küləklər öpdü,
Güllər naz elədi, çiçəklər öpdü.
Min dəfə alnımdan mələklər öpdü,
Sizin məhlənizə qonaq gəlmişdim.

Yada düşdü Zərnigar da, Nigar da,
Xəyalım dolaşdı min cür güzarda.
Gələnəcən gözüm qaldı yollarda,
Sizin məhlənizə qonaq gəlmişdim.

**09.07.02023**

## Nəvələr bir aləm, nənə bir aləm

Vəsf etməyə qələm aciz, söz aciz,
Nəvələr bir aləm, nənə bir aləm.
Bu nə sirdi, Allah, sirri bilinməz,
Nəvələr bir aləm, nənə bir aləm.

Bal bala qarışıb balın içində,
Ləl lələ qarışıb ləlin içində.
Gül gülə qarışıb gülün içində,
Nəvələr bir aləm, nənə bir aləm.

Belə nənə kimin baxtına düşüb?
Belə nəvə kimin taxtına düşüb?
Allahın ən gözəl vaxtına düşüb,
Nəvələr bir aləm, nənə bir aləm.

Belə şirin olmaz beçənin balı,
Baxanda dincəlir adamın halı.
Heyif ki, çatışmır gərdənin şalı,
Nəvələr bir aləm, nənə bir aləm.

Bu nə xalı, bu nə ilmə, nə naxış?
Bu nə qəmzə, bu nə işvə, nə baxış?
Naxışdakı baxışlara min alqış,
Nəvələr bir aləm, nənə bir aləm.

**20.03.2023**

## Anasız dünya

Mədinəm də odur, Məkkəm də odur,
Viranədir mənə anasız dünya.
Dövlətim də odur, mülküm də odur,
Viranədir mənə anasız dünya.

Məsləyim o, imanım o, dinim o,
Süsənim o, sünbülüm o, dənim o.
Damarımdan axıb süzən tənim o,
Viranədir mənə anasız dünya.

Daraya saçımı küləklər öpə,
Güllər sığal çəkə, çiçəklər öpə.
Üzümdən, gözümdən mələklər öpə,
Viranədir mənə anasız dünya.

Onsuz məni şaxta kəsər, qış qırar,
Doğmalarım məzarından qışqırar.
Didələrim sakit axmaz, fışqırar,
Viranədir mənə anasız dünya.

Sevirsənsə, dözümümü sınama,
Dözəmmərəm, sən gəl məni qınama.
Qurban olum qıyma mənim anama,
Viranədir mənə anasız dünya.

**04.01.2023**

## Yüzə yüz

(Mahirə Nağıqızına)

Qızlar xalasına çəkər deyirlər,
Bu qız dayısına çəkib yüzə-yüz.
Bu nə sirdir, nə hikmətdir ilahi,
Bu qız dayısına çəkib yüzə-yüz.

Danışar düzünü, yazar düzünü,
Elin gözlərində çəkər özünü.
Boğazdan yuxarı deməz sözünü,
Bu qız dayısına çəkib yüzə-yüz.

Gül çiçəyə, çiçək gülə oxşayar,
Tel siyaha, siyah telə oxşayar,
Qız da dayısına belə oxşayar?
Bu qız dayısına çəkib yüzə-yüz.

Eyni yeriş, eyni duruş, eyni üz,
Eyni sanbal, eyni söhbət, eyni söz.
Eyni baxış, eyni ürək, eyni göz
Bu qız dayısına çəkib yüzə-yüz.

Dayısıtək dostun qədrini bilər,
Dərələyəz, Göyçə dərdini çəkər,
"Ruhani"də, “Dilqəmi”də huş gedər,
Bu qız dayısına çəkib yüzə-yüz.

Adam var ki, sərvət, mal adamıdır,
Adam var ki, oba, el adamıdır.
Mahirə xanım da hal adamıdır
Bu qız dayısına çəkib yüzə-yüz.

Bir gələn var, bir qalan var, bir gedən,
Gələn qalmaz, nə də qayıtmaz gedən.
Xankişi mat qaldı bu möcüzədən,
Bu qız dayısına çəkib yüzə-yüz.

## İndicə

Yenə də yaz gəlib Vətən bağına
Bir dəstə bənövşə dərdim indicə.
Nə vaxtdandı ayrılmışdım cənnətdən,
Təzədən cənnəti gördüm indicə.

Sonu çatdı qəm-qüssənin, o ahın,
Rəhmi gəldi bu millətə Allahın,
Ruhu təzələndi Molla Pənahın.
Yenə səcdəsinə durdum  indicə.

Gücüm yox vəsf edəm Şuşanın yazın,
Gülün bülbüllərə min cürə nazın.
Dinlədim Cabbarın Şurun, Şəhnazın,
Elə bil yatmışdım, durdum indicə.

Diz çökdü önündə yüzü İlhamın,
Dəmirdəndi əli, dizi İlhamın.
Məni məndən aldı sözü İlhamın,
Qəm-kədər zəncirin qırdım indicə.

## Narın-narın

Yenə gəzəydim dağları,
Qar yağaydı narın-narın.
Dolanaydım dolayları,
Qar yağaydı narın-narın.

Od tutaydı yenə sinəm,
Xəyalımdan getmir binəm.
Bir nağıl deyəydi nənəm,
Qar yağaydı narın-narın.

Atam, anam sağ olaydı,
Anam inəyi sağaydı.
Yenə həmin bağ olaydı,
Qar yağaydı narın-narın.

Kababı çəkəydi atam,
Sağ olaydı kaş qaynatam.
Oxuyaydım aram-aram,
Qar yağaydı narın-narın.

## Sizin olsun

Binasından bəlli durnam,
Qanadından bəlli durnam,
İnadından bəlli durnam,
Yaxşı yollar sizin olsun.

Görməyəsiz acı, ağrı,
Düşməyəsiz səfdən ayrı.
Kömək olsun ulu Tanrı,
Yaxşı yollar sizin olsun.

Səfiniz pozula bilər,
Yolunuz toz ola bilər.
Sayınız azala bilər,
Yaxşı yollar sizin olsun.

Dərmansıza dərman verin,
Köçənlərə ehsan verin,
Lazım gəlsə qurban verin,
Yaxşı yollar sizin olsun.

## Allah haqqı bu gözəldən yoxdu, yox

Çox gözəllər gəlib-gedib dünyaya,
Allah haqqı bu gözəldən yoxdu, yox.
Yerdə nədir, göydə tapa bilməzsən,
Allah haqqı bu gözəldən yoxdu, yox.

Quba almasından, Göyçay narından,
Qubadlı balından, Laçın qarından,
Necə yoxdu, Azərbaycan barından,
Allah haqqı bu gözəldən yoxdu, yox.

Hər sözü, söhbəti şərbət, bal dadar,
Balın özünü də hərdən aldadar.
Belə gözəl, həm ağıllı, harda var?
Allah haqqı bu gözəldən yoxdu, yox.

Nənəsi inciməz, anası doymaz,
Əmisi, dayısı, atası doymaz.
Yüz il naz eləsə, babası doymaz,
Allah haqqı bu gözəldən yoxdu, yox.

Adı qalsın tarixlərdə əbədi,
Şan-şöhrəti tanımasın sərhədi.
Babasına Kərbəladı, Kəbədi,
Allah haqqı bu gözəldən  yoxdu, yox.

Sağlam ola, xoşbəxt ola, bay ola,
Doğmalara arxa ola, hay ola.
Qız gəzirəm bax bu qıza tay ola,
Allah haqqı bu gözəldən  yoxdu, yox.

**11.06.2023**

## Şəmkir ellərindən görməmişəm mən

Bu dünyanı qarış-qarış gəzmişəm,
Şəmkir ellərindən görməmişəm mən.
Qızları vəfalı, oğulları mərd,
Şəmkir ellərindən görməmişəm mən.

Zirvələri zirvələrin ucası,
Meşələri meşələrin qocası.
Nə gözəldi bu yerlərin havası,
Şəmkir ellərindən görməmişəm mən.

Neçə-neçə qalası var, bürcü var,
Neçə-neçə can qıymalı gənci var.
Gənclərində yüz pələngin gücü var,
Şəmkir ellərindən görməmişəm mən.

Neçə-neçə şəhər boyda kənd gördüm,
Qızlarının dillərini qənd gördüm.
Harda gördüm, oğulların mərd gördüm,
Şəmkir ellərindən görməmişəm mən.

Çaylarında sular duru, qum duru,
Bulaqlar var, göz yaşından dumduru.
Burda kəşf olunub dostluq düsturu,
Şəmkir ellərindən görməmişəm mən.

Məna dərin, məqsəd dərin, ruh dərin,
Qocalar var, dəryalardan çox dərin.
Saz da, söz də alıb burda dəyərin,
Şəmkir ellərindən görməmişəm mən.

Bu diyara bir yol gələnlər bilər,
Bir gecə mehmanı olanlar bilər.
Bu elin qədrini bilənlər bilər,
Şəmkir ellərindən görməmişəm mən.

## Mənə qoca demə atam balası

Mənə qoca demə atam balası,
Qocaman ayrıdır, qoca ayrıdır.
Təbiətdən gəl sən mənə dərs demə,
Yonurca[29] ayrıdır, yonca[30] ayrıdır.

Bəlkə də bilmirsən nədir murdarca[31],
Nədir daraqlıca, nədir qumluca.
Yəqin dadmamısan bir yol mərovca,
Xocahan ayrıdır, xoca ayrıdır.

İstiyə istiyəm, qışa şaxtayam,
Şaxtaları tanımaqda ustayam.
Deyirlər ki, çox yavaşam, astayam,
Usmaca ayrıdır, uca ayrıdır.

---

29 Parazit göbələklərin (əsasən taxıllarda) törətdiyi xəstəlik.
30 Paxlakimilər fəsiləsinə aid bitki.
31 Orta dağlıq ərazilərdə, çay kənarlarında, dərələrdə, enliyarpqlı meşələrdə bitən ağac.

## Dünya yalan dünyadı

Rəhmətlik anam gilə getmişdim. Olandan, qalandan, keçəndən, keçmişdən xeyli söhbət elədik. Vətən həsrətinə dözməyib dünyasını dəyişənləri yada saldıq. Söz arası anam mənə qayıtdı ki, eh, a bala, dünya mənim deyənin yasından gəldim dünən. Dəli oldum. İlk dəfi idi bu sözü eşidirdim. Dedim ki, ay ana, bəs bu nə sözdü? Dedi ki, belə bir el deyimi var da oğul, eşitməmisən bəs? Dedim yox. Bu vaxta qədər mənə elə gəlirdi ki, hər şeyi bilirəm və heç kim mənim yanımda danışa bilməz. Amma, dərk etdim ki, bilmədiklərimi ayağımın altına yığsam, bəlkə də başım ulduzlara dəyər. Evə qayıdan kimi götürüb yazdım:

Aqil olan kəsləri görmədim mən öyünən,
Görən varmı bir adam daim gedə göyünən.
Dünya mənim deyənin yasından gəldim dünən,
Dərdləri qalaq-qalaq, sirri pünhan dünyadı,
Düz deyillər, ay ana, dünya yalan dünyadı.

Dağ deməkdən ağızda dillər olub döyənək,
Öyünməyə bir şey yox, barı bir yol öyünək.
Oğullar o yanda tək, analar da burda tək,
İçin-için içindən oğrun yanan dünyadı,
Düz deyillər, ay ana, dünya yalan dünyadı.

Xankişi bu dünyaya bir daha təkrar gəlməz,
Şəhriyar, Məmməd Araz, nə də Bəxtiyar gəlməz.
Getdi daha o günlər, bir də ixtiyar gəlməz,
Bir-bir verdiklərini birdən alan dünyadı,
Düz deyillər, ay ana, dünya yalan dünyadı.

## Gördüm

Anam dünyasını dəyişdiyini eşidəndə başımdan bir ağrı başladı, bilmədim heç yerin altındayam, yoxsa üstündə. Sumqayıta çatanda bir qar başladı, hələ ömrümdə elə qar görməmişdim.

Qəfildən başımdan ağrı başladı,
Elə bildim, aləm məni daşladı.
Anasız günlərim qarla başladı,
İlk dəfə ömrümdə boranı gördüm,
Dünya fani imiş, yalanı gördüm.

Anam sağ olanda dərd eləməzdim,
Allahdan bir özgə şey diləməzdim.
Anam tez gedəcək, zənd eləməzdim,
Ürəkdən ağlayıb yananı gördüm,
Dünya fani imiş, yalanı gördüm.

Bir an xəyalımdan, yadımdan çıxmır,
Baxıram şəklinə dinmir, danışmır.
İşlərim dolaşıb, anasız aşmır,
Lopa-lopa qarı, leysanı gördüm,
Dünya fani imiş, yalanı gördüm.

Anasız həyatın mənası heç nə,
Allah rəhmət etsin cəmi keçənə.
Xankişi anasız çətin keçinə,
Açmamış gülləri solanı gördüm,
Dünya fani imiş, yalanı gördüm.

## Gələydi

Dəniz istəmirəm, çay istəmirəm,
Nə günəş, nə ulduz, ay istəmirəm.
Yeddi yerdən gələ pay istəmirəm,
Təkcə atamgildən bir çöp gələydi.

Hərdənbir həddimi keçmək üstündə,
Hərdən – birdən artıq içmək üstündə,
Hərdən nəvəyə dərs vermək üstündə,
Atamla sözümüz bir çəp gələydi.

Kövrəldim, duruxdum bu dəmdə nəsə,
Sözümü elədim çox qısa, kəsə.
Bəlkə sizi yorar, çox yazsa, desə,
Hərdən Xankişiyə bir təb gələydi.

## Qocalanda analar

Bakıda anamgillə səhər-səhər görüşüb Sumqayıta getmişdim. Gözlərimə inanmadım. Anam məndən nə tez gəlib çıxıb Sumqayıta? Fikir məni götürdü. Görəsən bu nə işdi belə? Axı bir saat bundan qabaq mən anamı evdə qoyub gəlmişdim. Fikir məni apardı. Bir daha diqqətlə baxdım. Qabaqda gedən qadınlardan biri mənin anam idi. Bir az tez-tez yeriyib qadınlara çatdım və diqqətlə baxdım. Mən görən anam deyildi. Dəli oldum. Dedim bəlkə başıma hava gəlib. Nəsə bu qadınlardan ayrılıb, fikirləşə-fikirləşə gedirdim. Düşünürdüm ki, balam, bu nə olan işdi gəldi mənim başıma belə? Axı mən hələ-hələ yanılmaram. Elə bir az öz-özümə danışa – danışa gedirdim, baxdım ki, qabaqdan bir neçə yaşlı qadın gedir. Bunlardan da biri mənim anamdır. Gözümü silib lap diqqətlə baxdım. Dedim birdən bayaqkı kimi səhv edərəm. Gördüm yox, ola bilməz bu qadınlardan biri hökmən mənim anamdır. Yenə bir az tez-tez gedib qadınlara çatdım və diqqətlə baxdım ki, yox, bu qadın mənim anam deyilmiş. Düşündüm ki, deməli mənim başım xarab olub. Bu hadisə bir neçə dəfə başıma gəldi. Sonra dərk elədim ki, sən deməyəsən qocalanda bütün analar bir-birinə çox oxşayır. Ordan qayıdandan sonra bu şeiri yazdım:

Bir – birinə çox oxşayır,
Qocalanda analar.
Kövrəkdən də kövrək olur,
Qocalanda analar.

Söz – söhbəti özgə dəsgah.
Yazmasam mən, olar günah.
Necə gözəl olur, Allah,
Qocalanda analar.

Durna telinə oxşayar,
Sabah yelinə oxşayar.
Payız gülünə oxşayar,
Qocalanda analar.

Çox yaraşar tel darağa,
Sözləri bənzər qaymağa.
Oxşayarlar lap yumağa,
Qocalanda analar.

Yaman olar dəymədüşər,
Hər şey üstə umar, küsər.
Nəvələrin evin bəzər,
Qocalanda analar.

## Qocalma, ana, qocalma

Qadan alım, qurban olum,
Qocalma, ana, qocalma.
Olaram mən ovum-ovum,
Qocalma, ana, qocalma.

Düyün düşər ilməyimə,
Gələn olmaz köməyimə.
Dərdin gəlsin ürəyimə,
Qocalma, ana, qocalma.

Dağlardan duman, qar aşır,
İşlərim yaman dolaşır.
Dünya sənə çox yaraşır,
Qocalma, ana, qocalma.

O dağlar səni gözləyir,
Güllər çəməni gözləyir.
Nəvələr səni gözləyir,
Qocalma, ana, qocalma.

Pozulub halım dünəndən,
Azca azarlı düşəndən.
Doyammadım mən heç səndən,
Qocalma, ana, qocalma.

Xankişinin yoxdu halı,
Çaşıbdı şair xəyalı.
Artıbdı dərdi, məlalı,
Qocalma, ana, qocalma.

## Bircə şeyi bilirəm ki...

Qaçqın düşəndən sonra həmişə atam gilə gedəndə görərdim ki, rəhmətlik həyətdə oturub yolumuzu gözləyir. İndi isə...

Hey gəzirəm gecə-gündüz,
Atamı tapa bilmirəm.
Atam gedən gündən bəri
Atımı çapa bilmirəm.

Bircə nəfər tapmıram mən,
Soruşam ondan atamı.
Atasızlıq ağır dərddi,
Pis günə qoyur adamı.

Kövrəkdən də kövrək idi,
Ovcunda idi göz yaşı.
Evə yüz qonaq gəlsə də,
Çatılmazdı bir yol qaşı.

Koroğluya oxşayırdı,
Ona belə deyirdilər.

El içində, kəndimizdə,
Onu belə öyürdülər.

Neçə övlad böyütmüşdü,
Hamısı ali savadlı.
Çoxlu nəvəsi var idi,
Hamısı da istedadlı.

Necə dözək yoxluğuna,
Anam çox fikir eləyir.
Bizdən hər şeyi gizlədir,
Guya ki, xeyir eləyir.

Nə vaxt getsəm atamgilə,
Görərdim ki, həyətdədi.
O qədər yaxşılıq edib,
İndi də o hörmətdədi.

Deyirəm ki, bəlkə atam,
Kəndə ziyarətə gedib.
Ata-baba yurdlarını,
Bəlkə nəzarətə gedib.

Bəlkə gedib meşədəki
Arılara baş çəkməyə.
Bəlkə gedib həyətdəki
Çırpılmış tutu çəkməyə.

İnanmıram, inanmaram,
Bizi qoyub gedib atam.
Bircə şeyi bilirəm ki,
Hər bir şeyi edib atam.

## Balamın

Qızım Çinarə Almaniyada imtahan verərkən yaman narahat oldum

Əl açıb Allaha çox yalvarmışam,
Allah pənahında olsun balamın.
Gül açsın bağçası, bağı, gülşəni,
Görməyim gülləri solsun balamın.

Dalğalansın zirvələrdə bayrağı,
Nur saçsın aləmə odu, ocağı.
Kədər yaşı tanımasın yanağı,
Sevincdən gözləri dolsun balamın.

Ömür boyu açıq olsun qoy alnı,
Sevinsin baldızı, gülsün qayını.
Onsuz da tarixə salıb adını,
Adı tarixlərdə qalsın balamın.

**25.03.2010 - 27.03.2010**

## Qızım

Qızım Çinarəyə

Bir azcaca səsin zəif gələndə,
Oluram pərişan, peşiman, qızım.
Uzaqdan baxana asan görünür,
Bilirəm, çətindi imtahan, qızım.

Övladı qürbətdə olmaq çətindi,
Qürbətdə yaşamaq, qalmaq çətindi.
Qalib gəlmək, zəfər çalmaq çətindi,
Yaman  nigaranam, nigaran, qızım.

Zirvələr həmişə olub çən, duman,
Ora çıxmaq deyil o qədər asan.
Çıxmısan, zirvədə bax belə dayan,
Sənə qoşacaqlar, bil, dastan, qızım.

Mənim nağıl balam, dastan balamsan,
Ananın dərdinə dərman balamsan.
Mənim qartal balam, aslan balamsan,
Aslanlar  içində qəhrəman qızım.

Xankişi boşuna danışan deyil,
Heç kimin işinə qarışan deyil.
Heç kimdən dünyada kar aşan deyil,
Qoy səni qorusun, yaradan, qızım. **4.09.2011**

## Qızım

Qızım Lamiyə İngiltərəyə oxumağa gedərkən

Gedir qürbət elə, qərib diyara,
Allah, özün qoru, mənim qızımı.
Kim tutar qolundan, düşərsə dara?
Allah, özün qoru, mənim qızımı.

Vermişəm canımı qurban ona mən,
Çəkmişəm nazını yana-yana mən.
And verirəm, salma onu nəzərdən,
Allah, özün qoru, mənim qızımı.

Hələ balacadı, mənim gözümdə,
Bərkə-boşa düşməyibdi dözümdə.
İmkan yoxdu, lap gedərdim özüm də,
Allah, özün qoru, mənim qızımı.

Demirəm qoy olsun qızıldan taxtı,
Təki açıq olsun taleyi, baxtı.
Səhər, axşam, gecə, günorta vaxtı,
Allah, özün qoru, mənim qızımı.

Varlığımdı, imanımdı, dinimdi,
Süsənimdi, sünbülümdü, dənimdi.
Dosta dostdu, düşmənlərə qənimdi,
Allah, özün qoru, mənim qızımı.

Bikef olsa, şair könlüm saz olmaz,
Ürəyimdə bahar olmaz, yaz olmaz.
Desəm ki, yaxşıyam, vallah, düz olmaz,
Allah, özün qoru, mənim qızımı.

## Sən hardan bilirsən, nədir muğamat

Səni qınamıram, qınamaram da,
Sən hardan bilirsən, nədir muğamat?
O başqa dünyadı, başqa aləmdi,
Sən hardan bilirsən, nədir muğamat?

Dinləsən Segahı, duysan Şahnazı,
Allah günahından keçər ən azı.
Bircə dəfə qılmamısan namazı,
Sən hardan bilirsən, nədir muğamat?

Çahargahdı, Şurdu, Rastdı, Qatardı,
Çox yoldan azanı yoldan qaytardı.
Açılmayan qıfıllara açardı,
Sən hardan bilirsən, nədir muğamat?

Diz çökübdü, neçə-neçə bəzirgan,
Dar macalda güc alıbdı pəhləvan.
Ona qiymət verib İlham, Mehriban,
Sən hardan bilirsən, nədir muğamat?

Adım Xankişidi, Əliyanlıyam,
Heyif ki, gücüm yox, səni danlıyam.
Heç olmsa demə Azərbaycanlıyam,
Sən hardan bilirsən, nədir muğamat?

## Hər səhər quşlara yem verən bacım

Allah da qoy sənin ruzunu versin,
Hər səhər quşlara yem verən bacım.
Quşların alqışı sənin bəsindi,
Hər səhər quşlara yem verən bacım.

Xoş olsun günlərin, ilin, ayların,
Gəlsin görünməzdən haqqın, payların.
Bəlkə də yatıbdı sənin tayların,
Hər səhər quşlara yem verən bacım.

Güllər pıçıldayır, çiçəklər görür,
Dalğalar danışır, küləklər görür.
Heç kim görməsə də mələklər görür,
Hər səhər quşlara yem verən bacım.

Şöhrətini bu dünyaya yayardım,
Günahın olsaydı, bir-bir yuyardım.
İmkan olsa sənə heykəl qoyardım,
Hər səhər quşlara yem verən bacım.

Gəldi ilahidən götürüb yazdım,
Demə ki, Xankişi yolunu azdı.
Bir nədi ki, sənə yüş şeir azdı,
Hər səhər quşlara yem verən bacım.

**17.02.2023**

## Dünya

(Dildönməz)[32]

Yaxşını yamana yazdın,
Necə deyim, əhsən dünya.
Qanmazı qanana yazdın,
Necə deyim, əhsən dünya.

Şaxta keçdi yazım, yayım,
Daşa dəydi oxum, yayım.
Vaxtsız köçdü əmim, dayım,
Necə deyim, əhsən dünya.

Sinəmi qat-qat oydun sən,
Oymaqdan heç doymadın sən.
Xankişini mat qoydun sən,
Necə deyim, əhsən dünya.

[32] Bütün mənbələrdə qeyd olunur ki, Azərbaycan ədəbiyyatında yalnız və yalnız bir dildönməz var, o da Dədə Ələsgərin adıyla bağlıdır. Lakin bütün müəlliflər görünür diqqətsizlik ucundan burada bir anlaşılmazlığa yol veriblər. Anlaşılmazlıq da odur ki, adı çəkilən həmin şeir dildönməz yox, dildönəndir. Bu barədə bu sətirlərin müəllifinin (X.B.) əsərlərində hər şey aydın şəkildə izah olunub. Beləliklə, təqdim olunan "Dünya" şeiri ilk dildönməz qəbul oluna bilər.

## Eləsin

Taleyim bəd gəlib, qismətim qara,
Dağlar gedən gündən möhtacam qara.
Qaraya ağ desəm, ağa da qara,
El, oba qoy mənə lənət eləsin.

O qədər ki, qan tökülüb bu dağa,
Heç fələk də dözə bilməz bu dağa.
Quşa dönüb şair qonsun budağa,
Sizi o dağlara dəvət eləsin.

Dost yolunda çox düşmüşəm mən dara,
Çəkmə məni imtahana, sən, dara.
Dar günündə hay olmasam dostlara,
Allah mənə dar gün qismət eləsin.

Ağ gəlib gözümə, gedib göz, əldən,
Həsrətdən düşübdü qaşa gözəl, dən.
Əgər doysam sənin kimi gözəldən,
Allah qoy ömrümü zülmət eləsin.

Kim nə bilir, Xankişinin dərdi nə?
O bu bağdan dərmədi nə, dərdi nə?
Əlac etsə kim şairin dərdinə,
Allah dədəsinə rəhmət eləsin.

## Mən

Çoxdu bu dünyada tacir, komersant,
Mən də komersantam, söz satıram mən.
Amma, çoxlarından fərqim odur ki,
Nə satsam, hamısın düz satıram mən.

Nə olsun cibimdə param yoxumdu,
İşimdə, gücümdə haram yoxumdu,
Cazınan, mazınan aram yoxumdu,
Kaman satıram mən, saz satıram mən.

Yeməyib, içməyib diqqət edənə,
Diqqət etməyənə töhmət edənə,
Sözə qiymət qoyub hörmət edənə,
Həmişə, hər zaman naz satıram mən.

Əyri olanları düzləmək üçün,
Satqın olanları dizləmək üçün,
Söz dərk etməyəni bizləmək üçün,
Onda da neyləyim, biz satıram mıən.

Çoxdu bu dünyada tacir, komersant,
Mən də komersantam, söz satıram mən.
Amma, çoxlarından fərqim odur ki,
Nə satsam, hamısın düz satıram mən.

## Öldüyüm günlərim çıxmır yadımdan

Baxtım küsüb məndən, adıma gəlmir,
Nə qohum, nə bir yad dadıma gəlmir.
Anadan olduğum yadıma gəlmir
Öldüyüm günlərim çıxmır yadımdan.

Hara gedirəmsə, tələ görürəm,
Tələnin yanında kələ görürəm.
Gecə yatanda da şələ görürəm,
Öldüyüm günlərim çıxmır yadımdan.

Az - maz çatmır, haqlamışam altmışı,
Çox görmüşəm yayda, baharda qışı.
O qədər yağıbdı həsrət yağışı,
Öldüyüm günlərim çıxmır yadımdan.

Sarvanı olmayan karvanlardanam,
Taleyi dul qalan cavanlardanam,
Gəmisi dəryada batanlardanam,
Öldüyüm günlərim çıxmır yadımdan.

Heç kəs incimәsin haqlı sözümdən,
Özüm də küsürəm bəzən özümdən.
Dünyada nə varsa, düşüb gözümdən,
Öldüyüm günlərim çıxmır yadımdan.

Vüsal həsrət – həsrət yüyürəcəkdir,
Bu həsrət çoxunu göynədəcəkdir,
Ölümlü günlərim göyərəcəkdir,
Öldüyüm günlərim çıxmır yadımdan.

Quru yollarımı yaşa saldılar,
Azdırıb səmtini daşa saldılar.
Dəyişib yazımı, qışa saldılar,
Öldüyüm günlərim çıxmır yadımdan.

Öləni də mənəm, diri də mənəm,
Fağırı da mənəm, nəri də mənəm.
Günahsız öləndən biri də mənəm,
Öldüyüm günlərim çıxmır yadımdan.

## Qürbətdə yaşayan...

Qürbətdə yaşayan hər vətən dostu,
Mənim qardaşımdı, mənim bacımdı.
Pisinən əzəldən aram olmayıb,
Harda yaxşılar var, mənim tacımdı.
Qürbətdə yaşayan hər vətən dostu,
Mənim qardaşımdı, mənim bacımdı.

Bir tərəfi Sibir, bir yanı Amur,
Bir tərəfi Dərbənd, bir yanı Samur.
Göyçə, Təbriz, Şuşa, Laçın, Zəngəzur,
İçimi göynədən ağrım, acımdı,
Qürbətdə yaşayan hər vətən dostu,
Mənim qardaşımdı, mənim bacımdı.

Xankişi sözünü nadana satmaz,
Hər xırda söz üstə dostunu atmaz.
Yüz loğman yığışa, gücləri çatmaz,
Dağların havası tək əlacımdı.
Qürbətdə yaşayan hər vətən dostu,
Mənim qardaşımdı, mənim bacımdı.

**Qəzəl**

Özümə qəzəlxan deyib, xeyli xəta eyləmişəm,
Xeyli xəta edə-edə ömrü fəda eyləmişəm.

Qeyri dostlar məclisində dostuma irad tutmadım,
Gəlinlər, qızlar yanında daim həya eyləmişəm.

Sadəliyin aşiqiyəm, dostlarım da sadələrdi,
Özün çəkən olan yerdə, orda əda eyləmişəm.

Milyon gözəl gələ birdən, peymanımdan dönmərəm
mən, Ol yar ilə ana yurdda - orda buta eyləmişəm.

Qiymətli sırğalar içrə birin bəyənə bilmədim,
Ağsaqqalın, ağbirçəyin sözün sırğa eyləmişəm.

Xankişidən heç nə umman, çoxdan gedibdi karvanı,
Qalan quru nəfəsimdi,çoxdan vida eyləmişəm.

## Qəzəl

Hər kimin ki yoxdur təbi, ondan qəzəlxan olmaz,
Hər kimin ki vardır təbi, onda pərişan olmaz.

Nə qədər istəsən sən, mən hazır nazını çəkim,
Amma ki, canımı alma, candan ərməğan olmaz.

Millәti, xalqı yolunda beş alanlar çox olub,
Millətinə məhəbbətdə heç kim  Mehriban olmaz.

Yoxdursa namusu, qeyrəti əgər ki, bir kəsin,
Üstündən min il keçsə də, ondan müsəlman olmaz.

Bu cahana gələn gündən Allah olub köməyi,
Xankişi Bəxtiyar, inşəallah, peşiman olmaz.

**Qəzəl**

Röyalarda uçduğumdan, röyaları xoşlayıram,
Gövhər orda olduğundan, dəryaları xoşlayıram.

Ömür fani, əfsanədi, vəfalı yarı yoxdursa,
Yarın özündən çox sevən maralları xoşlayıram.

Əzəl gündən yazılıbdı ünvanıma dağlar mənim,
Mənimki ancaq dağlardı, qartalları xoşlayıram.

Xoşlamıram o sevgini, qəlizdirsə, minnətdisə,
Söz-söhbəti sadələri, sayaları xoşlayıram.

Dünyasızlar duya bilməz dünyadan böyük dünyamı,
Dünyadan da böyük olan dünyaları xoşlayıram.

Kitabi-tarixə bir bax, xərçənglər xəyallı olub,
Xankişiyəm bürcüm xərçəng, xəyalları xoşlayıram.

## Qəzəl

Qəzəl aləmində vahid olan Vahiddən çətin gələ,
Elm aləmindəsə vahid olan Zahiddən çətin gələ.

Elə bəxtəvər istərəm, ol behiştdən xəbər gətirə,
Amma bu münval ilə bir kimsə behiştdən çətin gələ.

Çox-çox seyidlər gəlib gedib, sayı-hesabın bilən yox,
Şirvani, ya Şuşalı hər iki seyiddən çətin gələ.

Cavidanə söz deyənlər susubdurlar, bilməm bu nə sirr?
Müşfiqimdən, Cəfərimdən, ya ki Caviddən çətin gələ.

Ay Xankişi bu millətdən min kitab yazsan yenə azdır,
Sənətə, qonağa hörmətdə bu millətdən çətin gələ.

## Qəzəl

Həsrətini çəkməkdən çox pərişan olmuşam,
Pərişan olmağımdan bağrı şan-şan olmuşam.

Azərbaycan oğluyam, yolum haqqın yoludur,
Yaxşı olana yaxşı, pisə yaman  olmuşam.

Segah üstə çox çalıbdı anam mənim laylamı,
Gözəl sözü, kəlamı qəlbə yığan  olmuşam.

Əzəl gündən bu olub, mənim yolum, əqidəm,
Vətənimə, xalqıma canıyanan olmuşam.

Çox nadanlar xəlvəri baxıb mənə gülüblər,
Söz dərk edib duyana daim dərman olmuşam.

Gözəllər də yan keçir, gözucu da baxmırlar,
Getdi daha cavanlıq, ta qocaman olmuşam.

Şair ola bilmədim, şair işləsəm də mən,
Hərdənbir yazmağıma düzü peşman  olmuşam.

Füzulinin, Vahidin ruhu səndən inciyər,
Demə ay Xankişi, mən də qəzəlxan olmuşam.

## Mən boyda dünyanı bu boyda dünya

Gecə-gündüz çox çağırdım gəlmədi,
Bircə yol da heç üzümə gülmədi.
Gözünə ağ gəldi, görə bilmədi,
Mən boyda dünyanı bu boyda dünya.

Namərdin yolunu avand elədi,
Mərdin yollarını kəmənd elədi,
Qovub, qovub axır namərd elədi,
Mən boyda dünyanı bu boyda dünya.

Şamımı söndürdü, o, yandırmadı,
Yatan taleyimi oyandırmadı.
Bir Allah şahiddi dolandırmadı,
Mən boyda dünyanı bu boyda dünya.

Quruca çörəyə elədi möhtac,
Yarı tox saxladı, yarı da ki ac.
İnsafsız ağaya elədi möhtac,
Mən boyda dünyanı bu boyda dünya.

Pərişan elədi, peşman elədi,
Yolum haqq yoluydu, yoldan elədi.
İnanın, heç nəyə qurban elədi,
Mən boyda dünyanı bu boyda dünya.

Namərd kölgəsindən yolumu saldı,
Öldürsə yaxşıydı, canımı aldı.
Gündə yüz yol sancdı, yüz yol da çaldı,
Mən boyda dünyanı bu boyda dünya.

Susuz dəyirmandan məni keçirdi,
Orda nələr gördüm, ilahi sirdi...
Cəhənnəm odundan betər bişirdi,
Mən boyda dünyanı bu boyda dünya.

Xankişi dünyaya gəlib bir kərə,
Bir kərə də danışmayıb üzgörə.
Bu da bir işiydi, çətin yetirə,
Mən boyda dünyanı bu boyda dünya.

## Yenə Heydər dönəcəkdir

Burum-burum tüstü qalxır,
Yenə Şuşadan, Laçından.
Çətin günlər, qaldı gerdə,
Danışmayaq ta qaçqından.

Satqınların axırına
Nə yaxşı ki, çıxa bilək.
Açıldı işin paxırı,
Namərdləri yıxa bilək.

Nə yaxşı ki, bu dünyada,
Xəyanəti boğanlar var.
Çox darıxdıq Heydər üçün,
Heydərləri doğanlar var.

Dünyalar axır Bakıya,
Gurdu bizim bulağımız.
Şükür olsun, bir azcaca,
Sakitləşib qulağımız.

Muğam minib yenə dəbə,
Ürəklərdə qalasıdı.
O qalanı qoruyanlar,
Mehribantək balasıdı.

Vaxt ötüb zaman gələcək,
Yenə Heydər dönəcəkdir.
Geri qalan müşkülləri,
İnanıram çözəcəkdir.

## Arzular

Bir daha xalqımız görməsin dava,
Dağılsın buludlar, açılsın hava.

Qalsa da ürəkdə bir azca ağrı,
Bir də tapdanmasın Vətən torpağı.

Günəş doğsun bundan sonra üzünə,
Torpaq nəfəs alıb, gəlsin özünə.

Heykəllər qoyulsun igidlərimə,
Allah rəhmət etsin şəhidlərimə.

Qarabağa təzə  yollar çəkilsin,
Yollar kənarında güllər əkilsin.

Toy-toya qarışar, bayrama-bayrama,
Biz də, sağ ol deyək, min yol İlhama.

Yox-yox "sağ ol" azdı baş Komandana,
O, bir qənimətdir Azərbaycana.

Hər bölgədə ona heykəl qoyulsun,
Dostlar gülsün, düşmənlər də kor olsun!

Bu idi son arzum mənim Sizlərə,
Allah göstərməsin dar gün Bizlərə!

**20.09.2023**

## Mündəricat

Müəllifdən..........................................................................3
Möcüzəli və sirli Xankişi Bəxtiyar dünyası......................4
ƏN CƏSUR KOMANDAN BIZIM KOMANDAN.........9
Ən cəsur komandan bizim komandan...........................10
Zəfərin mübarək, cənab Komandan...............................12
Xankəndində ucaldıldı bayrağım..................................15
Ulu Öndər kimi bir tarixim var......................................17
Zərifə xanım.....................................................................19
Azərbaycan əsgəri ən igid əsgər....................................21
Cənab İlham, Cənab  Ərdoğan.......................................23
Ey Vətən............................................................................25
Əsl bayram indidir..........................................................29
İlhamtək başımda tacım  var mənim..............................32
Nə gözəl yaraşır bu dövran sizə...................................37
İlhamtək sərkərdə gələ, gəlməyə...................................40
Heydərdi, Heydər........................................................ 41
Bu yol Zəngəzurdan, Laçından keçir.............................42
Qurban olum şəstinə, qurban olum boyuna..................44
O gecə.................................................................................47
Gözün aydın olsun Azərbaycanım.................................49
Ərdoğan dədə...................................................................52
Paşam gəlib ......................................................................54
Mahalım mənim...............................................................55

Başına dönüm....................................................................57
Bir şeir də Qarabağdan de, dədə...................................59
Torpağına qurban olum, Qarabağ.................................62
Qarabağ...........................................................................63
Qarabağ .......................................................................64
Qarabağ düşməndən alınan zaman................................66
Şuşanın dağları özgə aləmdi ......................................... 68
Qurban olsun canım sənə ay Şuşa................................ 70
Millətin birliyi nə gözəlimiş...........................................72
Dünya türkün olub, türkün olacaq.................................73
Heç olmasa, sən ağlama, ay dədə...................................74
Bu kənddən nə qəşəng kənd iyi gəlir.............................79
Biz sizə borcluyuq qazi qardaşım...................................80
Miridən Mirlərin qoxusu gəlir.......................................82
Var ol səni, var ol dünya.................................................83
İlk sözüm İlhamdır, son sözüm İlham...........................85
İlham gəlir deyəndə.........................................................87
XATİRƏLƏR...................................................................88
Analar yerinə mən qocalaydım.......................................89
Bir dənəsən ki, bir dənə...................................................90
Oxu mən yazdığım şeirləri sən.......................................91
Ayağın düşəndə bizim ellərə.........................................92
Məni imtahandan kəsmək çətindi.................................93
Uşaqlıq xatirələri.............................................................94

Allahın dilində danışıram mən ....................................103
Apara bilmədim anamı kəndə.......................................105
Qubadlı..............................................................................107
Görmədim......................... ...........................................109
Çağırır...............................................................................111
Xoşum gəlir......................................................................112
Gəlməsin gözə gözəllər...................................................113
Bəxtim hələ açılmır ki, açılmır......................................114
Mənim dilim kimi dil ola bilməz..................................115
Nəyimə lazımdı fəlsəfə yazım......................................118
Anamı yüz dəfə aldadıram mən ..................................119
Sizcə halım necə olar eloğlu .........................................121
Gülüm...............................................................................123
Maşallah............................................................................124
Varmı.................................................................................125
Gözəldi..............................................................................127
Gözəli öldürmək olmaz gözəl qız.................................129
Gözəl olur.........................................................................130
Bilmirəm "bəli"yəm, bilmirəm dəli.............................131
Məni də yada sal hərdən eloğlu....................................133
Mələklərdə günah olmur gözəl qız..............................136
Gözəllər bir yerdə nə gözəl olur...................................137
Darıxdım...........................................................................138
Sevdasındayam................................................................139
Allah götürməz................................................................140

Onda o Göyçəli deyil, qardaşım....................................141
Məmməd Aslan kimi danışmaq olmaz........................143
Ay Allah.......................... ..............................................144
Xoşlamıram........................................................................145
Söz tutubdu........................................................................146
Qubanın da, Xaçmazın da..............................................147
Ay başına dolandığım.....................................................148
Şairlərlə oturun, durun...................................................149
Gözəllər..............................................................................150
Qızların................................................................................151
Şeiri üzündən oxumaz adam..........................................152
Bir vəfasız dosta...............................................................153
Oğulsansa...........................................................................154
Bilmirəm.............................................................................155
Çoxalıb................................................................................156
Bacım qızına......................................................................158
Sən ağlama, mən ağlaram...............................................160
Şirvan elində......................................................................162
Xatırələr...............................................................................164
Çıxmır ha dağlar...............................................................166
Yavaş – yavaş......................................................................168
Qalıbdı.................................................................................170
Heç kim bu dünyadan heç nə aparmır........................172
Inciyər.................................................................................173
Söz demək olmur...............................................................174

Bu dünayaya gəlmişəm ki... ..........................................176
Nə boyda ürəkdi bu ürək Allah....................................177
Nə yaxşı görüşdük, nə yaxşı yenə................................179
Yeriniz göründü sizin ay Hacı .....................................181
Görməz...........................................................................184
Burda bir qız yaman gəlir xoşuma ...............................185
Dördlüklər......................................................................187
Üzərlik............................................................................190
Dağların qədrini hardan bilərsən... ...............................191
Nəyimə lazımdı fəlsəfə yazım.......................................193
Sizin məhlənizə qonaq gəlmişdim.................................194
Nəvələr bir aləm, nənə bir aləm....................................195
Anasız dünya.................................................................196
Yüzə yüz........................................................................197
İndicə..............................................................................199
Narın-narın....................................................................200
Sizin olsun.....................................................................201
Allah haqqı bu gözəldən yoxdu, yox ..........................202
Şəmkir ellərindən görməmişəm mən............................204
Mənə qoca demə atam balası........................................206
Dünya yalan dünyadı....................................................207
Gördüm..........................................................................209
Gələydi...........................................................................211
Qocalanda analar...........................................................212

Qocalma, ana, qocalma....................................................214
Bircə şeyi bilirəm ki... ..................................................216
Balamın....................................................................219
Qızım......................................................................220
Qızım......................................................................221
Sən hardan bilirsən, nədir muğamat............................223
Hər səhər quşlara yem verən bacım.............................224
Dünya (dildönməz).......................................................225
Eləsin......................................................................226
Mən.........................................................................227
Öldüyüm günlərim çıxmır  yadımdan..........................228
Qürbətdə yaşayan... ......................................................230
Qəzəl......................................................................231
Qəzəl......................................................................232
Qəzəl......................................................................233
Qəzəl......................................................................234
Qəzəl......................................................................235
Mən boyda dünyanı bu boyda dünya...........................236
Yenə Heydər dönəcəkdir...............................................238
Arzular....................................................................240
Mündəricat................................................................241

Ş Ə K İ L

**Məmmədov Xankişi Bəxtiyar oğlu**

Qubadlı rayonunun Başarat kəndində anadan olmuşdur.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, fəlsəfə doktorudur.

AYB və AJB-nin üzvüdür.

Qardaş Türkiyədə, Rumıniyada, Rusiyada, Başqırdıstanda, Özbəkistanda, Qazaxıstanda və bir çox dünya ölkələrinin nüfuzlu elmi jurnallarında nəşr olunmuş 150-yə yaxın elmi əsərin müəllifidir. “Dağlar məni qocaltdı”, “Dağların qədrini hardan bilərsən”, Anasız dünyam”, “Yüzə yüz” şeirlər kitabından sonra təqdim olunan “Ən cəsur komandan bizim komandan” kitabı şairin oxucularla beşinci görüşüdür.